19 okyabr 2018-ci il
№39 (8805)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

## Bu sayımızda

**Model peyk müsabiqəsinin qalibləri mükafatlandırılıb**
⇨səh.3

**Məntiqi təfəkkür inkişaf edir, baza bilikləri möhkəmlənir**
⇨səh.8

**İlahi missiya**
⇨səh.12

**İngiltərədə 11 min gənc müəllim məktəbi tərk edib**
⇨səh.15

# Hədəf hamı üçün keyfiyyətli təhsilə əlçatanlıqdır

### Dövlət Strategiyası 5 il ərzində müəllimlərin peşəkar inkişafı üçün yeni imkanlar yaradıb



"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qəbul olunmasından 5 il keçir. Dövlət Strategiyasının əsas istiqamətlərindən biri də təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən yüksək nüfuzlu təhsilverənin formalaşdırılmasıdır. Başqa sözlə, təhsildə keyfiyyət müəllimdən başlamalıdır. Oktyabrın 18-də "Təhsil işçilərinin əlavə təhsilinin təşkilində yeniliklər" mövzusunda keçirilən seminarda Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun rəhbər heyəti - direktor Vəfa Yaqublu, müavinlər Nəzakət Mehdiyeva və Namiq Nağıyev təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin etmək üçün müəllimlərlə apardıqları işin hesabatını veriblər.

### "5 il ərzində gördüyümüz işin real təsirini hiss etmək o qədər də asan olmayacaq"

"Oktyabr ayında "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qəbul olunmasının 5 ili tamam olur. Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu (TİPİİ) bu Strategiyanın "övladı" sayılır".

⇨Ardı səh.5

# Vəzifələri ilə reallıq arasında qalan məktəb

### Və yaxud bina tikəni sosial infrastruktur düşündürməyəndə

Yaşadığın evin yaxınlığında bir deyil, bir neçə məktəb ola, amma oxumağa sinif, oturmağa parta tapmayasan. Məktəbə götürmürlər, deyirlər sıxlıqdır. Bir yolunu tapıb təhsil almaq hüququnu təmin edirsən. Bu dəfə məlum olur ki, məktəbdə sinif otağı yoxdur. Sinif var, bu dəfə də parta qoyulmayıb...

Bakı şəhərində vəziyyət artıq bir neçə ildir məhz bu cürdür. Bu tədris ilində Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələrində ümumilikdə 442 147 şagird təhsil alır. Məktəblərin I sinfində 48 mindən, IX sinfində 30 mindən, X sinfində 21 mindən, XI sinfində 20 mindən çox şagird oxuyur. Bu rəqəmlər hər il artır. Artım Bakının mərkəzi hissəsindəki və Bakıətrafı qəsəbələrdəki bəzi məktəblərdə xüsusilə çox hiss olunur. Bakıda əsasən Binəqədi, Sabunçu və Xəzər rayonlarında yeni salınmış yaşayış ərazilərində yerləşən məktəblərdə artım çoxdan problemə çevrilib. Ümumiyyətlə, nəinki Bakı, paytaxta yaxın rayonların məktəblərində oxumaq istəyən məktəblilərin sayı da ilbəil çoxalır. Bakı şəhərinin ümumi təhsil məktəblərində müşahidə olunan şagird sıxlığı başqa yaxın rayonlarda, Abşeronda, xüsusən də Xırdalan şəhərində həllini gözləyən məsələdir.

Beləliklə, paytaxt da daxil olmaqla, iri şəhərlərimizdə, rayon mərkəzlərində inkişaf gedir, böyük binalar tikilir, şəhərciklər salınır. Kəndlərdən şəhərə axın edən əhali elə burada məskunlaşır. Tələbat artdıqca binaların, göydələnlərin sayı da artır. Təbii ki, bu da yollardakı tıxaclarda, nəqliyyatdakı gərginlikdə, o cümlədən məktəblərdəki sıxlıqda özünü göstərir.

Torpaq sahəsi alıb ucu-bucağı görünməyən bina tikməklə qazanc əldə edən iş adamları isə bu məsələlərin hər hansı biri barədə düşünmür. Məsələn, "Kristal Abşeron" şirkətinin tikililəri şəhərimizdə kifayət qədər tanınır. Gəlin soruşaq görək, çoxmərtəbəli binalar tikən, Xırdalan şəhərində sadəcə bina deyil, şəhərcik quran şirkət sosial infrastrukturla bağlı yaranan tələbatı nəzərə alırmı?

### "Kristal Abşeron" məktəbin yanında şəhərcik qurmağa üstünlük verir

Məktəb tikmək şirkət üçün o zaman yerinə yetirilməsi zəruri şərt olur ki, sifarişçinin layihəsində qeyd olunsun. Şirkətin özünün tikdiyi bina və şəhərciklərdə bu barədə düşünən olmayıb.

⇨Ardı səh.6

# Direktor vəzifəsinə işə qəbul üzrə müsabiqə keçiriləcək

Təhsil naziri Ceyhun Bayramov "Dövlət ümumi təhsil müəssisələrinə direktor vəzifəsinə işə qəbul üzrə müsabiqənin keçirilməsi barədə" əmr imzalayıb.

Əmrə əsasən, "Dövlət ümumi təhsil müəssisələrinə direktor vəzifəsinə işə qəbul və çalışmanın yaş həddinə çatmış direktorlarla əmək münasibətlərinin tənzimlənməsi Qaydaları" təsdiq edilib.

Direktor vəzifəsinə işə qəbul üzrə müsabiqənin keçirilməsi ilə əlaqədar Təhsil Nazirliyində müsabiqə və apelyasiya komissiyaları yaradılıb.

Dövlət ümumi təhsil müəssisələrinə direktorların işə qəbulu mərkəzləşdirilmiş qaydada dörd mərhələdən ibarət müsabiqə yolu ilə elektron qaydada keçirilir.

Müsabiqədə pedaqoji və ya idarəetmə ixtisas sahələri üzrə ali təhsili, 5 ildən az olmayaraq (təhsilin təşkili və idarə olunması ixtisası üzrə elmi dərəcəsi və elmi adı olduqda 3 il) pedaqoji stajı olan və hazırda ümumi təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olan şəxslər iştirak edə bilərlər.

Müsabiqənin 2018-ci ilin oktyabr-dekabr aylarında keçirilməsi planlaşdırılır.

# Tədrisdə universal dizayn

"Pedaqogika insan inkişafının dünənki deyil, sabahkı gününə istiqamətlənməlidir", -deyə müasir pedaqogika elminin banisi L.S.Vıqotski iddia edirdi.

Bu gün beynəlxalq əməkdaşlıq və elmi yanaşma nəticəsində bəşəriyyətin inkişafında zəruri mərhələ kimi inklüziv təhsilin tətbiqinin ümumi effektiv istiqamətləri işlənib hazırlanıb. İnklüziv təhsil sisteminin hərtərəfli inkişafı həm təhsil, həm də sosial, hüquqi və digər sahələrdə mövcud olan bir çox problemlərin həlli deməkdir. İnklüziv təhsilin əsas məqsədinin - bazasını inklüziv mədəniyyət təşkil edən əsl humanist cəmiyyətin yaradılmasına nail olmağa yardım edən inklüziya nəzəriyyəsinin effektiv strategiyasının axtarışı problemləri bir çox onilliklər elmi-pedaqoji tədqiqatların diqqət mərkəzində olmuşdur.

İnkaredilməz faktdır ki, çox ölkələrdə cəmiyyət həyatının mədəni, sosial, iqtisadi və siyasi sahələrində radikal dəyişikliklər inklüziv təhsilin formalaşması və inkişafı üçün tarixi şərtlər hesab olunur. Bu dəyişikliklər sağlamlıq imkanları məhdud olan insanlara münasibətdə cəmiyyətin ideologiyasının, şübhəsiz, dəyişilməsi ilə fərqlənir. Cəmiyyət tərəfindən əlillik faktının qəbul olunması tədricən baş verib. Burada inklüziv təhsilin inkişafı tarixini qısaca olaraq açıqlamaq istərdik.

### İnklüziv təhsilin inkişaf tarixi

İnklüziv təhsilin formalaşması və inkişafı haqqında xarici ədəbiyyatı tədqiq edərək bir neçə mərhələni ayırd etmək mümkündür. Ən uzunmüddətli "qəti inkar mərhələsi" - XVIII əsrə qədər davam edib. Bu mərhələni sağlamlıq imkanları məhdud insanların təhsil və həyat ilə bağlı hüquqlarının bütünlüklə inkar olunması (sosial izolyasiya və seqreqasiya, hətta məhv edilməsi) ilə xarakterizə etmək olar. XVIII əsrin əvvəllərinə qədər əlilliyi olan insanlar sərt təqiblərə və mövhumata məruz qalırdılar. Onları insan hesab etmirdilər. Təbliğ olunurdu ki, əlillik günaha görə ilahi məhkəmənin cəzasının nəticəsidir. Təqib və cəza, hətta sağlamlıq imkanları məhdud insanların məhv edilməsi kilsə tərəfindən qanuniləşdirilirdi. Həmin zamanlar əlillik anlayışı şər və cadugərlik ilə təsbit edilirdi.

İkinci mərhələ - XVIII əsr - XX əsrin əvvəli sağlamlıq imkanları məhdud insanlara qarşı münasibətin tədricən dəyişilməsi, inklüziv təhsil ideyasının yaranması və onun tətbiqi ilə bağlı ilk cəhdlərin göstərilməsidir. Bu dövr cəmiyyətin belə insanlara qarşı münasibətinin transformasiyasının başlanğıcıdır. Qeyd etmək lazımdır ki, təşəkkül mərhələsi ümumtəhsil məktəblərində sağlamlıq imkanları məhdud uşaqların təlimi üçün imkanların təmin olunmasına yönəlmiş yeni siyasət və dövlətin münasibətinin dəyişilməsi ilə xarakterizə olunur.

Pedaqogika elminin tədqiqatçıları L.S.Vıqotski, R.Sullivan və N.McIntyren və digərlərinin yazdıqları kimi, XIX əsrin ilk onilliyi ərzində müştərək təhsil problemi nəinki mütərəqqi pedaqoqları düşündürürdü, həmçinin də, ümumilikdə, bəzi Avropa ölkələrinin xalq məktəblərində uğurla tətbiq olunurdu.

⇨Ardı səh.7

# Avropa təhsil məkanına inteqrasiyanı təmin edən əsas sənəd

Oktyabrın 16-da Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və Təhsil Nazirliyi ilə birgə həyata keçirilən "Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin İcrasına Dəstək" layihəsinin açılış konfransı keçirilib.

Tədbirin əsas məqsədi müvafiq dövlət qurumlarından və beynəlxalq təşkilatlardan olan təcrübəli mütəxəssisləri və digər maraqlı tərəfləri bir araya gətirmək, onları layihənin məzmunu və əsas gözləntiləri barədə məlumatlandırmaqdır.

Konfransda çıxış edən təhsil nazirinin müavini Məhəbbət Vəliyeva Azərbaycan Prezidenti İlham Əliyevin təhsilə xüsusi önəm verdiyini vurğulayıb. Nazir müavini qeyd edib ki, Azərbaycanda təhsil sisteminin insan kapitalının inkişafı çağırışlarına cavab verməsi və təhsilin keyfiyyət göstəricilərinin Avropa standartlarına uyğunlaşdırılması istiqamətində mühüm addımlar atılır.

⇨Ardı səh.6



# "Müəllimlər biliklər üzərində inhisarçılığı birdəfəlik itiriblər"

### Rusiyanın ən yaxşı müəllimi Alixan Dinayev: "Nə qədər ki, siniflərdə 20-30 şagird var, təhsilin keyfiyyətinin yüksəlməsindən danışmaq çətindir"

Səh.9

## RƏSMİ XRONİKA



■ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellatinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

■ Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 18-də Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini, xarici işlər naziri Rəşid Meredovu qəbul edib.

■ Dövlət başçısı İlham Əliyev oktyabrın 17-də Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi və müxbir üzvlərinin aylıq rütbə maaşlarının artırılması haqqında sərəncam imzalayıb.

■ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də Şəki rayonunun Çayqaraqoyunlu-Turan-Cəyirli-Qozlubulaq-Sarıca-Qayabaşı-Bolludərə-Qaratorpaq avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.

■ Prezident İlham Əliyev oktyabrın 16-da Sumqayıt Dövlət Dram Teatrının əməkdaşlarına, X.N.Gəncəliyə "Əməkdar artist" fəxri adının verilməsi, Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu, Mingəçevir Dövlət Dram Teatrı əməkdaşlarının "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu", "Tərəqqi" medalı ilə təltif edilmələri haqqında sərəncamlar imzalayıb. Dövlət başçısı həmin gün verdiyi başqa bir sərəncamla isə Sumqayıt Dövlət Dram Teatrının bir qrup əməkdaşını "Tərəqqi" medalı ilə təltif edib.

■ Dövlət başçısı İlham Əliyev oktyabrın 16-da Qax rayonunun Qax-Qıpçaq-Ağyazı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.

■ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Lənkəran, Astara və Lerik rayonlarında səfərdə olub. Dövlət başçısı səfəri çərçivəsində bir sıra iqtisadi və sosial yönümlü obyektlərin açılışlarında iştirak edib.

■ Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 15-də Lənkəran-Lerik avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər, Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun tikintisinə dair əlavə tədbirlər, Lənkəran rayonunda çoxmənzilli binaların dam örtüklərinin dəyişdirilməsi ilə bağlı tədbirlər, Astara şəhərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair tədbirlər, Astara rayonunda sel və daşqın təhlükəli çayların zərərli təsirinə qarşı mübarizə və qəza vəziyyətinin aradan qaldırılması tədbirləri, Lerik şəhərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair tədbirlər haqqında sərəncamlar imzalayıb.

■ Prezident İlham Əliyev oktyabrın 12-də A.B.Əzizova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sərəncam imzalayıb.

## Ağcabədi rayonunun Salmanbəyli kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ağcabədi rayonunun Salmanbəyli kəndində 432 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu sərəncamın 1-ci hissəsində göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 12 oktyabr 2018-ci il*

# Lerikdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilən 100 yerlik körpələr evi-uşaq bağçası açılıb

Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunmuş 100 yerlik Lerik şəhər 2 saylı körpələr evi-uşaq bağçasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsdi.

Uşaqların sosial müdafiəsinin gücləndirilməsi, onların sağlam və xoşbəxt böyüməsi bu gün dövlətimizin həyata keçirdiyi siyasətdə mühüm yer tutur. Respublikamızın bütün bölgələrində yeni körpələr evi-uşaq bağçalarının inşası, onların müasir avadanlıqla təchiz edilməsi bunun əyani təsdiqidir. Yeni uşaq tərbiyə müəssisələrinin inşasına, eləcə də mövcud olanların ən müasir tələblər səviyyəsində yenidən qurulmasına dövlət tərəfindən böyük dəstək verilir. Bu istiqamətdə həyata keçirilən dövlət proqramları ilə yanaşı, Heydər Əliyev Fondu da bu sahəyə xüsusi töhfə verir. Fondun məktəbəqədər tərbiyə müəssisələrinin yenidən qurulması ilə bağlı həyata keçirdiyi layihələr bu baxımdan çox mühüm rol oynayır. Heydər Əliyev Fondunun "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramı uşaqların təlim-tərbiyəsinin, onların bilikli və savadlı yetişməsinin Fondun fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil etdiyini bir daha sübut edir.



Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş bağçalardan biri də Lerik şəhər 2 saylı körpələr evi-uşaq bağçasıdır. Bu cür gözəl və hərtərəfli şəraiti olan körpələr evi-uşaq bağçalarının istifadəyə verilməsi bir daha sübut edir ki, dövlətimizlə bərabər, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da gələcəyimiz olan uşaqlarla bağlı bütün məsələlərə xüsusi həssaslıqla yanaşır, onların sağlam və xoşbəxt böyüməsi üçün əlindən gələni əsirgəmir. Müasir görkəmi ilə seçilən belə müəssisələr həm də yerləşdiyi ərazinin gözəlliyini daha da artırır.

Bildirildi ki, bu uşaq müəssisəsinin inşasına 2015-ci ilin mayında başlanılıb. İnşaat işləri 2018-ci ilin mayında yekunlaşıb. İkimərtəbəli binada qrup, yataq, yemək otaqları və xidməti otaqlar var. Burada, eyni zamanda, musiqi və gimnastika, həmçinin kompüter otağı da balacaların ixtiyarına verilib. Müxtəlif qrupların fəaliyyət göstərəcəyi bağçada uşaqların təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmaq, onların istedadlarını üzə çıxarmaq üçün hərtərəfli şərait yaradılıb. Otaqların hamısı zəruri avadanlıq və əyani vasitələrlə təchiz olunub. Körpələr evi-uşaq bağçasının ərazisində balacaların əylənməsi üçün meydança yaradılıb.

Müəssisədə 22 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulub.

Bütün bunlar bir daha da göstərir ki, Heydər Əliyev Fondunun təhsillə bağlı fəaliyyət dairəsində məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulmasına, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə nail olunmasına geniş yer ayrılıb. Ümumilikdə, ölkədə son illərdə uşaqların sosial müdafiəsinin gücləndirilməsi və onların xoşbəxt böyümələri naminə olduqca mühüm layihələr icra edilib. Bunların arasında mövcud körpələr evi-uşaq bağçalarının əsaslı təmiri ilə yanaşı, yeni-yeni bu cür müasir müəssisələrin yaradılması vacib əhəmiyyət kəsb edir.

## Lerik rayonunun Orand kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Lerik rayonunun Orand kəndində 180 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,0 (bir) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu sərəncamın 1-ci hissəsində göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 15 oktyabr 2018-ci il*

## Lənkəran rayonunun Şıxakəran kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Lənkəran rayonunun Şıxakəran kəndində 432 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 2,0 (iki) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu sərəncamın 1-ci hissəsində göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 15 oktyabr 2018-ci il*

# Avropalı ekspertlər Tvinninq layihəsi çərçivəsində Azərbaycana səfər edib



Avropa Komissiyasının "Azərbaycanda ali təhsilin gücləndirilməsinə dəstək" adlı Tvinninq layihəsi çərçivəsində növbəti ekspert missiyası ölkəmizə səfər edib.

Tvinninq layihəsinin "Səriştəyə əsaslanan yanaşmanın əhatə olunması məqsədi ilə seçilmiş Milli Təhsil Standartlarının yenidən müəyyənləşdirilməsi" adlı birinci komponenti üzrə Azərbaycana gələn ekspert qrupuna Fransanın Lion Universitetinin professoru Didier Ronze, Litva prezidentinin təhsil məsələləri üzrə məsləhətçisi Saule Maçiiukaite-Jviniene və Latviyanın Akademik Məlumat Mərkəzinin Akkreditasiya şöbəsinin müdir müavini Yolanta Silka daxildir.

Səfərin məqsədi ali təhsil müəssisələrinin müvafiq nümayəndələrini əmək bazarının tələbinə dair toplanmış məlumatların seçilmiş ixtisaslar üzrə təhsil proqramlarında nəzərə alınması ilə bağlı məlumatlandırmaq, bu sahədə mövcud Avropa təcrübəsini bölüşmək, metodologiya və təlimatların işlənib hazırlanmasından ibarətdir.

Missiya çərçivəsində Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti və Gəncə Dövlət Universitetində professor-müəllim heyəti üçün seminarlar keçirilib. Seminarlarda Azərbaycan Texniki Universiteti, Bakı Mühəndislik Universiteti, Sumqayıt Dövlət Universiteti, Azərbaycan Texnologiya Universiteti və Azərbaycan Dövlət Aqrar Universitetinin də akademik və inzibati heyəti iştirak edib.

"Azərbaycanda ali təhsilin gücləndirilməsinə dəstək" layihəsinin məqsədi ali təhsil sistemini səriştəyə əsaslanan təhsil yanaşmasına uyğunlaşdırmaqla daha da inkişaf etdirməkdən, eləcə də tələbəyönümlü təhsil sistemino və təlim nəticələrinə əsaslanan yanaşmaya keçidi dəstəkləməkdən ibarətdir. İki il ərzində həyata keçiriləcək layihənin icrasına cari ilin aprel ayında başlanılıb. Layihənin icrasına Fransa, Latviya və Litvanın müvafiq qurumları və ekspertləri cəlb olunub.

# "CanSat Azərbaycan 2018"

## Model peyk müsabiqəsinin qalibləri mükafatlandırılıb



Oktyabrın 16-da Milli Aviasiya Akademiyasında Təhsil Nazirliyi və "Azərkosmos" ASC-nin birgə təşkilatçılığı ilə "CanSat Azərbaycan 2018" model peyk müsabiqəsində uğur qazanan komandaların təltifetmə mərasimi keçirilib.

Mərasim iştirakçıları əvvəlcə komandalar tərəfindən hazırlanmış peyk modellərinin sərgisi ilə tanış olublar.

Tədbirdə Milli Aviasiya Akademiyasının rektoru, Kosmik Məsələlər üzrə Şuranın sədri, akademik Arif Paşayev, Kosmik Məsələlər üzrə Şuranın həmsədri, akademik Roald Saqdeyev, təhsil naziri Ceyhun Bayramov, AMEA-nın prezidenti Akif Əlizadə, "Azərkosmos" ASC-nin sədri Rəşad Nəbiyev və ali təhsil müəssisələrinin rektorları iştirak edib.

Milli Aviasiya Akademiyasının rektoru, Kosmik Məsələlər üzrə Şuranın sədri, akademik Arif Paşayev çıxış edərək "CanSat Azərbaycan 2018" müsabiqəsinin gənclərin kosmik texnologiyalar sahəsinə marağının artırılmasına xidmət etdiyini bildirib. Rektor müsabiqənin finalında iştirak edən hər bir komandanın qalib olduğunu və adlarını Azərbaycanın ilk "CanSat" müsabiqəsinin tarixinə böyük hərflərlə yazdıqlarını diqqətə çatdırıb.

Azərbaycan Respublikası Kosmik Məsələlər üzrə Şuranın həmsədri, Milli Aviasiya Akademiyasının aerokosmik məsələlər üzrə elmi məsləhətçisi, akademik Roald Saqdeyev müsabiqədə tələbələrin həvəslə iştirak etdiyini və bu tədqiqatların onların gələcək inkişafı üçün əhəmiyyətli olduğunu deyib.

Təhsil naziri Ceyhun Bayramov isə qeyd edib ki, Azərbaycanda ilk dəfə keçirilən "CanSat Azərbaycan 2018" model peyk müsabiqəsində ölkənin 11 ali təhsil müəssisəsindən 31 komandanın iştirak etməsi tələbələrin bu yarışmaya olan yüksək marağından xəbər verir. Nazir ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən insan kapitalının inkişafına göstərilən yüksək diqqət və qayğının müsbət nəticələr verdiyini nəzərə çatdırıb. Təhsil naziri bildirib ki, uğurla reallaşdırılan düşünülmüş dövlət siyasəti nəticəsində Azərbaycanın adı kosmik sənayesi olan azsaylı ölkələrin siyahısına daxil edilib. Bu ilin sentyabrında Azərbaycanın sayca 3-cü peykinin orbitə çıxarılması ölkəmizin dünya kosmik sənayesindəki mövqeyinin daha da möhkəmləndirilməsi baxımından tarixi hadisə olub.

Nazir onu da əlavə edib ki, gənclərdə kreativ düşüncələrin, innovativ yanaşma vərdişlərinin formalaşması müasir dövrümüzdə əsas prioritetlərdən hesab olunur. Bu baxımdan "CanSat Azərbaycan 2018" müsabiqəsinin əhəmiyyətli olduğunu diqqətə çatdıran nazir müsabiqənin yüksək səviyyədə təşkil olunduğunu deyib.

Təhsil naziri Ceyhun Bayramov müsabiqə qaliblərini təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Nazir əmin olduğunu bildirib ki, müsabiqə qalibləri gələcəkdə ölkəmizi beynəlxalq yarışlarda layiqincə təmsil edəcəklər.

Ölkəmizdə ilk dəfə keçirilən müsabiqəyə böyük maraq olduğunu deyən "Azərkosmos" ASC-nin sədri Rəşad Nəbiyev qeyd edib ki, tələbələrin bu layihədə iştirakı onların gələcəkdə kosmosa doğru atdığı kiçik bir addımdır.

Daha sonra müsabiqənin final mərhələsində uğur qazanan komandalara - birinci yerin qalibi Milli Aviasiya Akademiyasının "Envi_Sat", ikinci yerin qalibi Bakı Ali Neft Məktəbinin "İnterstellar", üçüncü yerləri bölüşən M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının "MS_U_FO" və Bakı Mühəndislik Universitetinin "Rodimus" komandalarına qiymətli hədiyyələr və sertifikatlar, müsabiqə müddətində göstərdikləri dəstəyə görə komandaların təmsil olunduğu təhsil müəssisələrinə təşəkkürnamə verilib. Müsabiqədə fərqlənən digər komandalara həvəsləndirici mükafatlar təqdim edilib.

Tədbirdə "CanSat Azərbaycan" müsabiqəsinin ölkənin milli kosmik sənayesində innovasiyaların tətbiq edilməsi və bu sahədə yerli kadrların hazırlanmasında xüsusi önəm daşıdığı qeyd olunub. Növbəti illərdə "CanSat Azərbaycan" müsabiqəsinin davamlı olacağı və regional yarışa çevriləcəyi də tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Tədbir Milli Aviasiya Akademiyasının təqdim etdiyi bədii proqramla başa çatıb.

Qeyd edək ki, "CanSat Azərbaycan 2018" müsabiqəsinin əsas məqsədi tələbə peyki layihələrinə marağın artırılması, ölkənin beynəlxalq müsabiqələrdə daha çox və təcrübəli komandalarla təmsil olunması, bununla milli peyk sənayesinin stimullaşdırılması, gələcəkdə nano və digər real peyklərin məhz yerli mütəxəssislər tərəfindən hazırlanması üçün bacarıq və vərdişlərin əldə edilməsinə nail olmaqdır.

## Təhsil nazirinin Tərtər şəhərində vətəndaşların qəbulu vaxtı dəyişdirilib

Təhsil naziri Ceyhun Bayramovun 19 oktyabr 2018-ci il tarixinə nəzərdə tutulmuş Tərtər şəhərindəki Gənclər Mərkəzində öncə qəbula yazılmış Ağdam, Füzuli, Beyləqan və Tərtər rayon sakinlərinin qəbulunun vaxtı 2 noyabr 2018-ci il tarixinə dəyişdirilib.

## "Heydər Əliyev və Azərbaycan tarixi" 5-ci ümumrespublika bilik yarışı keçirilib



Oktyabrın 18-də Heydər Əliyev Mərkəzində "Heydər Əliyev və Azərbaycan tarixi" 5-ci ümumrespublika bilik yarışı keçirilib.

Heydər Əliyev Mərkəzinin təşkilatçılığı və Təhsil Nazirliyinin dəstəyi ilə həyata keçirilən layihə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətinin öyrənilməsi, ulu öndərin irsinin yaşadılması və gənclər arasında təbliği, eyni zamanda, gənc nəslin elmə, maarifləndirici yarışlara marağının artırılması məqsədi daşıyır.

"Heydər Əliyev və Azərbaycan tarixi" ümumrespublika bilik yarışı 2014-cü ildən etibarən hər il təşkil olunur.

Azərbaycan 1991-ci ildə öz müstəqilliyini yenidən bərpa etsə də, 1993-cü ilin iyun ayının ortalarınadək ölkədəki mövcud vəziyyət bu müstəqilliyin kövrək olduğunu göstərdi. 1993-cü ildə ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycanda sabitliyin və inkişafın başlanğıcı oldu. Müasir Azərbaycan ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hər bir sahədə inkişaf edən və güclü dövlət kimi bərqərar oldu.

"Heydər Əliyev və Azərbaycan tarixi" 5-ci ümumrespublika bilik yarışında 47 ali təhsil müəssisəsinin komandası iştirak edib. Azərbaycan İlahiyyat İnstitutu, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının komandaları bu il ilk dəfə olaraq müsabiqəyə qoşulublar.

Müsabiqə 3 turda keçirilib və hər turda Azərbaycanın tarixi, mədəniyyəti, ümummilli lider Heydər Əliyevin irsini əhatə edən 12 sual səsləndirilib. Qalib komandalar turlar üzrə qazanılmış xalların cəminə görə müəyyən edilib. Dövlət Sərhəd Xidməti Akademiyası 1-ci, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası 2-ci, Daxili İşlər Nazirliyinin Polis Akademiyası 3-cü yeri qazanıb. Qalib komandalar mükafatlandırılıb.

Münsiflər heyətində Heydər Əliyev Mərkəzi, Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun nümayəndələri təmsil olunublar.

## Təhsil naziri "Clarivate Analytics" şirkətinin icraçı direktoru ilə görüşüb

Oktyabrın 16-da təhsil naziri Ceyhun Bayramov "Clarivate Analytics" ("Thomson Reuters") şirkətinin İnkişaf etmədə olan bazarlar üzrə icraçı direktoru xanım Viji Krişnan ilə görüşüb.

Görüş zamanı Təhsil Nazirliyi ilə dünyanın ən böyük elektron elmi-analitik informasiya bazası olan "Clarivate Analytics" arasında 2015-ci ildən başlanılmış əməkdaşlığın mövcud vəziyyəti, bu müddət ərzində əldə olunmuş uğurlar və əməkdaşlığın gələcək inkişaf perspektivləri müzakirə edilib.

# "Sahibkar - peşə təhsili əməkdaşlığı"

## Kadr hazırlığı işəgötürənlərin tələblərinə uyğun aparılacaq



Oktyabrın 16-da "Peşə təhsilinə dəstək" layihəsi çərçivəsində Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) təşkilatçılığı ilə "Sahibkar - peşə təhsili əməkdaşlığı" mövzusunda milli konfrans keçirilib.

Almaniyanın Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyi, Almaniya İqtisadi İnkişaf Fondu tərəfindən maliyyələşdirilən layihənin əsas məqsədi ölkədə gənclər arasında məşğulluğun artırılması üçün sahibkarlarla peşə təhsil müəssisələri arasında əməkdaşlığı gücləndirmək və əmək bazarının ehtiyaclarına uyğun kadrların hazırlanmasına dəstək olmaqdır.

Tədbirdə çıxış edən ASK-nın prezidenti Məmməd Musayev iqtisadiyyatın müxtəlif sektorlarının inkişafı üçün sahibkarlarla peşə təhsili müəssisələri arasındakı əlaqələrin daha sıx qurulmasının əhəmiyyətini vurğulayıb.

Konfransda çıxış edən təhsil nazirinin müavini Firudin Qurbanov ölkə başçısı tərəfindən peşə təhsilinin inkişafına göstərilən diqqət və qayğıdan bəhs edərək, bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlər və əldə olunan uğurlu nailiyyətlər barədə ətraflı məlumat verib. Bildirilib ki, "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"nə əsasən, işəgötürənlərin peşə təhsili sisteminə cəlb edilməsi, kadr hazırlığının işəgötürənlərin tələblərinə uyğun aparılması və təhsildə dövlət-özəl tərəfdaşlığı sisteminin həyata keçirilməsi əsas şərtlərdən biridir.

"Peşə təhsili haqqında" qanunda işəgötürənlərin stimullaşdırılması ilə bağlı maliyyə, hüquqi və digər sahələr üzrə güzəştlərin verilməsinin nəzərdə tutulduğunu qeyd edən nazir müavini bildirib ki, bu, özəl sektorun peşə təhsili ilə tərəfdaşlığa daha çox maraq göstərməsinə imkan yaradacaq.

Tədbirdə Almaniyanın ölkəmizdəki səfirinin müavini xanım Andrea Sühl çıxış edərək təmsil etdiyi ölkənin Azərbaycanda peşə təhsilinin inkişafında maraqlı olduğunu bildirib, xarici sahibkarları da peşə təhsili müəssisələri ilə əməkdaşlığa dəvət edib.

Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin şöbə müdiri Zamin Bədirxanov işəgötürənlər ilə peşə təhsili müəssisələri arasında müxtəlif səviyyələrdə əməkdaşlığın qurulmasının günün tələbi olduğunu vurğulayıb, agentlik tərəfindən bu istiqamətdə görülən işlər və həyata keçirilən layihələr barədə ətraflı məlumat verib.

Daha sonra ekspertlər layihə çərçivəsində görülən işlər barədə təqdimatla çıxış edib, iştirakçıları maraqlandıran sualları cavablandırıblar.

# Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun adı Oksfordun şərəf tarixinə - Klarendon Arkasına həkk olundu

Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, AMEA-nın vitse-prezidenti, Oksford Universitetinin Nizami Gəncəvi adına Elmi mərkəzinin *(www.orinst.ox.ac.uk/nizami-ganjavi-programme-study-languages-and-cultures-azerbaijan-and-caucasus)* Azərbaycan tərəfdən rəhbəri, Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun *(www.bfsac.org.uk)* Qəyyumlar Şurasının sədri akademik Nərgiz Paşayeva Oksford Universitetinin Kansleri Lord Patten Barnesin rəhbərlik etdiyi Xeyriyyəçilər Komitəsinin üzvlüyünə təntənəli surətdə qəbul edilib.

AZƏRTAC xəbər verir ki, Oksford Universitetinin Kansleri Lord Patten Barnesin dəvət məktubu ilə oktyabrın 11-də professor Nərgiz Paşayeva Kanslerin Xeyriyyəçilər Komitəsinin 28-ci illik xüsusi mərasimində həmin şərəfli titulu qəbul etmək üçün iştirak edib. Bununla yanaşı, diqqətləri çəkən və Oksford Universiteti tarixinə yazılan bir qərarın seremonial icrası da baş tutdu. Belə ki, Oksford Universiteti rəhbərliyinin və Elmi Şurasının qərarı ilə Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun adı Kanslerin Xeyriyyəçilər Komitəsinin daimi üzvü kimi dünya şöhrətli alimlər, ictimai xadimlər və nüfuzlu təşkilatlarla yanaşı, XVII əsrə aid Klarendon binasının Arkasında *(www.oxfordhistory.org.uk/broad/buildings/south/clarendon.html)* Xatirə Lövhəsinə həkk olundu.

Oksford Universitetinin dəyər verdiyi tərəfdaşlarını daimi tanıtdırmaq ənənəsi var. Bu tarixi ənənəyə əsasən, XIV əsrdən başlayaraq universitetin birinci dərəcəli binası, onun qəlbi sayılan tarixi əhəmiyyətli məşhur Bodleyn Kitabxanasının *(www.bodleian.ox.ac.uk)* girişində yerləşən Klarendon Arkasında *(www.oxfordhistory.org.uk/broad/buildings/south/clarendon.html)* universitetin ən alicənab xeyriyyəçilərinin və dünyada tanınmış insanların adları həkk edilir. Bu tarixi bina 1711-1715-ci illərdə Nicholas Hawksmoor tərəfindən tikilib. Bina ilk vaxtlar Oksford Universitetinin Mətbuat evi üçün nəzərdə tutulmuşdu. İndi burada Bodleyn kitabxanasının bir hissəsi yerləşir. Klarendon binasının adı İngiltərədə qeydə alınmış tarixi binaların siyahısında ilk sıralardadır. Binanın bir hissəsi Lord Klarendon tərəfindən maliyyələşdirildiyi üçün onun şərəfinə adlandırılıb. İndiyədək Klarendon Arkasında universitetin ən görkəmli xeyriyyəçilərinin adları həkk edilib. Burada Oksford və dünya tarixində ən tanınmış şəxslərin - Ser Tomas Bodley, Ülyahəzrət Kraliça I Elizabeth, John Radcliff, William Camden, I Kral Charles, Elias Ashmole, I Kral George, George Aldrich, Joseph Boden, Anne Kennicott, Ser Robert Taylor, John Hall, Charlotte Sutherland, John Ruskin, Rebecca Flower Squire, Christopher Welch, Henry Wilde, The Rhodes Trust, The Rockefeller Fondu, Sir Arthur John Evans, The Ford Fondu, The Bernard Sunley Xeyriyyə Fondu, Institute of Transport, Action Research, Cancer Research Campaign, Fereydoun Soudavar, British Petroleum kimi şirkətlərin adları qeyd olunub. Müasir dövrə aid olan Weston Ailəsi, Professor Richard Diebold Jr., Ser Ronald Cohen, Leonard Blavatnik kimi məşhurlar da daxil olmaqla 230 nəfər görkəmli alim, ictimai xadim və nüfuzlu təşkilatların adları xatirə lövhəsinə əbədi olaraq yazılıb. 2018-ci il oktyabrın 11-dən etibarən Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun adı da dünyada tanınmış məşhurlarla yanaşı, Oksford Universitetinin Klarendon Arkasına həkk edildi.

Qürurla qeyd olunmalıdır ki, Oksford Universitetində xüsusi xidmətləri olan şəxslər arasında ilk dəfə azərbaycanlı alim, Oksford Universitetinin Nizami Gəncəvi adına Elmi mərkəzinin (www.orinst.ox.ac.uk/nizami-ganjavi-programme-study-languages-and-cultures-azerbaijan-and-caucasus) yaranmasının təşəbbüskarı və rəhbəri, Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun Qəyyumlar Şurasının sədri, professor Nərgiz Paşayeva Oksford Universitetinin Kanslerinin Xeyriyyəçilər Komitəsində rəsmən daimi təmsil olundu. Beləliklə, həmyerlimiz professor Nərgiz Paşayeva son reytinqə görə dünyanın birinci ali məktəbi sayılan Oksford Universitetinin tarixində xüsusi xidmətləri olan alimlərdən, ictimai xadimlərdən və nüfuzlu təşkilatlardan ibarət Kanslerin Xeyriyyəçilər Komitəsinə üzvlüyə qəbul edilən və universitetin xüsusi mantiya və qızılı ipli baş geyim dəsti ilə təltif edilən ilk azərbaycanlı oldu. Universitet tarixində xüsusi xidmətləri olan alimlərə verilən bu şərəf professor Nərgiz Paşayevanın əməyinə və onun təşəbbüsü ilə Oksford Universitetində yaradılmış Nizami Gəncəvi Elmi Mərkəzinin fəaliyyətinə verilən dəyərli qiymətin göstəricisidir. Protokola və ənənəyə uyğun olaraq Kanslerin Xeyriyyəçilər Komitəsinin üzvlüyünə qəbul edilən şəxslər Komitənin digər üzvlərindən qızılı sapla bəzədilmiş xüsusi geyimi ilə seçilirlər. Bununla da həmin üzvlərin Oksfordun akademik sahələrinə uzunmüddətli və çoxsahəli töhfə vermələri Oksford Universiteti tərəfindən böyük ehtiramla qəbul və qeyd olunur.

Xeyriyyəçilər Komitəsinin ənənəvi illik toplantısı Oksford Universitetinin ən görkəmli və sadiq dostlarını bir araya gətirir. Tədbirdə komitəyə yeni üzvlərin qəbul edilməsi və bir sıra mühüm elmi-tədqiqat işlərinin təqdimatı keçirilir. Həmin gün ən nüfuzlu alimlərin, xeyriyyəçilərin və təşkilatların adları əvvəl bildirdiyimiz kimi, başqalarından seçilərək xatirə lövhəsində həkk edilir. Həmçinin aktual məsələlərlə əlaqədar tanınmış alimlərin təqdimatları dinlənilir, universitet rəhbərliyi ilə müzakirələr aparılır. Rəsmi mərasimdən sonra universitetin yeni tədqiqat mərkəzlərinin bir hissəsinə baxış da keçirilir.

Ənənəyə uyğun olaraq bu il tarixi Divinity School (İlahiyyat Fakültəsi) binasında xüsusi mərasim keçirilib. Dünya miqyaslı alim və ziyalılarla yanaşı, professor Nərgiz Paşayevaya Oksford Universitetinin tarixində xidməti olan alim kimi mantiya və qızılı ipli baş geyim dəsti təqdim edilib. Sonra Kanslerin Xeyriyyəçilər Komitəsinin üzvləri və digər mərasim iştirakçıları Oksford



Oksford Universitetinin Kansleri Lord Patten Barnes və prof.N.Paşayeva (11.10.2018)

Universitetinin Kansleri Lord Patten Barneslə görüşüb, xatirə şəkilləri çəkdiriblər.

Kanslerin Xeyriyyəçilər Komitəsinin 28-ci illik toplantısı hələ XVI əsrdə Britaniya parlamentinin toplaşdığı məşhur Konvokeyşn binasında (Convocation House) keçirilib. Tədbirin əvvəlində komitəyə yeni üzvlərin qəbul edilməsi mərasimi baş tutub. Oksford Universitetinin ənənələrinə uyğun olaraq, komitənin yeni və mövcud üzvləri prosedura uyğun sıra ilə Vren Qapısı (Wren Door) və Kansler Komitəsindən keçərək İlahiyyat fakültəsindən Convocation binasına təntənəli surətdə daxil olublar. Sıranın başında mərasimin marşalı, mərasimin aparıcısı Kansler Lord Patten Barnesin, daha sonra baş proktor, kiçik proktor, vitse-kansler, iclas iştirakçısı, proktorların katibi, ardınca mövcud Komitə üzvləri: Dr Chung Hon Dak, Mr Peter Levine, Dr Kotaro On, Sir Howard Stringer, Dr Robert Easton, professor Raymond Dwek, Lady Marina Marks, Dame Theresa Sackler, Mr Bernard Taylor, professor Chas Bountra qədim mərasim zalına daxil olublar.

Mərasimin ardıcıllığına görə Kanslerin Xeyriyyəçilər Komitəsinin mövcud üzvlərinin ardınca professor Nərgiz Paşayeva ilə yanaşı, digər yeni üzvlər təltifolunma və yüksək kürsü zalına daxil olublar. Onların arasında Əlahəzrət Sultan Nazrin Muizuddin Şah, Sir Peter Luff, Sir Martin Smith və Ledi Smith var. Qeyd edək ki, bu il yalnız üç adın təqdim olunan siyahıdan Klarendon Arkasında əbədi olaraq yazılması Oksford Universitetinin Ali Şurası tərəfindən təsdiq edilib, bunlardan biri də professor Nərgiz Paşayevanın Qəyyumlar Şurasına sədrlik etdiyi Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondudur.

Universitetin ali yığıncağının təntənəli proseduru zamanı mərasimin protokoluna uyğun olaraq ictimai oratoru yüksək tribunadan qeyd edib ki, Kanslerin Xeyriyyəçilər Komitəsində Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondu professor Nərgiz Paşayeva tərəfindən təmsil olunur. Xüsusi orator aşağıdakı sözləri ali yığıncağa bəyan edərək deyib: ***"Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun dəstəyi ilə Azərbaycanın, Qafqazın və Orta Asiyanın tarixi, dilləri və mədəniyyətlərinin öyrənilməsi üçün Oksfordda Mərkəz açıldı.***

***Fondun dəstəyi sayəsində üç fəlsəfə doktoru (DPhil) təqaüdünün ayrılması imkanı yaranacaq, eləcə də tədqiqatçı alimlərə, müxtəlif tədbirlərin proqramlarına, həmçinin idarəetmə məsələlərinə dəstək veriləcək. Fond, həmçinin Orta Şərq və İslam Kolleksiyaları üzrə kitabxanaçı vəzifəsi və Oksford Universitetinin Türk Dilləri Bölməsində Azərbaycanın rəsmi dili olan Azərbaycan dili ilə tanış olmaq və dili öyrənmək istəyən tələbələr üçün təlimatçı vəzifəsinin yaradılmasına dəstək verib.***

***Britaniya Fondunun dəstəyi Bodleyn kitabxanasına tələbə və tədqiqatçılar üçün oxu otağı açılması ilə yanaşı, bölgənin nadir və əhəmiyyətli materialları ilə öz kitab fondlarını artırmağa imkan verəcək. 12-ci əsrin şairi Nizaminin adını daşıyan Mərkəzin yaradılması 2013-cü ildə başlamış Nizami Gəncəvi Proqramının 5 illik uğurlu tədqiqat fəaliyyətinin nəticəsidir.***

***Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondu Azərbaycana və geniş Qafqaz regionuna aid təhsil və mədəni layihələri dəstəkləmək üçün yaradılıb. Fondu Kanslerin Xeyriyyəçilər Komitəsində Fondun Qəyyumlar Şurasının sədri professor Nərgiz Paşayeva təmsil edir. Nizami Gəncəvi Mərkəzinin yaradılmasının təşəbbüskarı olan professor Nərgiz Paşayeva MDU-nun Bakı filialının rektoru və MDU-nun fəxri professorudur".***

Bundan sonra Oksford Universitetinin Kansleri Lord Patten Barnes böyük toplantıya professor Nərgiz Paşayevanın universitetin yaxın dostu və mötəbər akademik tərəfdaşı kimi tanındığını bildirib və Kanslerin Xeyriyyəçilər Komitəsinə daimi üzv kimi qəbul edildiyini bəyan edib: ***"Siz indi mənə universitetin mötəbər dostu və tərəfdaşı kimi təqdim edildiniz. Sizi Fəxri üzv kimi Xeyriyyəçilər Komitəmə qəbul edirəm və Sizin bu alicənablığınızı sevinclə qəbul edərək Klarendon Arkasının altındakı tabloda adınızın yazılmasını bəyan edirik".*** Bu sözləri 2018-ci ilin oktyabrın 11-də dünyanın birinci universitetinin ən yüksək tribunasından Oksford Universitetinin Kansleri Lord Patten Barnes deyib. Bundan sonra Lord Patten Barnes professor Nərgiz Paşayevaya bu sözləri təsdiq edən özünün imzaladığı ənənəvi qədim dildə yazılmış rəsmi sənədləri xüsusi bağlamalarda təqdim etdi.

Daha sonra Komitəyə yeni üzv seçilən digər şəxslərin də təqdimatı keçirilib. Qeyd edək ki, Kanslerin Xeyriyyəçilər Komitəsinin yeni üzvləri arasında dünya miqyasında tanınmış ictimai xadimlər və ziyalılar var. Yeni üzvlərdən Sultan Nazrin Muizuddin Şah 2014-cü ildən Malayziya Sultanlığı Perak Sultanı və Malayziya Ali Qubernatorunun müavinidir. O, təhsilini Oksford Universitetində alıb, Harvard Universitetinin iqtisadiyyat fakültəsinin magistratura və doktoranturasını bitirib. Cənub-Şərqi və Şimal-Şərqi Asiyada iqtisadi və siyasi inkişafa dair bir çox elmi məqalələrin və kitabların müəllifidir. Malayziya Universitetinin Kansleri, Malayziya Universitetinin Elmi Şurasının sədri və Malayziyanın Müasir Dillər Assosiasiyasının rəhbəridir.

Bu il Kanslerin Xeyriyyəçilər Komitəsinin üzvlüyünə seçilən Sir Peter Luff isə 2015-ci ildən Böyük Britaniya Milli İrs Memorial Fondu və Miras Lotereya Fondunun sədridir. O, həmçinin Böyük Britaniyanın aviasiya sistemləri, milli təhlükəsizlik, rabitə və elektron sistemləri üzrə baş məsləhətçisidir. Sir Peter Luff 23 il müddətində Vorçesterdən seçilən parlament üzvü kimi fəaliyyət göstərib. O, həmçinin Britaniyanın avadanlıq və texnologiya üzrə müdafiə naziri olub. Britaniyanın İctimaiyyətlə Əlaqələr İnstitutunun fəxri üzvüdür. Kral İncəsənət Cəmiyyətinin üzvü olan Sir Peter Luff 2014-cü ildə ictimai siyasi xidmətinə görə cəngavər tituluna layiq görülüb. Bir daha qeyd edək ki, yalnız Əlahəzrət Sultan Nazrin Muizuddin Şah, Sir Peter Luff və professor Nərgiz Paşayevanın Qəyyumlar Şurasına sədrlik etdiyi Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun adları Klarendon Arkasında əbədi olaraq həkk edilib.

Komitənin yeni üzvləri sırasında Ser Martin və Lady Elise Smith ailəsi də var. Sir Martin Smith 1964-cü ildə Oksford Universitetində fizika sahəsində təhsil alıb, sonra sənaye ixtisası üzrə Kaliforniyada Stanford Universitetini bitirib. O, "Phoenix Securities" şirkətinin təsisçisi və baş tərəfdaşı, Avropa İnvestisiya Bankının sədri, həmçinin səhiyyə xidmətləri göstərən "Worldwide Healthcare Trust" şirkətinin sədri və "Oxford Capital Partners" təşkilatının direktoru olub. O, həyat yoldaşı ilə birgə Oksford Universitetində "Smith School Enterprise and Environment" məktəbini yaradıb. Sir Martin Smith 2013-cü ildə sənət, təhsil və elm sahələrində xidmətlərinə görə Şöhrət rütbəsi alıb.

Beləliklə, yeni təsdiq edilmiş üzvlərin ardınca digər qəbul edilmiş üzvlər də zala daxil oldular. Onların arasında Mr Mohamed Amersi, Mrs Emma Marcegaglia, Mr Duncan Greenland və Mrs Barbara Greenland, Lord Livingston of Parkhead, Mr Bruns Grayson, Mr David Norwood və digərləri var idi.

Təntənəli mərasim başa çatdıqdan sonra illik toplantının növbəti mərhələsi - Klarendon Arkasında Xatirə Lövhəsinin təqdimatı keçirildi. Bu mərasim Oksfordun məşhur tarixi əhəmiyyətli binalarından sayılan Klarendonda (*www.oxfordhistory.org.uk/broad/buildings/south/clarendon.html*) baş tutdu.

Mərasim təntənəli surətdə eyni sıralamada məşhur tarixi Konvocation zalına, Kansler Komitəsindən İlahiyyat fakültəsinin (Divinity School) (*www.theology.ox.ac.uk*) binası istiqamətində təntənəli yürüşlə başa çatıb.

Fasilədən sonra illik toplantı "Oksfordun Dəyişən Dünyaya Münasibəti" mövzusunda sessiya ilə davam edib. Sessiyada açılış nitqi ilə çıxış edən Oksford Universitetinin kansleri Lord Patten Barnes komitə üzvlərini universitetin gələcəyi ilə bağlı geniş müzakirələrdə iştirak etməyə, qlobal narahatlıq doğuran sahələrə dair fikirlərini bölüşməyə çağırıb. O, Oksfordun dünyanın ümumi rifahı naminə öyrətmə və maarifləndirmə kimi tarixi missiyasını davam etdirməyinə kömək edən hər bir kəsə minnətdarlığını ifadə edib. Kanslerin açılış nitqi və vitse-kanslerin müraciətindən sonra universitetin qarşısında duran ən vacib məsələlər haqqında müzakirələr aparılıb. Vitse-kansler professor Louise Richardson Oksforddakı yeniliklər haqqında məlumat verib. Yekunda Kansler və vitse-kansler iştirakçıların suallarını cavablandırıblar.

İllik toplantı çərçivəsində Blavatnik İdarəçilik fakültəsi və Beecroft binasında müxtəlif mövzularda təqdimatlar keçirilib. "İpək Yolları" bestsellerinin müəllifi, professor Peter Frankopan "Gələcəyin tarixi" mövzusunda təqdimatla çıxış edib. O, keçmişə baxışların dəyişdiyi və bunun XXI əsrdə vacibliyi haqda danışıb.

"Tuberkulyoz və yaxud qeyri-tuberkulyoz: cavab axtarışında" mövzusunda çıxış edən professor Helen McShane vərəmin hələ fironların vaxtında yaranması, ancaq indi daha çox yoxsulluq xəstəliyi kimi tanınması və yayılan bu patogeni aradan qaldırmağın yolları haqqında müzakirə açıb.

Toplantıda maraqla qarşılanan təqdimatlardan biri də "Young Lives" araşdırma proqramının direktoru, professor Jo Boydenin "Qlobal məqsədlər dünyanın ən kasıb uşaqlarına xidmət edirmi?" mövzusundakı araşdırması oldu. Bu proqram çərçivəsində 12 min uşaq arasında uzunmüddətli tədqiqat aparılıb. Nəticədə uşaqlar arasında yoxsulluq və gender bərabərsizliyini aradan qaldırmaq, bütün uşaqların keyfiyyətli təhsillə təmin edilməsi naminə beynəlxalq səylərin nailiyyətləri və uğursuzluqları təqdim olunub.

"Beecroft binasının pərdə arxası" adlı təqdimatda isə professor İan Shipsey və professor John Wheater Kanslerin Xeyriyyəçilər Komitəsinin üzvlərini Oksfordun innovativ Beecroft binasına özəl tura dəvət ediblər. Onlar Oksford Universitetinin fizika sahəsində qabaqcıl tədqiqatları ilə bağlı məlumat veriblər, kosmosdan başlayaraq, Yer kürəsinin iqlimi ilə əlaqədar vacib sualları cavablandırıblar. Qonaqlar, həmçinin Oksfordda dünyanın ən qiymətli əlyazmalarının necə qorunduğunu görmək üçün Veston Kitabxanasındakı Konservasiya Mərkəzinə baxış keçiriblər.

Kanslerin Xeyriyyəçilər Komitəsinin 28-ci illik mərasimi Oksford Universitetinin Rodes House binasının Milner Holl zalında (*http://conference-oxford.com/venues/conference/rhodes-house*) Kanslerin qəbulu və təntənəli Qala şam yeməyi ilə yekunlaşıb. Qala şam yeməyində universitetin Kansleri Lord Patten, vitse-kansleri professor Luiz Riçardson, Oksford Universitetinin məşhur nüfuzlu alimləri, ali qonaqlar, dünyanın tanınmış ictimai xadimləri və ziyalılar, eləcə də Oksford Universitetinin Nizami Gəncəvi Elmi Mərkəzinin Britaniya tərəfindən rəhbəri professor Edmund Herziq və həmin Mərkəzin Azərbaycan tərəfindən rəhbəri professor Nərgiz Paşayeva, Britaniya parlamentinin Lordlar Palatasının üzvü və Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun Qəyyumlar Şurasının üzvü Lord Malkolm Bryus, Kanslerin Xeyriyyəçilər Komitəsinin üzvləri iştirak ediblər.

Britaniya kimi qədim tarixi ənənəsi olan ölkədə və eləcə də qlobal elmi səviyyədə mühüm rol oynayan mötəbər elm ocağı kimi tanınan Oksford Universitetində 2013-cü ilədək, yəni Oksford Universitetinin Nizami Gəncəvi Elmi mərkəzi yaranana qədər Qafqazın qədim tarixi və mədəniyyəti çox hallarda birtərəfli, əsasən erməni tarixi və bir qədər də gürcü tarixi baxımından öyrənilib. Hələ 1965-ci ildə Oksford Universitetinin Şərqşünaslıq fakültəsində erməni elmi mərkəzi yaradılıb və bu günə kimi fəaliyyət göstərir. Təəssüflər olsun ki, bunun müqabilində, yəni 2013-cü ilədək bir dövr ərzində bununla bağlı heç bir iş görülməyib. Halbuki, tarixi həqiqətləri elmi əsaslar və sübutlar üzərində qurub təqdim edən Britaniya cəmiyyətində əvvəlcə məhz fundamental elmi ocaqlarla müştərək professional elmi əlaqələr birinci dərəcəli əhəmiyyətə malikdir. Bu gün Oksford Universitetinin Nizami Gəncəvi Elmi Mərkəzi Azərbaycan kontekstini İngiltərənin və onun cəmiyyətinin qaydalarına uyğun olaraq layiqli səviyyədə Britaniyada təqdim və təmsil edir. Şübhəsiz ki, bu, ölkəmizin tək beynəlxalq akademik aləmdə deyil, ümumiyyətlə sivil və qabaqcıl dünyada imicinə və adına şərəf, dəyər gətirən və intellektual nəsillərin dünya elm məbədi sayılan Oksford Universitetindən bəhrələnməsinə imkanlar yaradan böyük hadisədir.

Xatırladaq ki, professor Nərgiz Paşayevanın təşəbbüsü və şəxsi səyi ilə yaradılmış Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzi 2013-cü ildən Oksford Universitetində fəaliyyətə başlayıb. Bu il mayın 23-də Elmi Mərkəzin universitetin tərkibində daimi mövcudluğu haqqında müqavilə imzalanıb. İmzalanma mərasimi Oksford Universitetinin protokoluna əsasən bu ali təhsil ocağının XVII əsrdə yaradılmış Klarendon Kollecində keçirilmişdi.

Elm və təhsil sahəsində əsrin kontraktı adlandırılan bu müqaviləni Oksford Universiteti tərəfindən ali məktəbin vitse-kansleri, professor Luiz Riçardson və Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun Qəyyumlar Şurasının sədri, Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, professor Nərgiz Paşayeva imzalayıblar. Müqaviləyə əsasən, Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzi Oksford Universitetində yüksək statuslu elmi-akademik Mərkəz olaraq, universitetin ayrılmaz bir hissəsi kimi daimi fəaliyyət göstərir. İmzalanmış müqavilənin bəndlərindən birində Oksford Universitetinin Şərqşünaslıq İnstitutunun kitabxanasına dahi Azərbaycan şairi Nizami Gəncəvinin adının verilməsi də qeyd olunub. Klarendon binasının Arkasında Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun adının həkk edilməsi bu möhtəşəm başlanğıcın uğurlu davamı kimi qiymətləndirilib. Böyük Britaniyanın görkəmli elm, mədəniyyət və ictimaiyyət xadimlərinin iştirakı ilə Oksford tarixində ən tanınmış adlarla birlikdə Azərbaycanı və Qafqazı öyrənən Britaniya Fondunun adının Oksford Universitetinin Klarendon Arkasına yazılması və ilk dəfə azərbaycanlı alimin, professor Nərgiz Paşayevanın Oksford Universitetinin Kanslerinin Xeyriyyəçilər Komitəsinin üzvlüyünə qəbul edilməsi Azərbaycan üçün tarixi bir gün olaraq yaddaşlarda qalacaq. Bu böyük və şərəfli hadisə gələcəyə ümidli baxışları, yeni nəslin istedadlarını, yeni böyük imkanları, əlaqələri, ümumbəşəri dəyərlərin üstünlüyünü, təntənəsini daim təzahür edəcək. Belə ali lövhədə Azərbaycanın imzası oldu və gələcək nəsillərə qaldı. Eləcə də, qəlbində Azərbaycan sevgisi və milli ehtirası olan hər bir kəsin əsrlərlə qürur duyacağı bir tarixə çevrildi.

# Hədəf hamı üçün keyfiyyətli təhsilə əlçatanlıqdır

## Dövlət Strategiyası 5 il ərzində müəllimlərin peşəkar inkişafı üçün yeni imkanlar yaradıb



⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

Bunu Dövlət Strategiyasının hədəflərinə uyğun olaraq yaradılan TİPİİ-nin direktoru Vəfa Yaqublu deyib. O, qeyd edib ki, hesabat vermək, nə etdiyini, niyə etdiyini sübut edə bilmək üçün 5 il iqtisadiyyatın başqa sahələri üçün kifayət qədər uzun vaxtdır: “Ancaq təhsil elə spesifik sahədir ki, 5 il ərzində gördüyümüz işin real təsirini hiss etmək o qədər də asan olmayacaq. Müqayisə üçün deyim ki, “Toyota” kimi nəhəng şirkət bir maşını sıfırdan yığıb satışa hazır vəziyyətə gətirmək üçün 29 saat vaxt sərf edir. Ancaq bir uşağın icbari təhsilini sona çatdırması üçün 9 il lazımdır. Odur ki, bu gün təhsillə bağlı verdiyimiz hər hansı qərarın kimin həyatında hansı təsir buraxacağını yalnız 9 il sonra müəyyənləşdirmək mümkündür. Kimdən sitat gətiririk-gətirək, görəcəyik ki, təhsildə bu gün verilən qərar onilliklərə hesablanacaq”.

### Təhsil bu missiyanı yerinə yetirə bilirsə...

TİPİİ rəhbəri Dövlət Strategiyasından irəli gələn tədbirlərə, rəhbərlik etdiyi qurumun 3 illik hesabatına məhz bu nöqteyi-nəzərdən baxmağı təklif edib: “Bu gün ən böyük uğurumuz Azərbaycanda təhsilin hamı üçün de-fakto və de-yure əlçatan olmasıdır. İndi hədəfimiz hamı üçün keyfiyyətli təhsilə əlçatanlıqdır”.

V.Yaqublu keyfiyyətli təhsil haqqında danışanda Avropa Şurasının təhsil siyasəti üzrə məşhur nümayəndələrindən biri olan Jak Delorun bir fikrini xatırladıb: “Delor deyirdi ki, təhsilin 4 missiyası var: bilik vermək, bacarıq aşılamaq, yaşamağı öyrətmək, başqaları ilə birgə yaşamağı təlqin etmək. Təhsil bu missiyanı yerinə yetirə bilirsə, deməli, keyfiyyətli təhsildir”.

### Səbəb məktəblərdə biliklərin verilməməsi deyil...

TİPİİ-nin direktor müavini Nəzakət Mehdiyeva təmsil etdiyi qurumun 3 illik hesabatını kiçik dövrdə böyük işlərin ilk addımı kimi dəyərləndirib.

N.Mehdiyeva deyib ki, müəllimin peşəkar inkişaf imkanlarının düzgün müəyyənləşdirilməsi üçün əsas mənbə diaqnostik qiymətləndirmənin nəticələridir: “Diaqnostik qiymətləndirmə aşkar etdi ki, standartlara əsaslanan tədrisin təşkilində müəllimlərin böyük problemləri var. Uzun müddət ərzində fənnini yalnız ümumi orta təhsil səviyyəsində tədris edən müəllim artıq tam orta təhsil səviyyəsi üzrə məzmundan uzaq düşüb. Müəllimlər öz fənni ilə bağlı elmi, ya da ictimai olmasından asılı olmayaraq, yeniliklərlə tanış deyillər. Eyni zamanda, elmin sürətli inkişafı, informasiya bolluğu, dərsliklərin yenilənməsi və digər məsələlərin ortaya çıxardığı səbəblərlə əlaqədar olaraq peşəkar inkişafa ehtiyac duyurlar”.

**Səbəb məktəbdə biliklərin verilməməsi deyil. Beynəlxalq qiymətləndirmələrin nəticələri də göstərir ki, şagirdlərimiz əldə etdikləri biliklərlə bağlı sualları cavablandırırlar. Ancaq bacarıqların nümayişində əziyyət çəkirlər. Məsələn, son illərdə buraxılış imtahanları nəticələrinin davamlı təhlili göstərdi ki, ana dili və riyaziyyat fənlərindən şagirdlərin əsas çətinliyi məntiqi, tənqidi və yaradıcı təfəkkür bacarıqlarını tələb edən tapşırıqlarda olur.**

Diaqnostik qiymətləndirmənin nəticələri təhsilverənlər üçün 3 vacib tələbi üzə çıxarıb. Təhsilverən fənnin məzmunu ilə bağlı mövcud biliklərini yeniləməli, fənnin tədrisi metodikası üzrə səriştəliliyi artırmalı və müasir pedaqoji yanaşmaların tətbiqi yollarını öyrənməlidir.

N.Mehdiyeva buraxılış imtahanlarında şagirdlərin nümayiş etdirdiyi təlim nəticələrinə və burada müşahidə olunan problemlərə də diqqət çəkib. Onun sözlərinə görə, şagirdlər nəzəri biliyin yoxlanmasına yönələn sualların cavablandırılmasında çətinlik çəkmirlər. Amma oxuduğu mətni təhlil etmək, ümumiləşdirib əsaslandırmaqla fikir yürütmək, riyazi, ya da təbiət fənninin sualı əsasında müəyyən bacarıqları nümayiş etdirmək lazım gələndə problemləri ortaya çıxır: “Səbəb məktəbdə biliklərin verilməməsi deyil. Beynəlxalq qiymətləndirmələrin nəticələri də göstərir ki, şagirdlərimiz əldə etdikləri biliklərlə bağlı sualları cavablandırırlar. Ancaq bacarıqların nümayişində əziyyət çəkirlər. Məsələn, son illərdə buraxılış imtahanları nəticələrinin davamlı təhlili göstərdi ki, ana dili və riyaziyyat fənlərindən şagirdlərin əsas çətinliyi məntiqi, tənqidi və yaradıcı təfəkkür bacarıqlarını tələb edən tapşırıqlarda olur. Belə ki, riyazi situasiyaların həllini, fikrin əsaslandırılmasını tələb edən tapşırıqları yerinə yetirmək üçün şagird bu fəaliyyətləri illər ərzində dərs prosesində təkrar-təkrar etməlidir. Bu isə yalnız səriştəli müəllimin planlı fəaliyyətinin nəticəsi ola bilər. Buradan belə nəticə çıxır ki, məktəbdə müəllim bilik verdiyi üçün şagirdlər çətinlik hiss etmirlər. Bacarıqlar da aşılansaydı, onu da nümayiş etdirərdilər. Yəni, səbəb məktəblərdə biliklərin verilməməsi deyil, biliklərdən müvafiq şəkildə istifadə etmək bacarıqları üzrə aparılan işin səmərəliliyinin aşağı olmasındadır”.

Aparılan monitorinqlər davranışla bağlı məsələləri də ortaya çıxarıb. Məlum olub ki, müəllimlər heç də yeniliklərin əleyhinə deyillər. Onlar yenilikləri qəbul edir və dəstəkləyirlər. Ancaq həmin yeniliklərin tətbiqinin daha səmərəli yollarını bilmədiklərindən bəzi məsələlərin tədrisini tələb olunan səviyyədə təşkil edə bilmir və ya diqqətdən kənarda saxlayırlar.

### Ehtiyaca uyğun təlimlər

Beləliklə, araşdırma, təhlil və müşahidələr əsasında müəllimlərin ehtiyacı müəyyənləşdirilir və həmin istəyə uyğun olaraq ixtisasartırma proqramları təklif edilir. Proqramlarda standartlara əsaslanan məzmun öyrədilir. Müəllimlərlə düşünmə bacarıqları tələb edən tapşırıqlar həll olunur və hazırlanması təcrübəsi həyata keçirilir. Onlara məqsədəmüvafiq və etibarlı qiymətləndirmə öyrədilir.

Məlumata görə, 2018-ci ildə fənnin məzmunu üzrə aparılan ixtisasartırma təlimləri 2 şəhər, 31 rayon üzrə 12050 nəfəri əhatə edib. Onların qiymətləndirilməsi hələ keçirilməyib.

TİPİİ-də sadəcə fənnin məzmunu üzrə proqramlar deyil, müxtəlif adda proqramlar hazırlanıb. “Yazı işinin təşkili metodikası”, “Məktəbdaxili qiymətləndirmənin təşkili metodikası”, “Şagirdlərdə oxuyub-anlama bacarıqlarının inkişaf etdirilməsi metodikası”, “Sinfin idarə edilməsi”, “Nitq qüsurlarının korreksiyası”, “Qeyri-ənənəvi rəsmçəkmə texnikaları”, “İnklüziv siniflərdə təlimin təşkili”, “Həyat bilgisi fənninin tədrisi metodikası”, “Alqoritmika. Proqramlaşdırmanın tədrisi metodikası”, “Məktəbəhazırlıq qruplarında işin təşkili metodikası” adlanan həmin proqramlar müəllimlərin ehtiyacına uyğun hazırlanıb.

TİPİİ məktəb direktorları üçün də ixtisasartırma proqramları hazırlayıb sınaqdan keçirir. Direktorlar “Təhsildə idarəetmə və təşkilatçılıq”, “Sənədlərlə iş”, “Kurikulum. Məktəbdaxili qiymətləndirmə”, “Məktəb idarəçiliyində maliyyə”, “Məktəb idarəçiliyində İKT-dən istifadə”, “Statistika”, “Tənqidi və məntiqi təfəkkürün əsasları”, “Emosional intellektin inkişafı” proqramları üzrə təlimlərə cəlb ediliblər.

### Əlavə təhsilin keyfiyyətinə nəzarət

Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu müxtəlif ali və əlavə təhsil müəssisələri tərəfindən ölkədə aparılan təlimlərin ixtisasartırma təhsili kateqoriyasına daxil edilməsi üçün müəyyən qaydalara cavab verməsini tənzimləyir və buna görə məsuliyyət daşıyır. Bundan başqa, müəllimlərin işə qəbulu müsabiqəsini də məhz TİPİİ təşkil edir. Təhsil işçilərinin peşəkar ehtiyaclarının müəyyənləşdirilməsi, ixtisasartırma proqramlarının hazırlanması, rəy üçün təqdim edilmiş proqramların təsdiqi, təlimlərin monitorinqi, təlim iştirakçılarının yekun qiymətləndirilməsi və müvafiq sertifikatların verilməsi TİPİİ-nin vəzifəsidir.

Müəllimlər üçün öyrədici təlim resursları da TİPİİ-də hazırlanır. Tövsiyələr, videoçarxlar, elektron metodik vasitələr və s. hər zaman maraqla qarşılanır.

### Qiymətləndirmədə 2 məqsəd

Peşəkar İnkişaf proqramlarının yekununda müdavimlərin qiymətləndirilməsinin məqsədlərinə də toxunan Nəzakət Mehdiyeva deyib: “Burada 2 məqsədimiz var. Həm ixtisasartırma təlimində iştirak edən müdavimlərin nə dərəcədə müvəffəqiyyətlə həmin təlimlərin məzmununu mənimsədiyini, həm də təlim proqramının özünün nə qədər müvəffəqiyyətli olduğunu müəyyənləşdirmək üçün qiymətləndirmələr keçilir. Həmin qiymətləndirilmənin nəticəsi olaraq da proqramlar təkmilləşdirilir”.

TİPİİ direktorunun müavini Namiq Nağıyev qiymətləndirmənin əhatə dairəsi və qiymətləndirmə sistemindəki yeniliklərlə bağlı məlumat verib. Onun sözlərinə görə, 2015-2018-ci illər ərzində Bakı şəhərindən 10645, ölkənin digər bölgələrindən isə 19002 olmaqla, ümumilikdə 29647 müəllim qiymətləndirmələrə cəlb olunub. Qiymətləndirmənin məzmunu və təşkilindən danışan N.Nağıyevin sözlərinə görə, müdavimlər tədris olunan material əsasında hazırlanan qiymətləndirmədə iştirak edirlər: “Bu ilin 9 ayı ərzində qiymətləndirməyə cəlb olunan müəllimlərin sayı 6074 nəfərdir. Onlardan 1981 nəfəri Bakı, 4093 nəfər regionları təmsil edir. Hazırda təlimə cəlb olunmuş 25182 müəllimin qiymətləndirilməsinin həyata keçirilməsi və prosesin bu ilin sonunadək yekunlaşdırılması planlaşdırılır. Bununla da 2018-ci ildə qiymətləndirməyə cəlb olunan müəllimlərin sayı 31256 nəfərə yüksələcək”.

Qeyd edək ki, “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın 5 ili çərçivəsində media nümayəndələri üçün seminarlar davam edəcək. Növbəti seminar Mingəçevirdəki “ASAN Peşə” Təhsil Mərkəzində olacaq.

# Yenə də dərslik

## Və yaxud yalnız tənbəllərin danışmadığı mövzu

**Niyazi RƏHİMOV**

Milli Məclisin plenar iclasında millət vəkili Aqil Abbas dərsliklərlə bağlı tənqidi fikirlər söyləyib. Şagirdlərin təlim-tərbiyəsinə mənfi təsir edən amillərdən söhbət açan Aqil Abbasın təbirincə, bəzi dərsliklər televiziyadan da zərərli informasiya yayır.

Çox keçməmiş Təhsil Nazirliyinin Tədris resursları şöbəsinin müdiri Elvin Rüstəmov millət vəkilinin toxunduğu məsələyə münasibət bildirib. O, millət vəkilinin qeyd etdiyi fikirlərin heç bir məktəb dərsliyində yer almadığını deyib. Nazirlik rəsmisi onu da bildirib ki, dərslik tərtibatı çoxsaylı mərhələdən keçir və bu mərhələlərdən biri də dərsliyin çapdan öncə 6 ay müddətində ictimai müzakirəyə çıxarılmasıdır: “Bu müzakirələrin nəticəsi olaraq, irad və təkliflər diqqətlə araşdırılaraq yekun variantda əks olunur. Ancaq təəssüf ki, hörmətli yazıçımız Aqil Abbasın indiyədək ictimai müzakirəyə çıxarılan dərsliklərlə bağlı hər hansı təklifinə və iradına rast gəlməmişik”.

Elvin Rüstəmov həmçinin dərsliklərin keyfiyyətinin qüsursuz olmasında nazirliyin ən maraqlı tərəf olduğunu və bu istiqamətdə peşəkarcasına edilən tənqid və iradın nəzərə alınması üçün istər qurumlarla, istərsə də elm adamları ilə əməkdaşlığa hazır olduqlarını da vurğulayıb.

Millət vəkilinin fikirlərindən və nazirlik rəsmisinin məsələyə münasibətindən sonra ortaya belə bir sual çıxır. Görəsən, tez-tez əsaslı-əsassız tənqid olunan dərsliklərimizin çapdan öncəki ictimai müzakirəsinə kimlər qoşulur? Ziyalılarımız, müxtəlif dövlət qurumları müzakirələr zamanı öz irad və təkliflərini bildirirmi? Axı Təhsil Nazirliyi müzakirələrin keçirilməsi üçün mümkün şərait yaradıb. Əgər ziyalılarımız və yaxud bu işdə maraqlı olan qurumlar müzakirələrə qoşulurlarsa, bəs, niyə öz düşüncələrinə görə nöqsan dedikləri məsələləri əvvəlcədən görmürlər?

Təhsil Nazirliyindən aldığımız məlumata görə, 2018-ci ildə dərslik və müəllimlər üçün metodik vəsait layihələrinə dair ictimai rəyin öyrənilməsi prosesinə təxminən fevral ayının ortalarından başlanılıb və iyul ayının sonunda proses yekunlaşıb. Bu vaxt ərzində ictimai müzakirə üçün sayta yerləşdirilmiş 11-ci sinif dərslik layihələrinə ümumi baxış sayı 57014 olub və nazirliyə müzakirələrlə bağlı 1353 məktub daxil olub. Daxil olan məktublardakı irad və təkliflərin hər biri ciddi şəkildə araşdırılıb.

Xüsusilə qeyd edək ki, nazirlik ictimai rəyi öyrənmək məqsədilə bir çox qurumları bu işdə əməkdaşlığa çağırır. Elə bu məqsədlə də ümumilikdə 113 quruma rəsmi məktub göndərilib. Bu qurumlar içərisində AMEA-nın müvafiq institutları, Dövlət İmtahan Mərkəzi, Yazıçılar Birliyi, ali təhsil müəssisələri və digər əlaqədar təşkilatlar yer alıb. 2018-ci ildə AMEA-nın müraciət edilən bütün institutları (ümumilikdə 10 institut olmaqla) ictimai rəyin öyrənilməsi çağırışına cavab veriblər. Elmi-tədqiqat institutlarının rəy və təklifləri nəzərə alınıb. Onu da qeyd edək ki, 2016 və 2017-ci illərlə müqayisədə AMEA-nın institutları dərslik layihələrinə öz münasibətlərini bildirməklə ilk dəfə 100%-lik nəticə göstəriblər. İctimai müzakirələrə ən çox maraq göstərən müəssisələr içərisində ali məktəblərin, DİM-in adını da xüsusilə qeyd etmək yerinə düşərdi. Nəzərə çatdıraq ki, ictimai müzakirələrdə fərdi şəkildə aktivlik göstərənlər də var. Onların arasında müəllimlər və valideynlər çoxluq təşkil edir. Lakin ictimai müzakirələrdə aktivlik göstərənlər kimi, məsələyə laqeyd yanaşanlar da çoxdur. Məsələn, bəzi qurumlar var ki, nazirlik rəsmi şəkildə müraciət etsə də, onlar məsələyə heç bir reaksiya vermirlər.

Onu da qeyd edək ki, nazirlik təkcə qurumların deyil, fərdi şəkildə daxil olan müraciətləri də əsas götürür. Yuxarıda da qeyd etdiyimiz kimi, fərdi şəkildə müzakirələrdə iştirak edənlər də çoxdur. Ancaq çox təəssüf hissi ilə qeyd etmək istəyirik ki, ictimai müzakirələrdə tanınmış ziyalılarımızın, elm adamlarımızın bir dəfə də olsun adına rast gəlinmir. Həmin ziyalılar yalnız dərslik çapdan çıxandan sonra öz iradlarını bildirirlər. Görünür, bu da publikaya işləməyin daha bir və “uğurlu” variantıdır. Statusun millət vəkili olanda isə bu metod daha çox işə yarayır.

**P.S.** *Aqil Abbas valideynlərin uşaqlarını rus sektoruna yönəltməsini də dərsliklərlə bağlayıb. Sən demə, rus sektorunda dərsliklərdə belə hallar yoxdur. Bizə yalnız onu xatırlatmaq qalır ki, həmin dərsliklər də Azərbaycan bölməsində istifadə olunan resursların tərcümə olunmuş variantıdır.*

# Buraxılış imtahanlarına dair görüşlər keçirilir

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki təhsil müəssisələrində IX və XI sinif şagirdlərinin buraxılış imtahanları ilə bağlı valideynlərlə görüşlər keçirilir.

Təhsil müəssisələrinin direktorları, müəllimlər və valideynlərin iştirakı ilə keçirilən görüşlərin əsas məqsədi buraxılış imtahanlarına dair edilən dəyişikliklər barədə valideynlərə ətraflı məlumat vermək və məktəb-valideyn əlaqələrini daha da möhkəmləndirməkdən ibarətdir.

Görüşlərdə 2018-2019-cu tədris ilində məktəbin perspektiv fəaliyyət istiqamətləri, ümumi orta təhsil səviyyəsi üzrə yeni təhsil proqramlarına dair təhsilalanların biliyinin yekun qiymətləndirilməsi qaydaları, buraxılış imtahanının I və II mərhələsində şagirdlərə təqdim olunan sualların həcmi və məzmunu barədə ətraflı məlumat verilir. Qeyd olunur ki, IX siniflər üzrə buraxılış imtahanları DİM tərəfindən mərkəzləşdirilmiş qaydada ana dili, riyaziyyat və ingilis dili olmaqla iki, XI siniflər üzrə buraxılış imtahanı isə eyni fənlər üzrə bir mərhələdə aparılacaq.

I-IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul olmaq üçün müsabiqə zamanı abituriyentlərin buraxılış imtahanında əldə etdikləri nəticələrin də nəzərə alınacağı və qəbul imtahanlarından toplanılan balın üzərinə əlavə olunacağı nəzərə çatdırılıb. Qeyd olunub ki, abituriyentlər buraxılış və qəbul imtahanlarında topladıqları balların cəminə (maksimal bal- 300+400=700 bal) əsasən, ali təhsil müəssisələrinə qəbul müsabiqəsində iştirak edəcəklər.

Görüşlərdə həmçinin, valideynləri maraqlandıran suallar cavablandırılıb.

# Vəzifələri ilə reallıq arasında qalan məktəb

## Və yaxud bina tikəni sosial infrastruktur düşündürməyəndə



⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

“Kristal Abşeron”un Marketinq şöbəsinin əməkdaşı Rəşad Qurbanov deyir: “Özəl mülkdə, şəxsi torpaq sahəsində tikinti aparırıqsa, qarşımıza hər hansı tələb qoyulmur. Qobuda qaçqınlar üçün yaşayış kompleksi tikdik. Həmin layihədə sosial infrastruktur, o cümlədən məktəb nəzərdə tutulduğundan orada tikdik”.

Bəs, şirkət özü maraqlı deyilmi ki, tikdiyi binalarda müştərilərinin rahatlığını təmin etsin. Ən azı, bunu satışa təsir göstərəcək amil kimi nəzərə almırlarmı? R.Qurbanovun sözlərinə görə, özəl mülkdə yaşayış kompleksi olaraq yalnız Xırdalan şəhərində böyük layihə həyata keçiriblər: “Xırdalanda tikdiyimiz yaşayış kompleksinin yaxınlığında məktəblər var. Qalan yerlərdə sadəcə binalar tikmişik. Bir binaya görə isə məktəb tikməyə dəyərmi? Təbii ki, maraqlıyıq ki, tikdiyimiz binaların yaxınlığında məktəb, bağça və s. olsun”.

Bəli, nəinki bir binaya, hətta Xırdalanda saldığı, hərəsi bir mikrorayona bərabər olan şəhərciklərə belə məktəb binası tikməyən şirkət Xırdalan məktəblərindəki sıxlığın səbəbkarlarındandır. Şirkətlər tikdiyi binanın yanında, şəhərciyin daxilində məktəb tikməyə həvəs göstərmirlər. Məktəb yanında çoxmərtəbəli bina ucaldır, satışını sürətləndirmək üçün isə “yaxınlıqda məktəb var”, - deyə müştəri cəlb edirlər.

Nəticədə “Kristal Abşeron”un yaxınlığında, eyni həyətdə yerləşən iki - 2 və 9 nömrəli tam orta məktəblərdə ciddi şagird sıxlığı müşahidə olunur. 9 nömrəli məktəbdə üçnövbəli sistem tətbiq edilib, ancaq problem bununla da həll edilməyib. Məktəblərin hər ikisində “Müəllimlər otağı” ləğv olunub. 2 nömrəli məktəbin “Müəllimlər otağı”nda hazırda 5-ci siniflər, 9 nömrəli məktəbin “Müəllimlər otağı”na isə 8-ci siniflər yerləşdirilib. Nəticədə dərs cədvəlinə görə pəncərə saatı olan müəllimlər dəhlizlərdə qalır, direktor müavinlərinin otaqlarında “sığınacaq” axtarırlar.

Xırdalandakı məktəblərdə kompüter otaqları da çoxdan ləğv edilib. Məktəblər arasındakı fərqə baxın: Bakı və Gəncə məktəblərində şagirdlərə informatika yeni formatda tədris olunur, sinif otaqları müasir kompüterlərlə təchiz, sürətli internet çıxışı təmin edilir. Xırdalan şəhərində isə mövcud kompüter otaqlarını ləğv edib, bütün şagirdlərin təhsil almaq hüququnu təmin etməyə çalışırlar.

### Torpaq sahələri infrastrukturu güclü olan layihələrə verilməlidir

Bəs, vəziyyətdən çıxış yolu nədir? Belə çıxır ki, şirkətləri tikdikləri binaların yanında məktəb barədə də düşünməyə məcbur etmək lazımdır? Onları buna kim məcbur edə bilər ki? Millət vəkili Bəxtiyar Əliyev hesab edir ki, dövlət onları buna məcbur edə bilməz: “Ancaq müvafiq qurumlar layihələri dəyərləndirərkən təşviq etməsi mümkündür. Qəbul etdiyimiz qanunlarla təşviq etməyə çalışırıq ki, məktəbləri, sosial infrastrukturu özəl şirkətlər yaratsın, dövlət yox. Maliyyə yükünü hər hansı fiziki və ya hüquqi şəxs daşısın. Dövlət də məktəb tikintisinə ayırdığı vəsaiti təhsilin inkişafına, xəstəxanalara, pensiyaların verilməsinə, ordunun saxlanmasına və başqa zəruri xərclərə yönəltsin. Dünyanın heç bir dövlətinin büdcəsi bu yükü çəkə bilməz. Tutaq ki, böyük bir sahə ayrılıb və şirkət orada mənzillər tikir. Dövlət şirkətləri təşviq edir ki, həmin binaların altında mağazalar, uşaq bağçası, poliklinika, aptek, məktəb üçün yer ayırsın. 8-10 bina tikdinsə, bu, bir mikrorayon deməkdir. Neçə min insanın yaşadığı bu ərazidə sakinlər hardan alış-veriş edəcək, uşağını məktəbə hara aparacaq? Dövlət iş adamlarını məcbur edə bilməsə də, sadalanan infrastrukturla layihə təqdim edən şirkətə üstünlük verə bilər. Torpaq sahələrinin, boş ərazilərin infrastrukturu güclü olan layihələrə verilməsi rəqabəti gücləndirər”.

B.Əliyevin fikrincə, tikdiyi binaların yanında məktəbin olması sahibkara əlavə qazanc gətirdiyi kimi, məktəb üçün də əhəmiyyətli olacaq: “Çünki sahibkar məktəbə pul qoyduğu üçün onu qoruyacaq. Axı, onun mülkiyyətidir. Ancaq dövlət vəsaiti hesabına qurulanları dağıdırlar, buna görə cərimələnəndə isə narazılıq yaranır”.

### Tikinti başa çatdıqdan sonra şirkəti tapmaq mümkün deyil

Dövlət məcbur edə bilməz, verdiyi qərarlarla, qəbul etdiyi qanunlarla, həyata keçirdiyi vergi güzəştləri ilə şirkətlərə təşviq edə bilər. Bəs, təşviq edirlərmi?

Təşviq edə biləcək qurumlardan biri icra hakimiyyətləridir. Şirkətlərin göydələn ucaltmaq üçün aldığı yerin “xeyir-duası”nı yerli icra strukturları verir. Ancaq onlar da məsuliyyəti başqalarının üzərinə qoyurlar. Məsələn, məktəblərində ən çox sıxlıq müşahidə edilən Xəzər Rayon İcra Hakimiyyətində problemdən xəbərdardırlar. İcra hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Gülbala Qurbanov “Azərbaycan müəllimi” qəzetinə açıqlamasında sıxlığın səbəbini müxtəlif amillərlə izah edib: “Direktorlar yeni ştatlar almaq üçün məktəbdə şagird sayının çox olmasında maraqlıdırlar. Həm direktorlar, həm də sinif müəllimlərinin apardığı reklamın nəticəsidir ki, bəzi məktəblərə axın çoxalır. Bir-birinə yaxın iki məktəbdən birində sıxlıqdır, digərində isə əksinə”.

Əhalinin çox olduğu yerlərdə, böyük yaşayış massivlərində, yeni şəhərciklərdə məktəblərin olmamasına gəlincə, şöbə müdirinin sözlərinə görə, RİH bu prosesdən indiyədək kənarda qalıb: “Məktəb tikintisini onların boynuna qoymuruq. Məktəb tikintisi spesifik sahədir və müəyyən olunmuş standartlar var. Təcrübə göstərir ki, məktəb tikintisində sonradan problemlər ortaya çıxır. Ancaq Təhsil Nazirliyinin verdiyi layihə əsasında tikilsə, daha doğru olar. Ona da tikinti şirkətləri maraqlı deyillər. İndiyədək bina tikmək üçün yeri Bakı Şəhər İcra Hakimiyyətindən alıblar. Bir qurumla razılaşdırıb tikiblər. Tikinti başa çatdıqdan sonra isə orada həmin şirkəti tapmaq mümkün deyil”.

### Onlar binaların layihəsinə baxır

Xəzər Rayon İcra Hakimiyyəti məsuliyyəti məktəblər, müəllimlər və BŞİH arasında bölüb “sudan quru çıxdı”. Bəs, Dövlət Şəhərsalma və Arxitektura Komitəsində nə deyirlər? Onların ki, layihələri dəyərləndirərkən ən layiqlisini seçmək şansı var.

Qurumun mətbuat xidmətinin əməkdaşı Tərlan Yəhyayev bildirib ki, Şəhərsalma və Arxitektura Komitəsinə binaların layihəsi təqdim edilir. Odur ki, bina qiymətləndirilərkən onun yanında və ya yaxınlığında məktəbin olub-olmaması müzakirə olunmur. Maraqlıdır, bəs görəsən, hazırda şəhərsalma hansı plan əsasında həyata keçirilir? Quruma təqdim edilən layihələr hansı parametrlərlə qiymətləndirilir? Təklif edilən yaşayış binalarının layihələrində sosial infrastrukturun (məktəb və bağça) nəzərə alınmaması onun qiymətləndirilməsində rol oynamırmı? “Azərbaycan müəllimi”nin sorğusuna Şəhərsalma və Arxitektura Komitəsindən verilən cavabda belə deyilir: “Azərbaycan Respublikasında şəhərsalma fəaliyyəti Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq ərazi planlaşdırma sənədləri (ümumi plan, baş plan, müfəssəl plan) əsasında həyata keçirilir. Məktəbəqədər uşaq müəssisələri və ümumtəhsil məktəblərinin ərazidə yerləşdirilməsilə bağlı tələblər isə Nazirlər Kabinetinin 12 yanvar 2015-ci il 5 nömrəli qərarı ilə təsdiq edilən “Müfəssəl planların hazırlanması, razılaşdırılması və təsdiq olunması qaydaları, habelə həmin planların razılaşdırıldığı orqanların siyahısı”na və “AzDTN 2.6-1 Dövlət Şəhərsalma Norma və Qaydaları. Şəhər, qəsəbə və kənd yaşayış məskənlərinin planlaşdırılması və tikilib abadlaşdırılması” normativ sənədinə əsasən müəyyən edilib”.

### Təhsil Nazirliyi vəziyyətdən çıxmağa çalışır

Beləcə, problemin ağırlığı və onu aradan qaldırmaq təhsil qurumlarının boynunda qalır. Bakı Şəhəri üzrə Təhsil İdarəsində də, Təhsil Nazirliyində də problemin həllinə yönələn tədbirlər görülür. Bakı Şəhəri üzrə Təhsil İdarəsi yaranan problemi həll etmək üçün nəzərdə tutulmuş əlavə tədris korpusu və yeni məktəb binalarının tikintisinin həyata keçirilməsi zəruri olan ərazilər barədə mütəmadi olaraq məsələ qaldırır. Məsələn, müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti orqanlar qarşısında vəsatət qaldırılması və şəhərin bir sıra ümumi təhsil müəssisələrində yerləşdirilmiş məcburi köçkün məktəblərinin həmin binalardan köçürülməsi istiqamətində təkliflər irəli sürülüb.

Ancaq təhsil qurumları bununla işini bitmiş hesab etmirlər. Təhsil naziri Ceyhun Bayramov yarana biləcək problemin elektron qeydiyyat sistemi vasitəsi ilə tənzimləndiyini vurğulayıb: “Bakı məktəblərinin hamısında sıxlıq mövcud deyil. Bir çox məktəblərdə birinci sinfə qəbulu elektron qeydiyyat sistemi vasitəsi ilə tənzimləyə bilirik. Buna baxmayaraq, Bakı məktəblərinin 15 faizində yenə də sıxlıq müşahidə edilir. Qeydiyyat sisteminin ərazi prinsipi üzrə aparılması süni sıxlığın qarşısını almağa yönəlib. Bundan başqa, hər il müxtəlif proqramlar çərçivəsində digər dövlət qurumlarının xətti, Heydər Əliyev Fondunun dəstəyi ilə çoxlu sayda məktəbdə əsaslı təmir işləri aparılır. Yeni məktəb binaları tikilir”.

### Məktəb binaları tikilir

Doğrudur, təhsil nazirinin dediyi kimi, son illərdə paytaxtda yeni məktəblər və əlavə tədris korpusları inşa olunub. 2018-2019-cu dərs ilinə hazırlıq çərçivəsində Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən 13 məktəbdə əsaslı təmir işləri aparılıb. Bundan əlavə, mövcud olan 2 məktəb binasının və ehtiyac olan ərazilərdə 2 yeni məktəbin inşası (ümumilikdə 4 məktəb) başa çatıb. Eləcə də, 1 məktəbin qəzalı vəziyyətdə olan korpusunun sökülərək yenidən tikintisi həyata keçirilib. Həmçinin, 1 məktəb üçün 1416 şagird yerlik yeni binanın tikintisi, 25 məktəbdə cari təmir və mühəndis-kommunikasiya işləri aparılıb.

Ümumi təhsil məktəblərinin təmir-tikinti işləri son illərdə davamlı xarakter daşıyır və bu işlər ümumilikdə, təhsil şəraitinin yaxşılaşdırılmasına, tədrisin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Nəticə etibarilə əhali artımı səbəbindən yaranan şagird sıxlığının azaldılmasına zəmin yaradır.

### Məktəblərə şagird qəbulunda elektron qayda tətbiq edilir

Birinci sinfə şagird qəbulunun elektron qaydada aparılması da süni şagird sıxlığının tənzimlənməsinə imkan verir. Ümumilikdə, Bakı şəhərində süni şagird sıxlığının qarşısının alınması məqsədilə təxminən 10-15 faiz məktəblərdə mikroərazi prinsipi tətbiq edilir. Belə ki, ilk növbədə, həmin təhsil müəssisələrinin mikroərazisində daimi qeydiyyatda olanlar övladlarını elektron sistem vasitəsilə qeydiyyatdan keçirirlər. Daimi qeydiyyatı olmayan valideynlərə müvəqqəti və ya qeydiyyatsız yaşadıqları ərazidə yerləşən məktəbdə sıxlıq olduğu halda, digər məktəbləri seçmələri tövsiyə olunur. Müvəqqəti və ya qeydiyyatsız yaşayan valideynlər ərazi prinsipi tətbiq olunmayan bütün məktəblərdə övladlarını elektron sistem vasitəsilə qeydiyyatdan keçirə bilərlər.

Bəzi məktəblərdə süni şagird sıxlığının qarşısını almaq məqsədilə qəbul ilk növbədə, prioritetlər əsasında aparılır və bu proses sistem tərəfindən tənzimlənir. Tutaq ki, valideynin mikroərazidə yaşaması, bacı və ya qardaşın həmin məktəbdə oxuması, valideynlərdən birinin həmin məktəbdə işləməsi prioritetlərdir. Ümumilikdə, paytaxtda orta məktəblərin böyük əksəriyyətinə, yəni 85 faizindən çoxuna şagird qəbulunda ərazi prinsipi tətbiq olunmur.

### Böyüyən şəhərin çarəsiz məktəbi

Beləliklə, mövcud vəziyyətdən çıxış yolu tapmağa çalışılsa da, günü-gündən böyüyən şəhərin hər gün çoxalan sakinləri məktəbləri çarəsiz qoyur. Axı, məktəblər icbari təhsil hüququnu təmin etməlidirlər. Vəzifələri ilə reallıq arasında qalan məktəb hələlik bu çətinliyin öhdəsindən gəlir. Ancaq gəlin biz də unutmayaq ki, dəhlizlərində hərəkət edən uşaqların, sinif otaqlarına qoyulan partaların sayında görünən artım məktəbdən çox cəmiyyətin problemidir.

# Avropa təhsil məkanına inteqrasiyanı təmin edən əsas sənəd

## “Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin İcrasına Dəstək” layihəsinin açılış konfransı keçirilib

⇦ Əvvəli səh.1

Təhsilin bütün səviyyələrini əhatə edən islahatların kökündə Azərbaycanın beynəlxalq rəqabət qabiliyyətini yüksəltmək məqsədi dayanır.

Nazir müavini bildirib ki, 2018-ci ilin iyul ayında Nazirlər Kabinetinin qərarı ilə Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi müəyyən edilib. Bu istiqamətdə müəyyənləşdirilmiş hədəflərə nail olunması üçün təhsil, nümunəvi kurikulumların, qiymətləndirmə və akkreditasiya standartlarının, milli kvalifikasiyalar reyestrinin hazırlanması, kvalifikasiyaların keyfiyyətinin təmin olunması Təhsil Nazirliyinin qarşısında dayanan mühüm vəzifələrdəndir.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Mətin Kərimli isə qeyd edib ki, son 15 ildə Azərbaycanda dayanıqlı və sabit əmək bazarı yaranıb. Yaxın



aylarda ölkə əhalisinin sayının 10 milyon nəfəri keçəcəyini deyən nazir müavini vurğulayıb ki, hazırda əsas məqsəd işçi qüvvəsinin keyfiyyətinin artırılmasıdır. Bunun üçün isə kadr hazırlığının və peşə təhsilinin inkişafı diqqət mərkəzində olmalıdır.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas isə layihə çərçivəsində görülən işlərdən, gələcəkdə qarşıya qoyulan məqsədlərdən danışıb.

Sonra layihənin Azərbaycan üzrə koordinatoru, Təhsil Nazirliyinin şöbə müdiri Emin Əmrullayev layihənin icrasına cari ilin fevral ayından başlanıldığı və bu müddət ərzində bir sıra görüşlərin təşkili, eləcə də kvalifikasiyalar və dövlət təhsil standartlarının işçi qruplarının keçirdiyi müzakirələr barədə məlumat verib. Şöbə müdiri Milli Kvalifikasiya Çərçivəsinin Avropa təhsil məkanına inteqrasiyanı təmin edən əsas sənədlərdən biri olduğunu deyib.

Konfransda layihənin ekspertləri standartların, kurikulum və tədris materiallarının hazırlanması üzrə Milli Kvalifikasiya Çərçivəsinin tələbləri, onun faydaları haqqında maraqlı tərəflərin məlumatlandırılması və keyfiyyət təminatına dair təqdimatlar edib, həyata keçiriləcək növbəti tədbirlərdən danışıblar.

Qeyd edək ki, Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinə dair sənəd Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli 311 nömrəli qərarı ilə təsdiq edilib. Avropa İttifaqı tərəfindən maliyyələşdirilən “Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin İcrasına Dəstək” layihəsi bu ilin fevral ayından etibarən həyata keçirilməyə başlayıb.

# Tədrisdə universal dizayn



**Sevinc MƏHSİMOVA,**
*Azərbaycan Dövlət İqtisad Universitetinin İnklüziv təhsil mərkəzinin koordinatoru*

⇦ Əvvəli səh.1

Avropa inklüziv pedaqogikası XIX əsrdə bütün uşaqların təlimi və onların gələcək əmək fəaliyyətinə hazırlığı zərurəti, imkanları, təbiətə və tələbatlara müvafiq olaraq hərtərəfli inkişaf, əqli inkişafdan qalmış, fiziki və sosial baxımdan zəif olan uşaqlar üçün vacibliyi haqqında J.Pestalotsinin pedaqoji ideyalarından başlayıb.

Son illər ərzində Azərbaycan Respublikasında aparılan təhsil islahatları inklüziv təhsil sahəsində ən əhəmiyyətli uğurlara nail olmağa imkan vermişdir.

Ölkəmizin təhsil müəssisələrində inklüziv təhsilin uğurlu tətbiqinə bir sıra vacib amillər yardım edir. İlk növbədə, bu, tam inklüziya prosesinin həyata keçirilməsində təxirəsalınmaz təkmilləşməsini tələb edən müəllimlərin peşəkarlığı və şəxsi hazırlığıdır.

İndiki dövrdə dövlət layihələrinin və proqramlarının çərçivələri daxilində Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən müxtəlif tematik treninqlər, müəllimlərin ixtisasartırma kursları, inklüziv təhsil müəssisələrinin rəhbərləri üçün məcburi kursların təşkili ilə bağlı bir sıra qərarlar qəbul olunub.

Şübhəsiz, bütün bu tədbirlərin həyata keçirilməsi inklüziya çərçivəsində məktəblərin və universitetlərin müəllimlərinin peşəkarlıq səviyyəsini qaldırmışdır. *Lakin hələ də, inklüziv qruplarda müəllimlər xüsusi müəllimlər hesab olunur.* Yəni, ümumi qrupların müəllimi ilə inklüziv qrupların müəllimi arasında hələ də fərq mövcuddur. Qeyd etmək lazımdır ki, tam inklüziv ali təhsil üçün tədris sistemlərində heç bir fərq olmamalı və bütün müəllimlər eyni dərəcədə universal dərslərə hazır, tədris sistemi də universal olmalıdır.

Xarici alimlərin tədqiqatlarında (A.Meyer, D.Rose və D.Gordon; H.Macdonald və R.Teed və başqaları) təhsil müəssisəsində inklüziyanın təmin olunmasının universal nəzəri modelinin yaradılmasından bəhs olunur. Onların müşahidələrinə görə, inklüziv təhsilin tətbiqi prosesi bütün şagirdlərə qarşı münasibətdə pedaqogikanın çevikliyinə əsaslanmalıdır. Eyni zamanda, çoxillik tədqiqatların nəticələri sübut edir ki, inklüziv təhsilin vahid modelini yaratmaq qeyri-mümkündür. Lakin təhsil metodologiyalarının dəyişdirilməsi zərurətinin anlaşılması daha vacibdir. Pedaqogikanın tədqiqatları şagirdlərin tələbatlarının müxtəlifliyi nəticəsində tədris metodlarının və kurikulumların çevikliyi zərurətini təsdiq edir.

### Təhsildə yeni anlayış

Qeyd etmək lazımdır ki, təhsil sisteminin təkmilləşdirilməsi, pedaqogika elminin inkişafı, ümumilikdə, təhsil sisteminin universallığına gətirib çıxarır. Hələ 1990-cı illərin əvvəllərində Tətbiqi Texnologiyalar Mərkəzinin (CAST) amerikalı mütəxəssisi R.Meysin universal dizayn konsepsiyasının təhsil sisteminə tətbiqinə diqqət yetirir. "Universal dizayn" termini memar Ronald Meys tərəfindən təklif olunub və yaş həddindən, qabiliyyətdən və ya statusdan asılı olmayaraq hamı tərəfindən münasib istifadə və estetika mövqeyindən istənilən məhsulun və mühitin layihələndirilməsinə yanaşma üsullarının tərifi kimi qəbul edilir.

CAST mütəxəssisləri insanların tələbatlarının qabaqcadan görülməsi və əhatəliliyi, çevikliyi elementlərini, eləcə də, qabaqcıl elmi nailiyyətlərdən istifadə edərək, müxtəlif bacarıqlara malik şagirdlər üçün universal vasitələri axtarmağa müəllimləri təşviq edən Universal Design for Learning tədrisi üçün konsepsiyanı və texnologiyasını yaradıblar.

"Universal tədris dizaynı" anlayışı bizim ölkənin təhsil mühitinə yeni daxil olur. İndiyədək onu memarlıq termini kimi qəbul ediblər, yəni, həm "müyəssər mühit", həm də "müyəssər infrastruktur" kimi.

2006-cı ildə əlillərin hüquqları haqqında BMT Konvensiyasının ratifikasiyasından sonra Azərbaycan Respublikası ətraf məkanda, xidmətlər sahəsində, o cümlədən də təhsil sahəsində universal dizayn prinsiplərinə riayət edilməsinin təmin olunması ilə bağlı beynəlxalq öhdəlik qəbul edib. "Universal dizayn" termini adaptasiya və ya xüsusi dizayn zərurəti olmadan bütün insanlar üçün maksimal dərəcədə istifadəyə yararlı olan predmetlərin, vəziyyətlərin, proqramların və xidmətlərin dizaynı deməkdir (Əlillərin Hüquqları Haqqında Konvensiya).

Tədrisin universal dizayn prinsipləri ən müxtəlif təhsil tələbatları olan şagirdlərin tədris prosesinə tam daxil edilməsi üçün şərait yaratmağa imkan verir. O, xüsusi tələbatlara malik olan şagirdlərlə ümumi təhsil proqramının mənimsənilməsi prosesində daimi dəstəyi təmin edir. Bu, nəinki xüsusi mütəxəssislər tərəfindən ayrı-ayrı məşğələlərdə, eləcə də hər gün, hər bir dərsdə, hər bir müəllim tərəfindən tədris proqramlarının çevikliyi və universallığı hesabına təmin olunur.

## İnklüziv təhsilin təkmilləşdirilməsinin yeni yolları

### Pedaqoji dizayn

Bir çox alimlərin tədqiqatlarını təhlil edərək universal tədris dizaynını "pedaqoji dizayn" kimi formalaşdırmaq mümkündür. Universal "Pedaqoji dizayn" elmi fənn kimi (Instructional Design), daha effektiv, rasional və rahat tədris üsullarının, metodlarının və sistemlərinin işlənib hazırlanması ilə məşğuldur. Geniş miqyas almış bu fənn aşağıdakı prinsiplərə əsaslanır:

1) "Təsəvvür" - dərs materiallarının işlənib hazırlanması (instructional design), informasiya və biliklərin təqdim üsulları, şagirdlərin onları almasının müxtəlif yolları, müxtəlif seçim imkanı ilə təmin edir;

2) "Nümayiş" - tədris prosesinin işlənib hazırlanması, şagirdlərə bildiklərini ifadə etmək və nümayiş etdirməklə bağlı müxtəlif variantların seçimi imkanlarının təqdim olunması (learning design);

3) "İştirak" - təhsil (tədris) mühitinin işlənib hazırlanması, diqqətin cəlb olunmasının müxtəlif üsulları, şagirdlərin marağının stimullaşdırılması, motivasiyanın artırılması (environment design).

Bütün şagirdlərin tələbatlarına cavab verən çevik dərs proqramlarının hazırlanmasında müəllimlərə kömək etmək üçün CAST universal tədris dizaynı texnologiyasını və prinsiplərini işləyib hazırlayıb (Universal Design of Learning). "Tədris prosesində universal dizayn üzrə Təlimat"da deyilir ki, təhsilin universal dizaynı koqnitiv elmin nailiyyətlərinə, beynin fəaliyyətinin qanunauyğunluqlarına əsaslanmışdır. Məlum olduğu kimi, beynin müxtəlif hissələri infomasiyanın işlənməsi, yadda saxlanması, müxtəlif fəaliyyət növlərində istifadə olunması zamanı spesifik rol oynayır.

Məhz universallıq təhsil dizaynının prinsipi kimi tədris prosesinə nəinki sağlamlıq imkanları məhdud şagirdləri, eləcə də hamını, o cümlədən, müəllimləri də cəlb etməyə imkan verir. Müəllim universal dizayn əsasında dərs proqramını və dərs materiallarını işləyib hazırlayaraq biliklərin mənimsənilməsi zamanı şagirdlərdə hansı məqamların meydana çıxacağını təhlil edir. Müəllim eyni zamanda bir neçə aspektə diqqət yetirməlidir: şagirdin fiziki tələbatları - köməkçi texnologiyalar vasitəsilə; koqnitiv, təşkilati, motivasiyası - effektiv tədris vasitəsilə. Universallıq müxtəlif təhsil tələbatlarına malik olan bütün şagirdlərə müvafiq alternativlərin, çevik tədris modulları daxilində variantların təqdim olunması ilə əldə olunur. Burada şagirdlərin fərdi tələbatlarının qiymətləndirilməsi əsasında hazır "vahid" proqramların modifikasiyası əsasında qurulan diferensial tədrislə universal təhsil dizaynın fərqini qeyd etmək lazımdır.

Bəzi alimlərin təsdiq etdikləri kimi (S.Viqotski, S.Gilbert, R.Felder və R.Brent, J.Milem, J.Mitchell və A.Antonio), tədris prosesində bir sıra amillər vacib rol oynayır: sosial siniflərin fərqi, dərketmə və qavramanın müxtəlif səviyyəsi, gender məsələsi, azadlıq, seksuallıq, dindarlıq, etnik mənşə və irqi göstəricilər, eləcə də şəxsi xarakteristikalar. Bütün bunlar xüsusilə də inklüziv qruplarda tədris prosesində diqqət tələb edir. Tədris prosesinin təkmilləşdirilməsində ən əsas məqam müəllimlərin peşəkarlığıdır. Məsələn, David Rose qeyd edir ki, peşəkar müəllim öz işində nəinki informasiya materiallarından, eləcə də üzün, səsin, bədən hərəkətlərinin ifadə formasından istifadə edir.

Universal tədris dizaynı klassik pedaqoji elmin bütün metodologiyalarının, eləcə də bütün müasir metodların istifadə olunmasını nəzərdə tutur. Xarici alimlər öz işlərində S.Gilbert ("Pedaqogikanın personlaşdırılması"), B.Burnett və P.Meadmore ("Məruzələr kursu: təqdimat vasitəsi və ya gücləndirilmiş pedaqogika") qeyd edirlər ki, informasiya texnologiyaları tədrisin fərdiləşdirilməsi üçün istifadə oluna və onu daha interaktiv edə bilər. Eyni zamanda interaktivlik effektiv tədris üçün əsas məsələ olaraq qalır. Texnologiyaların istifadə olunması tələbələrin və müəllimlərin motivasiyasına təsir göstərir. Hansı kütləvi informasiya vasitələrinin və hansı informasiya texnologiyalarının effektiv tətbiqi üçün daha yararlı olduğunu peşəkar şəkildə təyin etmək vacibdir.

### Rəqəmsal texnologiyalar

Rəqəmsal texnologiyalar haqqında bəhs edərək qeyd etmək lazımdır ki, indiki dövrdə kompüterlərin, mobil qurğuların və müxtəlif proqram əlavələrin işlənib hazırlanması zamanı hərəkətlilik, görmə və eşitmə məhdudiyyətləri mütləq qaydada nəzərə alınır. Universal tədris dizaynında peşəkar müəllimlər əməliyyat sistemlərinin və qurğularının əksəriyyətində mövcud olan xüsusi imkanlar haqqında məlumatlı olmalıdırlar və onlardan mütləq istifadə etməlidirlər.

Tədris prosesini və ümumilikdə, həyatı asanlaşdıran çoxlu sayda servislər və proqram əlavələri işlənib hazırlanmışdır. Onlardan bir neçəsini qeyd etmək mümkündür: Windows və MasOSX sistemlərində məhdud imkanlı insanların məhz bu sistemlərdən internetdən istifadə etmələrinə, nəinki sağlamlıq imkanları məhdud insanlar üçün nitq və digər göstəriciləri tanımağa imkan verən yeni qurulmuş rejimlər mövcuddur. Apple tərəfindən buraxılan və eşitmə, görmə qabiliyyəti, fiziki bacarıqları məhdud olan insanlara bilik əldə etməyə, inkişaf etməyə imkan verən müxtəlif texnologiyalar yaradılmışdır. Google Chrome brauzerində və Google - sənədlərində görüntü ölçüsünün dəyişdirilməsi, mətnin səsləndirilməsi və səs interfeysi mövcuddur.

Telefonlar üçün "Be my eyes" əlavəsi mövcuddur və onun iş prinsipi ya da ümumiyyətlə, görməyən istifadəçinin ətrafında heç nəyi görmədiyi halda seyr etmək istədiyi yerə kameranı yönəltməsindən və yaxşı görən könüllünün onlayn rejimində nəyin harada yerləşməsindən bəhs etməsindən ibarətdir. Eşitmə və ya nitq məhdudiyyətli insanlar üçün Android sistemində "Yandeks söhbət" əlavəsi sağlamlıq imkanları məhdud insanlar arasındakı ünsiyyəti daha da asanlaşdırır.

"Tecla qurğusu" hərəkət məhdudiyyəti olan insanların smartfondan və ya planşetdən istifadə etmələrinə imkan verir. "Korlar üçün onlayn kinoteatr" adaptasiya edilmiş saytında görmə qabiliyyəti məhdud olan insanlara ekranda baş verənləri hiss etməyə imkan verən texnologiya tətbiq olunmuş və bütün bunların Brayl şrifti ilə yazılanlar və baş verənlər ilə bağlı şərhlər saytda yerləşdirilmişdir. Smooth servisi məhdud hərəkət imkanlarına malik olan insanlar üçün əvəzolunmaz, maneələrin dəf olunması ilə şəhər üzrə marşrutların qurulmasının ilk servisidir. "Surdofon" əlavəsi rahat ünsiyyət mühitinin yaradılmasında eşitmə qabiliyyəti zəif olan insanlara kömək edir.

Qeyd olunan bütün rəqəmsal texnologiyalar və proqram əlavələri zəruri hallarda tədris prosesində müəllimlər tərəfindən istifadə olunmalıdır. Bu, təhsildə universal dizayn sisteminin təkmilləşdirilməsi üçün bazanı zənginləşdirir.

Unutmaq lazım deyil ki, bütün dərs materialları və vasitələri müəllim tərəfindən düzgün istifadə olunduğu zaman effektiv olur. Universal dizayn prinsiplərinin tətbiq olunması ilə dərslərin hazırlanması zamanı əsas vəzifə - şagirdlər üçün çalışma sürətinin, qiymətləndirmə metodlarının və formalarının seçim imkanını təmin etməkdən, dərs materiallarının təqdim olunmasının müxtəlif üsullarının və tapşırıqlarının ən alternativ növlərini düşünməkdən ibarətdir.

**Tədrisin universal dizayn prinsipləri ən müxtəlif təhsil tələbatları olan şagirdlərin tədris prosesinə tam daxil edilməsi üçün şərait yaratmağa imkan verir. O, xüsusi tələbatlara malik olan şagirdlərlə ümumi təhsil proqramının mənimsənilməsi prosesində daimi dəstəyi təmin edir. Bu, nəinki xüsusi mütəxəssislər tərəfindən ayrı-ayrı məşğələlərdə, eləcə də hər gün, hər bir dərsdə, hər bir müəllim tərəfindən tədris proqramlarının çevikliyi və universallığı hesabına təmin olunur.**

Tədrisdə universal dizayn sisteminin tətbiqi keçid dövrünün bir çox problemlərini həll etməyə, şagirdlərin şəxsiyyətinin inkişafının xüsusiyyətlərinə diqqət yetirməyə imkan verir. Təhsildə universal dizayn müəllimlərin peşəkar səriştəliliyinin və inklüziv tədris formalarının inkişafını təkmilləşdirir.

Yekunda qeyd etmək istərdik ki, inklüziv təhsil - yalnız sağlamlıq imkanları məhdud gənclərin təlim prosesinə fiziki baxımdan daxil edilməsi deyildir. Bu sahədə alimlərin çoxsaylı işlərini araşdıraraq belə bir tərif formalaşdırmaq olar: "İnklüziv təhsil fundamental əsasını bütün təhsil alanların çoxşaxəliliyi unikallığa və dəyərləri təşkil edən, onlara gələcək tam dəyərli fəaliyyət üçün zəmin yaradan təhsil sistemində sağlamlıq imkanları məhdud insanlar da daxil, hər bir insanın effektiv iştirakını təmin edən çoxşaxəli pedaqoji elmdir.

Bu, tədris prosesinin təşkilinin yeni sistemidir. Bu, şagirdlərin bütün müxtəlifliyinin, əmək və təhsil tərbiyəsinin, onların istedadının və fərdi xüsusiyyətlərinin nəzərə alınması ilə bütün şagirdlər tərəfindən informasiyanın qəbul olunmasını və bütünlüklə anlaşılmasını təmin edən yeni yanaşma üsullarıdır. Bu, təhsilin universal dizaynı prinsiplərinə riayət edərək pedaqogika elminin təkmilləşdirilməsi yolu ilə əldə olunan tədris prosesinin təşkilidir.

Tədrisdə universal dizayn sahəsində araşdırmalara davam edilir. Növbəti məqalədə tədrisdə universal dizayn metodları haqqında daha ətraflı məlumat təqdim edəcəyik.

---

## Damar cərrahiyyəsi üçün kamera hazırlanıb

**Yusif ƏLİYEV**

Böyük Britaniyanın Kembric Universitetinin alimləri arteriya və venalar üzərində cərrahi əməliyyatların həyata keçirilməsi üçün qeyri-adi quruluşa malik kiçik kamera hazırlayıblar.

hi-news.ru saytının məlumatına əsasən, qurğunun analoqlarından əsas fərqi təsvirin "chip-on-tip" texnologiyası ilə emal edilməsidir. Adi endoskoplarda siqnal əsas qurğuya sim vasitəsilə ötürülür ki, burada onun deşifrə edilməsi və təsvirə çevrilməsi baş verir. Texnologiya "Omnivision" şirkəti ilə birgə yaradılıb və qurğunun prototipi 400x400 (0,16 meqapiksel) təsvir ölçüsünü malikdir, lakin onun son versiyasında təsvir ölçüsünü ən azı 1600x1600-ə qədər (2,6 meqapiksel) artırmaq mümkün olacaq.

Elastik endoskopik borunun diametri 1,35 mm



təşkil edir ki, bu da qurğunu hətta koronar angioqrafiya (ürək damarlarının xüsusi rentgeni) üçün istifadə etməyə imkan verir. Bundan başqa, istehsalçıların sözlərinə görə, "Leap" qurğusunu damardaxili ultrasəs müayinəsi və optik koherent tomoqrafiya kimi diaqnostika metodları üçün də tətbiq etmək olar.

"Leap" adlı qurğu böyük endoskoplardan fərqli olaraq, əməliyyat otağının böyük ölçülü texnikasından asılı olmamağa imkan verir, çünki onu istənilən kompüterə qoşmaq mümkündür. Həmçinin yeni qurğunun bəzi detalları (məsələn, optik boru) birdəfəlikdir ki, bu da sterilizasiya qənaətbəxş olmadıqda infeksiya və xəstəliklərin bir insandan digərinə ötürülməsi riskini aşağı salır.

## Kompüter alqoritmi DNT-yə görə potensial riskli ciddi xəstəlikləri proqnozlaşdırır

ABŞ-ın Miçiqan Universitetinin alimlərinin hazırladığı neyron şəbəkə DNT-yə görə insanların boyunu dəqiqliklə proqnozlaşdırır və potensial riskli ciddi xəstəlikləri (ürək xəstəlikləri, xərçəng) qiymətləndirir.

naukatv.ru saytının məlumatına görə, kompüter alqoritmi ilk dəfə boy, sümüklərin sıxlığı və insanın nail ola biləcəyi təhsil səviyyəsi kimi keyfiyyətləri proqnozlaşdırmağa çalışır. Bunların müəyyənləşdirilməsi üçün neyroşəbəkə yalnız genoma əsaslanır. Böyük Britaniyanın "UK Biobank" DNT bazasının - səhiyyə haqqında beynəlxalq informasiya resursunun məlumatlarından istifadə edən alqoritm 500 min nəfərin DNT-ni analiz edərək insanlar arasında fərqli cəhətləri aşkarlayıb və onların xüsusiyyətlərini müqayisə edib. Sınaqlar zamanı kompüter hər insanın boyunu 1 sm dəqiqliklə proqnozlaşdırıb.

Mütəxəssislərin fikrincə, indi bu üsulu ciddi xəstəliklərlə əlaqədar digər mürəkkəb əlamətlərin proqnozlaşdırılması üçün tətbiq etmək olar. Bu, həkimlərə mümkün qədər tez profilaktika aparmağa, potensial xəstəliyin qarşısını almağa və ya ləngitməyə imkan verəcək.



# Məntiqi təfəkkür inkişaf edir, baza bilikləri möhkəmlənir



**Fatma MUSTAFAZADƏ,**
*Bakı şəhəri A.Hüseynzadə adına 20 nömrəli məktəb-liseyin kimya müəllimi, “Əməkdar müəllim”, “Ən yaxşı müəllim” müsabiqəsinin qalibi*

## Təlim nailiyyətlərinin yaxşılaşdırılmasında sinifdənxaric və məktəbdənkənar tədbirlərin rolu

Şagirdlərin təlim nailiyyətlərinin yaxşılaşdırılmasında fənlər üzrə keçilən dərs saatlarından başqa, sinifdənxaric və məktəbdənkənar tədbirlərin rolu və əhəmiyyəti böyükdür. Məktəblərdə fənlər üzrə dərnəklərin yaradılması, şagirdlərin texniki yaradıcılıq mərkəzlərinə cəlb edilmələri, fənlərə aid müxtəlif adlarla tədbirlərin, “dəyirmi masa”ların, bilik yarışlarının keçirilməsi, istehsal sahələrinə, muzeylərə ekskursiyaların təşkili, müxtəlif rəqabətli oyunların təşkili, şagirdlərin tədqiqat xarakterli müxtəlif elmi layihələrə cəlb edilməsi fənnə olan marağı artırır, şagirdlərin məntiqi təfəkkürünü inkişaf etdirir, baza biliklərini möhkəmləndirir, şagirdlər arasında sağlam rəqabət yaradır və yaradıcılıq qabiliyyətinin formalaşmasına səbəb olur.

Texniki yaradıcılıq mərkəzlərində əsasən “İbtidai texniki modelçilik”, “Radioelektronika”, “Elektrotexnika”, “Bacarıqlı əllər”, “İnformatika”, “Texniki estetika”, “Əyləncəli fizika”, “Texniki ekologiya”, “Gənc konstruktorlar”, “Avto”, “Raket”, “Təyyarə” modelçiliyi, “Robot texnikası”, “Kimya - texnologiya” və s. adlarda dərnəklər fəaliyyət göstərir. Bu mərkəzlərə cəlb olunan uşaq, yeniyetmə və gənclərin texniki yaradıcılıq potensialları inkişaf etdirilir, onlar erkən yaşlarından səmərələşdiricilik və ixtiraçılıq işlərinə cəlb olunurlar. Bu mərkəzlərdə məşğul olan məktəblilər ümumtəhsil məktəblərində fizika, kimya, riyaziyyat, informatika, astronomiya dərslərində aldıqları nəzəri bilikləri konstruktiv fəaliyyətləri zamanı daha yaxşı mənimsəyirlər.

Mən 4 il Gənc Texniklər Stansiyasında “Kimya -texnologiya” dərnəyinin rəhbəri kimi fəaliyyət göstərmişəm. Bu dərnəkdə şagirdlərin necə həvəslə mövzulara aid modellər düzəltdiyini, onları dərslərimizdə qürurla nümayiş etdirdiklərini gördükcə fəaliyyətimizi daha da genişləndirirdim.

7-ci sinifdən başlayaraq şagirdlərə müxtəlif mövzularda referatlar yazdırmaq, onların prezentasiyasını keçirmək, yaxşıları rəğbətləndirmək lazımdır. Rəğbətləndirmə rəqabəti artırır, şagirdlərdə özgüvənlik yaradır. Referatların yazılması müstəqil araşdırma, tədqiqatçılıq qabiliyyətini formalaşdırır, mövzuya əsasən əhatəli biliklərin alınmasını təmin edir, şagirdlərə öyrənməyi və öyrətməyi öyrədir.

Kimya fənnindən 7-ci siniflərə təklif olunan referat mövzuları bilikləri genişləndirməklə yanaşı, bacarıqların da formalaşdırılmasına xidmət edir, verilən standartların reallaşmasına səbəb olur. Məsələn:

1.“Su həyatın özüdür” (4.1.2, 4.2.1); 2.“Ozon təbəqəsinin canlılara təsiri, deşilməsi səbəbləri” (4.2.1); 3.“Məişətdə istifadə olunan məhlullar, məhlullara aid məsələ həlli nümunələri”(1.3.2, 4.1.1, 4.1.2) və s.

8-ci siniflər üçün nəzərdə tutulan referat mövzuları varislik prinsipini qoruyaraq əldə edilən bacarıqların daha da təkmilləşdirilməsinə səbəb olur:

1.Qeyri-üzvi birləşmələrin mühüm siniflərinə aid maddələrin həyatımızda rolu, tətbiqi və əhəmiyyəti (4.1.1); 2.Elektrolizin mahiyyəti, tətbiqi, əhəmiyyəti (1.2.1, 4.1.1); 3.D.İ.Mendeleyevin elmi fəaliyyəti. Dövri sistem cədvəli (4.3.1); 4.Radioaktivlik. Rezerfordun elmi fəaliyyəti (1.2.1, 4.3.1); 5.Kimyəvi reaksiyaların növləri (2.1.1, 2.2.1); 6.Kimyəvi reaksiyaların sürəti, ona təsir edən amillər (2.1.1, 2.2.2) və s.

Böyük alman mütəfəkkiri V.Hötenin belə bir sözü var: “Öz bildiklərini başqalarına öyrət, başqalarının bildiklərini də özün öyrən”. Bu ifadəyə əsasən siniflər arasında bilik yarışlarının keçirilməsi öyrənilən biliklərin təkrarlanmasına, dərinləşməsinə, şagirdlər arasında rəqabətin, əməkdaşlığın, qrupa görə cavabdehliyin, məsuliyyətin artmasına səbəb olur.Yarışları hər yarımildə 1 dəfə keçirməklə ilin qalibini müəyyənləşdirmək, fənn müəllimini, şagirdləri rəğbətləndirmək olar.

“Dəyirmi masa”, disput, diskussiya, təlimati seminar, söhbət, toplantı, ədəbi-bədii kompozisiya, idman və bilik yarışları, fənn “gecə”ləri, sərgi, müsabiqə və ekskursiyaların, muzeylərə, zavodlara gəzintilərin təşkili şagirdlərdə motivasiyanı yüksəldir, fəallığa səbəb olur və nəticədə təhsilin keyfiyyətini artırır.

Məktəblilərin sağlam həyat tərzinin təmin edilməsi məqsədilə “Sağlam millət, sağlam gələcək”, narkomaniya və alkoqolizm meyillərinin qarşısının alınması istiqamətində “Alkoqolizm və narkomaniya” mövzusunda “dəyirmi masa”, maarifləndirici tədbirlər, səhiyyə orqanlarının nümayəndələri ilə görüşlər keçirmək, film nümayiş etdirmək olar.

Kimya fənnində “Təhlükəsiz təmiz su”, “Təmiz hava, sağlam qida”, “Ekoloji təmiz məhsul”, “Alternativ enerji mənbələri”, “Müasir mürəkkəb materialların alınması və tətbiqi”, “Qlobal istiləşmə” və “İstixana effekti” və s. mövzularda seminarlar və ya “dəyirmi masa”lar keçirməklə şagirdlərin diqqətini qlobal məsələlər və onların həllinə yönəltmək lazımdır. Burada məqsəd ekoloji mədəniyyətin formalaşdırılması, eko-cəmiyyətə keçidin təmin olunmasıdır.

Məktəbdə riyaziyyat, fizika, kimya, biologiya və informatika fənləri üzrə fənn müsabiqələri, olimpiadalar, viktorinaların və layihə müsabiqələrinin təşkilini aparmaqla V-XI siniflərin İstedad bankını yaratmaq mümkündür. İstedadlı şagirdlər hazırda bir çox inkişafyönümlü layihələrdə iştirak edir, uğur qazanırlar. Bu sıraya “Sabahın alimləri”, “Gənc alimlər akademiyası”, “Gənc kimyaçılar” və s. kimi layihələr daxildir. Yeri gəlmişkən qeyd edim ki, ötən tədris ilində 2 şagirdimiz - Aybəniz Vəzirli və Nizami Xəlilov “Sabahın alimləri” layihəsində iştirak edib.

Şagird maraqlarını müəyyənləşdirmək, şagirdlərin ehtiyac və maraqlarına əsasən əvvəlcə onlarla müzakirələr aparıb, sonra müvafiq tədbirləri həyata keçirmək lazımdır.

Bütün bunları nəzərə alaraq qeyd olunan tədbirlərin məktəbimizdə də vaxtaşırı keçirilməsinə çalışıram. Ötən dərs ilində məktəbimizdə keçirdiyim “Eksklüziv kimya” gecəsi bu baxımdan xüsusilə maraqlı oldu. Gecənin ssenarisi şagirdlərlə müzakirə olunduqdan sonra hazırlığa başladıq. Məqsədimiz kimyəvi hadisələri həyati hadisələrlə eyniləşdirməklə anlayışın yaradılması idi. Sualları şeir şəklində, aforizmlərlə, əyləncəli şəkillərə əsasən tərtib etmişdik. Məsələn:

1.“Sən əvəzedilməz varlıqsan”. Reaksiyanı təyin edin.

**A)** $Cu + 2HCl \rightarrow CuCl_2 + H_2$

**B)** $C + O_2 \rightarrow CO_2$

**C)** $Zn + 2HCl \rightarrow ZnCl_2 + H_2$

**D)** $2Na + 2H_2O \rightarrow 2NaOH + H_2$

**Cavab:** $Cu + HCl \rightarrow$

2.“Yersiz gəldi yerli qaç”. Reaksiyanı təyin edin.

**A)** $NaOH + HCl \rightarrow NaCl + H_2O$

**B)** $SiO_2 + CaCO_3 \rightarrow CaSiO_3 + CO_2$

**C)** $CaO + H_2O \rightarrow Ca(OH)_2$

**D)** $CaCO_3 \rightarrow CaO + CO_2$

**Cavab:** $SiO_2 + CaCO_3 \rightarrow$

3.“Tısbağa qınından çıxdı, qınını bəyənmədi”. Atomun elektron quruluşuna görə elementləri təyin edin.

**A)** Fe, Na **B)** Cu, Cr **C)** F, S
**D)** Mn, K **E)** C, N

**Cavab:** Cr, Cu

4. “Qrup nömrəsi qədər, valentlik göstərmirik”.
Biz trio olaraq lap başda yerləşirik.
Əgər bizi tapsanız, onda söyləyin görək
Səbəb nədir beləyik?
Elementləri tapın, səbəbini izah edin.

**Cavab:** F, O, N və s.

Kimyəvi dildə müxtəlif səhnəciklər, təcrübə sualları, “Kimya həyatdır” mahnısını hazırlamışdıq. Bu mahnı kimyanın həyatda rolunu, əhəmiyyətini, tətbiqini əks etdirir. Şagirdlər internetdən müxtəlif şəkillər taparaq onlara kimyəvi anlayışlarla ifadələr vermişdilər. Bu o qədər maraqlı oldu ki, şagirdlər belə tədbirlərin tez-tez keçirilməsini istədilər.

Şagirdlərin dünyagörüşünün formalaşmasında, biliklərin əhatəli olmasında ekskursiyaların rolu böyükdür. Bu baxımdan Sənqəçalda Xəzər Enerji Mərkəzinə, Qaradağda Sement zavoduna, Neft-Kimya Prosesləri İnstitutundakı akademik Y.Məmmədəliyevin Memorial muzeyinə ekskursiyalar şagirdlər yəqin ki, unutmayacaqlar.

Onlar sement zavodunda sementin istehsal tarixi, növləri, müxtəlif məqsədli təyinatı, tərkibi, istehsalı haqda dərslikdəki materialdan çox bilik əldə etdilər. Onlar istehsal prosesindən videoçəkiliş etdilər. Xammaldan və klinkerdən nümunələr götürdülər. “Silikat sənayesi” mövzusuna keçirdiyim “açıq dərs”də “Sement” qrupu olaraq videogörüntülərlə əhatəli təqdimat etdilər.

Xəzər enerji mərkəzində şagirdlər neftqaz sahəsində müqavilələrlə, müxtəlif ölkələrdə çıxan, rəngləri fərqli olan neft nümunələri, neftin ölkəmizdə çıxarılması tarixi və üsulu ilə tanış oldular. Əyləncəli bilik yarışı keçirildi.

Şagirdlərimiz NKPİ-dakı akademik Y.Məmmədəliyevin Memorial muzeyində böyük alimin həyatı, elmi fəaliyyəti ilə, tarixi faktlarla tanış oldular. Belə muzeylərə gəzinti şagirdlərdə vətənpərvərlik, qürur hissləri yaradır.

Şagirdlərin görkəmli elm adamları ilə görüşləri, söhbətlər onların peşə seçimlərinə müsbət təsir edir, fənnə marağı artırır. Məktəbimizdə kimyaçı alim, akademik Vaqif Abbasovla müəllim və şagirdlərin görüşü böyük təəssürat yaratmışdı. Şagirdlərlə NKPİ-də olarkən Vaqif müəllim bizimlə təkrar görüşdü. Onunla söhbətdən sonra şagirdlərin mənə çoxlu sualları oldu. Onlar əsasən ölkəmizdəki kimya istehsal sahələri, bu sahədə olan peşələr və gəlirlərlə maraqlanırdılar.

Şagirdlərin maraqlarına səbəb olan fəaliyyətlərdən biri də “Kimya bülleteni” və ya digər adlarla fənnə aid divar qəzetlərinin çıxarılmasıdır. Bu da şagirdlərin axtarışına, yaradıcılıq qabiliyyətlərinin inkişafına səbəb olur.

Sinifdənxaric görülən işlərdən biri də nəticəsi zəif olan şagirdlərlə əlavə məşğələlərin təşkili, biliklərinin artırılmasıdır. Eyni zamanda nəticələri yüksək olan şagirdlərin, xüsusi istedadlı şagirdlərin ehtiyaclarına uyğun fəaliyyətlərin həyata keçirilməsidir. Təbiət fənlərinə marağı güclü olan şagirdləri erkən yaşdan müəyyənləşdirmək, layihələr, məktəbdaxili və məktəbdənxaric müsabiqələr, olimpiadalar, bilik yarışlarında fəal iştirakını təmin etmək lazımdır.

Ölkəmiz üçün müasir düşüncəli və rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılmasında ümumi təhsil xüsusi əhəmiyyətə malikdir. Ümumi təhsilin səmərəlilik və effektivliyinin yüksəldilməsi, şagirdlərin dövrün çağırışlarına uyğun keyfiyyətli təhsillə əhatə olunması, onların cəmiyyətdə tələbyönlü şəxsiyyət, vətənpərvər ruhlu yetkin vətəndaş kimi tərbiyəsi bütün müəllimlərin mühüm vəzifəsidir.

# Tarixdən dərs nümunəsi



**Ziyafət NƏCƏFOVA,**
*Bakı şəhəri 291 nömrəli “Ekologiya” liseyinin tarix müəllimi*

## Şagirdlər Konstitusiya ilə bağlı biliklərini nümayiş etdirirlər

*Mövzu:*
12 noyabr - Azərbaycan Respublikasının Konstitusiya günüdür

*Əsas ideya:*
Konstitusiya - dövlətin ali qanunudur. 1995-ci il noyabrın 12-də Ümumxalq səsvermosi yolu ilə (referendumda) qəbul edilmişdir.

Ümummilli lider Heydər Əliyevin 1 noyabr 1996-cı il tarixli fərmanına əsasən hər il noyabrın 12-si ölkəmizdə Konstitusiya Günü kimi qeyd olunur.

*Məqsədlər:*
1. Konstitusiyanın mahiyyətini və cəmiyyətdəki rolunu açıb göstərmək. Şagirdləri Azərbaycan Respublikasının Konstitusiyasının qısa tarixi və əsas maddələri ilə tanış etmək;
2. “Konstitusiya”, “demokratiya”, “referendum” anlayışlarının mənimsənilməsini təmin etmək;
3. Şagirdlərdə tədqiqatçılıq vərdişləri və qrup halında işləmək, informasiyanı təhlil etmək bacarığını inkişaf etdirmək;
4. Ölkənin əsas qanununa, Azərbaycan Respublikasının simvollarına, Vətən sevgisinə hörmətli münasibət aşılamaq.

*Dərsin gedişi.*

*Motivasiya* (5 dəqiqə).

Müəllim sinfə sualla müraciət edir: “Dövlətin əsas qanunu nədir?”

Bu sualın qısa müzakirəsindən sonra tədqiqat sualı lövhədə yazılır.

*Tədqiqat sualı* (5 dəqiqə).

“Konstitusiya nədir və Azərbaycan cəmiyyətinin həyatında onun rolu nədən ibarətdir?”.

Şagirdlərin fərziyyələri dinlənilir və tezis şəklində lövhəyə yazılır. Müəllim bu fərziyyələrin dürüstlüyünü yoxlamağı şagirdlərə təklif edir.

*Tədqiqatın aparılması və informasiya mübadiləsi - kiçik qruplarda iş* (20-25 dəqiqə).

Müəllim sinfi qruplara bölür. Hər qrupa marker və iri vərəqlər paylayır. Qruplar özü üçün ad seçir. Bundan sonra hər qrupa Azərbaycan Respublikasının Konstitusiyası haqqında aşağıdakı məzmunda nəzəri material verilir:







Konstitusiya (latınca constitutio - quruluş) - dövlətin ali qanunudur, ali hüquqi qüvvəyə malikdir və həmin dövlətin siyasi, hüquqi və iqtisadi sistemlərinin əsaslarını təsbit edir, vətəndaşlarının hüquq və azadlıqlarını elan edir və zəmanət verir. Konstitusiya sözünün hərfi mənası “qurmaq, yaratmaq, əsasını qoymaq” deməkdir. Dünyada Konstitusiya ilk dəfə 1215-ci ildə İngiltərədə tətbiq olunub. Həmin vaxt bu ölkədə qəbul olunan Azadlıqların Böyük Toplusu ilk konstitusiya aktı sayılır. İlk yazılı ali qanun isə ABŞ Konstitusiyasıdır.

Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş Konstitusiyası müstəqil Azərbaycanın ilk əsas qanunu idi. Məlum olduğu kimi, 1918-1920-ci illərdə 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti dövlətin əsas Qanununu qəbul edə bilməmişdi. Beləliklə, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun tarixi əsasən SSRİ-nin tərkibində olduğu dövrə düşür.

Azərbaycanın birinci Konstitusiyası 1921-ci il mayın 19-da I Ümumazərbaycan Sovetlər qurultayında qəbul edilib. Azərbaycan SSR Konstitusiyasının 1921-ci il SSR Konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyası 1925-ci il martın 14-də IV Ümumazərbaycan Sovetlər qurultayında qəbul olunub. Azərbaycan SSR-in 1978-ci ilin aprelin 21-də qəbul edilmiş son Konstitusiyası da əvvəlki Konstitusiyalar kimi SSRİ Konstitusiyasına uyğunlaşdırılmış şəkildə idi.

Azərbaycan müstəqillik əldə etdikdən sonra yeni Konstitusiyanın hazırlanması zərurəti yarandı. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə xüsusi komissiya yaradıldı. 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olunub. Azərbaycan Konstitusiyası 5 bölmə, 12 fəsil və 158 maddədən ibarətdir.

2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da keçirilən referendumlarda qüvvədə olan Konstitusiyaya əlavə və dəyişikliklər qəbul olunub.

Şagirdlər verilmiş nəzəri materialla tanış olduqdan sonra (10 dəqiqə ) müəllim hər qrupa eyni tapşırıq verir: “Krossvordun həlli” (5 dəqiqə).

İri vərəqlər üzərində cavablar qeyd olunur və vaxtın bitməsindən sonra hər qrup öz işinin nəticəsinin təqdimatı üçün nümayəndəsini seçir. Bu zaman müəllim krossvord həllinin düzgünlüyünü yoxlayır (10 söz), hər bir düzgün sözə bir ulduz verilir. Hər ulduzun əks tərəfində Azərbaycan Respublikası Konstitusiyasının maddələrindən biri verilir.

Nəticədə ən çox ulduz toplayan qrup qalib gəlir. Sonra hər bir qrup digər qrupların nümayəndələrini ulduzların əks tərəfində olan maddələrlə tanış edir.

*Ümumiləşdirmə və nəticə* (7 dəqiqə).

Şagirdlərlə birgə müzakirə nəticəsində belə bir qənaətə gəlinir: Konstitusiya dövlətin ali qanunudur, ali hüquqi qüvvəyə malikdir və həmin dövlətin siyasi, hüquqi və iqtisadi sistemlərinin əsaslarını təsbit edir, vətəndaşlarının hüquq və azadlıqlarını elan edir və zəmanət verir. Konstitusiya sözünün hərfi mənası “qurmaq, yaratmaq, əsasını qoymaq” deməkdir. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə layihəsi hazırlanmış və 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə müstəqil Azərbaycan dövlətinin ilk Konstitusiyasının qəbul edilməsi xalqımızın tarixində ən parlaq səhifələrdən biridir.

*Ev tapşırığı.*

Mövzuya aid maraqlı faktları aşkarlayıb buklet şəklində hazırlamaq.

# "Müəllimlər biliklər üzərində inhisarçılığı birdəfəlik itiriblər"

## Rusiyanın ən yaxşı müəllimi Alixan Dinayev: "Nə qədər ki, siniflərdə 20-30 şagird var, təhsilin keyfiyyətinin yüksəlməsindən danışmaq çətindir"

**Oruc MUSTAFAYEV**

Rusiyada artıq 29 ildir ki, ölkənin ən yaxşı müəlliminin müəyyən edilməsi üzrə müsabiqə keçirilir. Bu ilin yanvar ayından start götürən "İlin müəllimi-2018" müsabiqəsində Çeçen Respublikası Qroznı şəhər 1 nömrəli riyaziyyat məktəbinin ictimaiyyat və hüquq müəllimi 29 yaşlı Alixan Dinayev qalib gəlib. Oktyabrın 5-də müəllimlərin peşə bayramı - Beynəlxalq Müəllimlər Günündə Alixan Dinayev Kremldə keçirilən mərasimdə ölkənin ən yaxşı müəllimi elan olunub. Ölkənin 1,5 milyon müəllimi arasından seçilən müsabiqənin mütləq qalibinə böyük "Büllur qutan"ı və ən yaxşı müəllim mükafatını Rusiyanın maarif naziri Olqa Vasilyeva və M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin rektoru, akademik Viktor Sadovniçi təqdim ediblər. Müəllimlər günü münasibətilə həmkarlarını təbrik edən Alixan Dinayev məşhur pedaqoq Vasiliy Suxomlinskinin "nikbinlik, inam müəllimin yaradıcı enerjisinin tükənməz mənbəyidir" sözlərini xatırladaraq, həmkarlarına sarsılmaz inam və nikbinlik arzulayıb. Qalib qələbəsini 200 illik yubileyini qeyd edən Qroznı şəhərinə və şagirdlərinə həsr etdiyini deyib.

Ölkənin 85 subyektindən 47 min təhsil işçisi arasında keçirilən çox mürəkkəb və məsuliyyətli yarışmanın qalibi "Azərbaycan müəllimi" qəzetinə müsahibə verib. Öncə Rusiyanın ən yaxşı müəllimini yaxından tanıyaq.

*Onun özü barədə dediyi bu sözlər isə əsl müəllimin həyat kredosudur: "Əgər həyatımın qalan hissəsini yalnız bir işlə məşğul ola bilsəydim, mən düşünmədən uşaqları öyrətmək və onlardan öyrənmək imkanını seçərdim".*



**- "İlin müəllimi - 2018" Ümumrusiya müsabiqəsi necə keçdi? Təəssüratlarınızı bilmək maraqlı olardı...**

- Müsabiqə bir neçə mərhələdə keçir. Hər şey məktəbdən, ölkənin ən nüfuzlu peşəkar müsabiqəsində iştirak etmək arzusunda olan müəllimlərin seçim turundan başlanır. Bundan sonra müəllimləri bələdiyyə mərhələsi (şəhər və ya rayon səviyyəsində) gözləyir, daha sonra iddiaçılar regional mərhələyə daxil olurlar. Bu il ölkənin bütün 85 regionundan olan qaliblər Sankt-Peterburqa (müsabiqənin ötənilki qalibinin işlədiyi şəhər) toplaşmışdı. Məhz burada ölkənin 2018-ci il üzrə ən yaxşı müəllimi seçilirdi. Müsabiqə iki həftə davam edən mürəkkəb və çoxpilləli əsl marafondur. Müsabiqənin yalnız əyani mərhələsi 2 həftə davam edir. Mənim üçün müsabiqəyə hazırlıq ötən tədris ili oldu. 12 ay ərzində mən (əvvəlcə müstəqil, daha sonra komandamla birlikdə) ən əhəmiyyətli sınağa hazırlaşdım.

Müsabiqənin qalibi 8 tapşırığı yerinə yetirməlidir: "Esse" (mövzu müsabiqənin başlamasına 10 dəqiqə qalmış elan olunur), "İnternet-resurs" (sosial şəbəkələrdə saytın və ya səhifənin qiymətləndirilməsi). Birinci iki sınaq qiyabi mərhələdə keçir. Bundan sonra "Metodik seminar"lar (fərdi metodik təcrübənin nümayişi, istifadə olunan texnologiyalar və onların nəticələri) və "Dərs" mərhələsi oldu. "Dərs" mərhələsi məktəbin təqvim planına uyğun olan mövzu üzrə tanımadığımız uşaqlarla keçirildi. 15 ən yaxşı müəllim "Ustad-dərs", "Sinif saatı" (onun mövzusunu sınağın başlanmasına 10 dəqiqə qalmış müəyyən edirlər) keçdi. İddiaçılar həmçinin "Maarifləndirici layihə" yaratmağa çalışırlar. Bu iş 5 nəfərlə 7 saat ərzində davam edir. Sonuncu tapşırıq - "Nazirlə danışıq"dır. Bu mərhələdə yalnız müsabiqənin beş mükafatçısı iştirak edir. Bu mərhələnin mövzusu yalnız görüş əsnasında nazir tərəfindən açıqlandı: "Qlobal rəqabətə davamlılıq: ölkəni ümumi təhsilin keyfiyyəti üzrə liderlər sırasına necə çıxarmaq?".

Sonsuz dərəcədə şadam ki, mənə bu çox gözəl müsabiqədə iştirak etmək xoşbəxtliyi nəsib olub. İlin müəllimi müsabiqəsi əsl peşəkar inkişaf məktəbidir. Bir neçə həftə ərzində pedaqoq nəhəng təcrübə qazanır. Digər tərəfdən, bu, həmçinin fiziki və psixoloji cəhətdən üzücü bir fəaliyyətdir, lakin insanı xaraktercə möhkəmləndirir, çoxsaylı bacarıq və səriştələri inkişaf etdirir, streslərə qarşı daha da dözümlülük yaradır.

**- Necə oldu ki, müsabiqədə iştirak etməyə qərar verdiniz? Sizin ideyanız nədən ibarət idi?**

- Müsabiqədə iştirak etməyə 2017-ci ilin sentyabrında qərar verdim. Ötən illərin qalibləri ilə qısa, amma yaddaqalan tanışlığım məni buna həvəsləndirirdi. Gizlətməyəcəyəm, onların çıxışları, ustad-dərsləri məni o qədər valeh etmişdi ki, bu müsabiqə hərəkatının bir hissəsi olmaq istəyirdim.

Müsabiqədə mən öz əsas pedaqoji ideyalarımı və prinsiplərimi təqdim edirdim:

*- müəllim uşaqlar üçün dost olmalıdır;*

*- bütün təhsil prosesi müəllimin şagirdlərə sevgisinə əsaslanmalıdır;*

*- istənilən materialı, ilk növbədə, sadə və əlçatan, şən və maraqlı izah etmək lazımdır;*

*- pedaqoqa məktəb kabineti çərçivəsindən kənara çıxmaq və internet vasitəsilə maarifləndirici məkanı genişləndirmək lazımdır;*

*- valideynləri mümkün qədər daha fəal şəkildə cəlb etmək və onlarda öz uşaqlarının məktəb həyatına maraq oyatmaq lazımdır.*

**- Niyə müəllim olmağa qərar verdiniz və məhz ictimaiyyatı seçdiniz?**

- Mən müəllim ailəsində böyümüşəm və dördüncü nəsil müəlliməm. Hələ tələbəlik illərində məmnuniyyətlə kurs yoldaşlarım üçün məsləhətlər keçirir, bəzən hətta müəllimlərin yerinə mühazirə oxuyur, bütün fənlər üzrə çoxsaylı məruzələrlə çıxışlar edirdim. Universitet təhsilimin son aylarına yaxın mən təxminən 30 videoçarx hazırladım. Bunlar müxtəlif suallara həsr olunmuş 10-15 dəqiqəlik təhsil materialları idi və onlar ölkədə böyük ajiotaj doğurdu. Mənim dərs materialını çatdırmaq və izah etmək tərzim bütün Rusiya üzrə tanımadığım yüzlərlə tələbənin xoşuna gəlmişdi. Bundan sonra özümü müəllim kimi tədrisdə sınamaq fikri şüurumda qəti şəkildə möhkəmləndi.

İctimaiyyat fənnini ona görə seçdim ki, bir neçə il məhz sosiologiya və politologiyanı öyrənirdim. Əlbəttə ki, bu, inanılmaz dərəcədə maraqlı fəndir. Axı bizim bütün ətrafımız elə ictimaiyyət özüdür. Mədəniyyət, siyasət, biznes, ailə - bütün bunlar və bir çox başqa şeylər bu fənn çərçivəsində öyrənilir.

**- Müasir məktəbin inkişafı yalnız innovasiyalar vasitəsi ilə həyata keçirilə bilər. Siz tədris prosesində təlimin hansı aktiv metodlarından istifadə edirsiniz? Təhsilalanların motivasiyasını necə yüksəltmək olar?**

- Mümkün qədər daha çox aktiv və interaktiv metodlardan istifadə etməyə çalışıram. Ən çox işgüzar oyunlardan, "case study"lardan (vəziyyətin öyrənilməsinə və təhlilinə əsaslanan təlim), tədris məhkəmələri, müzakirələr, layihə işlərindən istifadə edirəm. Dərslərdə teatr pedaqogikasının elementlərindən istifadə etməyi çox sevirəm.

Əminəm ki, şagirdlərin motivasiyası bir çox hallarda müəllimin motivasiyasının nəticəsidir. Əgər uşaqlar görürlərsə ki, müəllim öz fənnini ürəkdən sevir, dərsdə və öz şagirdlərinin inkişafında maraqlıdır, onda onların marağı da əhəmiyyətli dərəcədə artır. Motivasiyanı tədris prosesində uşaqları cəlb edən metodlardan istifadə etməklə qururam. Hətta tədris prosesinin ən darıxdırıcı elementlərindən biri kimi qəbul olunan yoxlama işlərini belə, biz uşaqlarla tapşırıqlar vasitəsilə fərdiləşdirməyə çalışırıq. Çünki uşaqlar özləri real həyati situasiyaların təsvir olunduğu, yumor və qismən ironiya payının olduğu bu tapşırıqların baş qəhrəmanıdırlar.

Uşaqları motivasiya etməyin ən yaxşı üsullarından biri müxtəlif layihələrdir. Biz şagirdlərlə birlikdə həm xeyriyyəçilik, həm vətənpərvərlik, həm də sosial məzmunlu müxtəlif layihələr reallaşdırırıq ki, onların məqsədi ətrafımızdakı dünyanı daha yaxşı etməkdir. Digər tərəfdən, qeyd etməliyik ki, bütün dövrlərdə həmişə ən yaxşı motivasiya şəxsi nümunə olub və indi də olmaqdadır. Mənə elə gəlir ki, uşaqları uğurlu insanların real nümunələri ilə tanış etmək çox əhəmiyyətlidir. Həm də təkcə bütün dünyada tanınan, lakin bizim uşaqlardan kifayət qədər uzaq olan Coan Roulinq və ya İlon Mask kimi qəhrəmanlarla deyil. Şagirdləri öz həmyerliləri, onların müasirləri, müxtəlif sahələrdə böyük nailiyyətləri olan gənclərimizlə də tanış etmək lazımdır. Bunun üçün mən "20 adi çeçen" adlı kiçik kitab yazdım və Çeçenistanın Elm və Təhsil Nazirliyinin köməyi ilə bu kitabı respublikanın bütün məktəblərində yaydıq. Bu kiçik əmək kifayət qədər tələbolunan və məşhur oldu.

**- Siz müəllim peşəsində nələri başlıca hesab edirsiniz?**

- Ən əsası, sözsüz ki, uşaqlara qarşı səmimiyyət və əsl sevgidir. Bu bünövrə olmadan müəllim işləmək, əlbəttə, olar, amma ciddi nəyəsə nail olmaq praktik cəhətdən mümkün deyil. İkinci ən əhəmiyyətli qayda - daim oxumaqdır. Mən tez-tez deyirəm ki, müəllim öyrədəndən çox özü də öyrənəndir, həm də bütün karyerası boyunca. Müəllim öyrənir, kitablar oxuyur, ixtisasartırma kurslarına qatılır, müsabiqələrdə iştirak edir, öz təcrübəsini həmkarları ilə bölüşür və s. Nəhayət, hər zaman və hər şeydə uşaqlar üçün nümunə olmaq lazımdır: yüksək təhsilli, intellektual, özünü inkişaf etdirən insan nümunəsi. Əxlaqlı davranışın nümunəsi. Öz ölkəsinin vətəndaşı və vətənpərvərlik nümunəsi.

**- Sizin pedaqoji kredonuz? Bir müəllim kimi, pedaqoji uğurunuzun sirri nədədir?**

- O belə səslənir: "Uşaqları sevmək. Öz işini sevmək. Həmişə". Heç bir xüsusi sirr yoxdur. Uşaqlar başqalarından fərqli olaraq daha çox hiss edirlər ki, kim onları həqiqətən sevir, onlara qarşı ədalətli davranır və onlar üçün dostdur. Və əgər onlar bunları hiss edirlərsə, onda həmişə qarşılıqlı cavab verirlər. Bax, bu qarşılıqlı xeyirxah və dostluq münasibətləri, çox güman ki, mənim pedaqoji uğurlarımın "sirr"idir. Digər tərəfdən, müsabiqədəki qələbəmin məni dərhal bütün Rusiyanın ən yaxşı müəllimi edəcək kimi xəyal da qurmur və özümü aldatmaqla da məşğul olmuram. Həqiqətən bu zirvəyə çatmaq, bu ada layiq olmaq üçün mənə hələ çox oxumaq və oxumaq, işləmək və işləmək lazımdır.

**- Sizin fikrinizcə, indiki məktəbə nə çatmır?**

- Bayağıdan başlayacağam. Daha yüksək maaş çatmır. Müəllim peşəsinin nüfuzu, hərçənd ki, artır, ancaq yüksək deyil. Bizim respublikamızda məktəblərdə yer çatışmır. Nə qədər ki, məktəb 2-3 növbədə işləyir və siniflərdə 20-30 şagird var, təhsilin keyfiyyətinin yüksəlməsindən danışmaq çətindir.

Bundan başqa, məktəblərdə etimad çatmır. Direktorlara, müəllimlərə, şagirdlərə etibar çatmır. Həddən artıq nəzarət, yoxlama və kağız işi. Uşaqlarımıza isə, çox yəqin ki, dialoq çatmır. Biz uşaqlara daha çox müstəqillik, yaradıcılıq imkanları verməliyik, bununla belə, unutmamalıyıq ki, istənilən dərsdə baş qəhrəman şagirdlərdir.

**- Ənənəvi qiymətləndirmə sistemlərinə münasibətiniz necədir? Şagirdlərinizə tez-tezmi "2" verirsiniz?**

- Bu, mürəkkəb və çox mühüm məsələdir. Rusiyada çox onilliklərdir ki, 5 ballıq sistem qüvvədədir, hansı ki, faktiki olaraq öz mahiyyətinə görə 4 ballıq olub. Çünki "1"-ləri demək olar ki, heç kəs və heç vaxt qoymur. Bəzən "4" qiymət mənə çatışmır, buna görə də "üstəgəl" və "minuslar" da qoymaq lazım olur.

Ancaq 12 ballıq və ya 100 ballıq sistemə keçid böyük risklərlə nəticələnə bilər. Gələcəyi düşünmək və bu məsələni təhsil prosesinin bütün iştirakçıları ilə birlikdə müzakirə etmək lazımdır.

Ümumiyyətlə, heç "2"-lər qoymamağa çalışıram. Bu, effektsiz vasitədir, çünki işləmir, səmərəsi yoxdur. "Qeyri-kafi"dən sonra uşağın marağı daha çox enir. "2" qoymaq əvəzinə adətən şagirdə bir qədər də çalışmağı təklif edir və dərsin sonunda qiymətini düzəltmək şansı verirəm.

**- Sizcə, müasir məktəb və uşaqlar çoxmu dəyişib?**

- Mən orta məktəbi 12 il əvvəl bitirmişəm və o vaxtdan böyük dəyişikliklərin baş verdiyini deyə bilərəm. Baxmayaraq ki, məktəbin bünövrəsi və strukturu əvvəlki kimi qalıb.

Təhsildə kompüterləşdirmə sürətlə gedir, internet və qadjetlər həyatın və təhsilin ayrılmaz hissəsi olub. Bu gün uşaqlar özlərini artıq telefonsuz və sosial şəbəkələrsiz təsəvvür edə bilmirlər. Bir tərəfdən, müəllimlər də zamanla ayaqlaşaraq və uşaqların təhsilə marağını qoruyub saxlamaqla dərslərdə yeni texnologiyalardan istifadə etməlidirlər. Digər tərəfdən isə müəllimlər biliklər üzərində inhisarçılığı qəti və birdəfəlik olaraq itiriblər. Hər bir şagird YouTube-da, məsələn, başqa mütəxəssislərin hazırladıqları onlarca videodərs və mühazirə materialını tapa, internetdəki onlayn-resurslardan və əlavələrdən (proqramlardan) istifadə edə bilər. Deyək ki, Rusiya Elektron Məktəbinin (REM) yaradılması sayəsində uşaqlar bütün fənlər üzrə ölkənin ən yaxşı müəllimlərinin təqdim etdiyi dərslərin tam kursunu əldə edə bilərlər.

**Təhsildə kompüterləşdirmə sürətlə gedir, internet və qadjetlər həyatın və təhsilin ayrılmaz hissəsi olub. Bu gün uşaqlar özlərini artıq telefonsuz və sosial şəbəkələrsiz təsəvvür edə bilmirlər. Bir tərəfdən, müəllimlər də zamanla ayaqlaşaraq və uşaqların təhsilə marağını qoruyub saxlamaqla dərslərdə yeni texnologiyalardan istifadə etməlidirlər. Digər tərəfdən isə müəllimlər biliklər üzərində inhisarçılığı qəti və birdəfəlik olaraq itiriblər.**



**Tanıtım:** 11 may 1989-cu ildə anadan olub. 2011-ci ildə Rusiya Federasiyası Şimal-Qərb Dövlət Qulluğu Akademiyasını bitirib. Müəllimlik karyerasına ali məktəbdən başlayıb, 2012-2017-ci illərdə ali məktəbdə politologiya və sosiologiya ixtisası üzrə dərs deyib. Daha sonra Qroznı Dövlət Neft Texniki Universitetinin fəlsəfə kafedrasında çalışıb.

Onun bioqrafiyası xeyli maraqlıdır. Çox nadir hallarda ali məktəb müəllimi universiteti tərk edib məktəbə yollanır. Lakin o, uzun müddət məktəbə getməyə qərar verə bilməyib. Ona "bu, kişi işi deyil" deyiblər. Lakin universitetdə tələbələrlə işlədiyi müddətdə Alixan qəbul edib ki, uşaqları oxumağa başlamağı öyrətmək lazımdır, bu məsələdə məktəbin pozitiv təsir gücü daha böyükdür. Buna görə də o, taleyini orta məktəbdə müəllimliklə bağlayıb. Alixan həyatının bu qeyri-adi dönüşünü belə izah edir: "Məktəbə gəldim və uşaqlarla işləmək mənim xoşuma gəldi". Gənc müəllim respublikanın ali məktəblərində, təhsil mərkəzlərində, orta məktəblərdə ustad-dərsləri və təlimlər keçirir, informasiya agentlikləri portallarında və profil pedaqoji nəşrlərdə dərc edilir. Onu da qeyd edək ki, Alixan gələn ilə qədər Rusiyanın maarif naziri Olqa Vasilyevanın ictimai müşaviri statusunu da qazanıb.

Daha nə dəyişdi? Bütün bu illər ərzində Rusiyanın ən ucqar rayonlarından olan uşaqlara ölkənin ən nüfuzlu ali məktəblərinə daxil olmağa imkan verən vahid dövlət imtahanları əsaslı şəkildə möhkəmləndi. Dövlət fəal şəkildə çoxsaylı kurslar, müəllimlərin milli inkişaf sistemi və s. vasitəsilə pedaqoqların ixtisasının artırılmasına başladı. Çeçen Respublikasında isə söhbət müxtəlif məşğuliyyət sahələrinin, demək olar ki, fasiləsiz konveyerindən gedir, ən yaxşı regional və federal mütəxəssislər tərəfindən müəllimlər üçün kurslar, seminarlar, konfranslar keçirilir.

Nəhayət, deyək ki, çox çətinliklə də olsa, məktəbdə təhsilin paradiqması dəyişir. Biliklər sürətlə köhnəlir və unudulur. Bu mətni oxuyan qeyri-riyaziyyatçılardan kimlər daha tez üç perpendikulyar haqqında teoremin adını çəkə bilər? Ancaq bəziləri. Və yaxud, Google-un köməyi olmadan kim Kosovo düzündə baş vermiş döyüşün tarixini xatırlayacaq? Hamı deyil. Buna görə də biz əsas diqqəti fənn bilikləri üzərində saxlamaqla uşaqlarda həm şəxsiyyət, həm də metafənlər üzrə nəticələri inkişaf etdirməyə, onlara gələcəkdə təhsil və istənilən sahədə lazım olacaq universal bacarıqları və münaqişələri həll etmək, qrupda işləmək, məlumatları axtarmaq və təhlil etmək, özünü qiymətləndirmək, hədəflər qoymaq və s. kimi səriştələri də formalaşdırmağa çalışırıq.

**- Sizcə, yaxşı müəllim kimdir? Müasir müəllim hansı keyfiyyətlərə malik olmalıdır?**

- Düşünürəm ki, ilk növbədə, bunu uşaqların özlərindən soruşmaq lazımdır. Çoxsaylı tədqiqatların nəticələrinə görə, şagirdlər deyirlər ki, müəllim materialı asan və aydın şəkildə izah etməyi bacarmalı, sinifdə müsbət ab-hava yaratmalı, xeyirxah və ağıllı, qiymətləndirmədə obyektiv olmalıdır. Əlbəttə ki, mən fənn səriştəsi barədə danışmıram, bunlar onsuz da olmalıdır.

Müasir müəllimlərə yeni texnologiyalara mükəmməl yiyələnmək, həssas, çevik olmaq çox vacibdir. Qrupda işləməyi bacarmayan, münaqişələrin öhdəsindən gələ bilməyən, yəni bizim dövrümüzdə çox zəruri olan qlobal şəriştələrə malik olmayan müəllimi 21-ci əsrin müəllimi kimi təsəvvür etmək çox çətindir. Psixologiyanın əsaslarını bilmək, fərdi yanaşmanı tətbiq etmək bacarığı, daim özünü inkişaf etdirmək və ixtisasını artırmağa cəhd etmək - bunlar da həmçinin müəllimin əsas keyfiyyətləridir.

## Qubada "Məktəblilərin debat klubu" adlı layihəyə start verilib

Təhsil Nazirliyinin "Təhsildə inkişaf və innovasiyalar üzrə 2-ci qrant müsabiqəsi"nin fərdi kateqoriya üzrə qalibi olan "Məktəblilərin debat klubu" adlı layihə çərçivəsində Quba rayonunun Hacıqayıb kənd tam orta məktəbində təlim keçirilib.

Təhsil şöbəsindən bildiriblər ki, tədbirdə çıxış edən layihə rəhbəri, Quba rayonu Qəçrəş kənd tam orta məktəbinin müəllimi Aygün Mövlanova layihə barədə məlumat verib. Bildirilib ki, məqsəd məktəblilərin natiqlik bacarıqlarının artırılması, fikiryürütmə, təhlil etmək, araşdırmaq, nəticə çıxarmaq kimi keyfiyyətlərinin yüksəldilməsinə xidmət etmək, onlarda oxumağa, təhsilə, elmə maraq oyatmaq və dünyagörüşlərinin, məntiqi təhliletmə bacarıqlarının inkişafına təkan verməkdir.

Daha sonra 15 nəfər yuxarı sinif şagirdinin iştirakı ilə "Natiqlik bacarıqları", "Debat, onun qaydaları", "Spikerlik", "Arqument", "İnkar və təsdiq" kimi anlayışlar haqqında 2 günlük təlim keçirilib.

Təlimin sonunda iştirakçılara sertifikatlar təqdim edilib. 3 ay müddətini əhatə edən və noyabr ayında yekunlaşacaq layihə çərçivəsində Quba rayonunun daha 2 kənd məktəbində - Ağbil və Qəçrəş məktəblərində müvafiq mövzularda təlimlər keçiriləcək. Sonda Quba rayonunda məktəblilər arasında ilk mini-debat turniri təşkil ediləcək. Ümumilikdə, layihədən kənd məktəblərində yaşayan və təhsil alan 45 nəfər yuxarı sinif şagirdi bəhrələnəcək.




# "Xoşbəxtəm ki, şagirdlərim məni "Müəllim" deyə çağırırlar"

## Mətanət İsmayılova: "Kəndi seçdim və seçimimdən də çox razıyam"



**Mahal MƏMMƏDOV,**
*Şəki Şəhər Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

Mətanət İsmayılova 1994-cü ildə Balakən rayonu Tülü kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra 2012-ci ildə Bakı Qızlar Universitetinin coğrafiya fakültəsinə daxil olub. 2016-cı ildə universitet təhsilini başa vurduqdan sonra Təhsil Nazirliyi tərəfindən ümumi təhsil müəssisələrinə müəllimlərin işə qəbulu üzrə mərkəzləşdirilmiş qaydada keçirilən müsabiqədə 56 bal toplayaraq Şəkinin Şin kənd tam orta məktəbinə coğrafiya müəllimi təyin olunub.

**- Mətanət xanım, belə bir ənənəvi sualımız var. Niyə müəllim olmağa qərar verdiniz?**

- Mən bu suala cavabıma ümummilli liderimiz Heydər Əliyevin müəllim haqqında dediyi bir fikri ilə başlamaq istəyirəm: "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram". Bu, müəllim peşəsinə verilən ən yüksək qiymətdir. Çünki cəmiyyətdə həkimi, polisi, hərbiçini, müəllimin özünü də yetişdirən müəllimdir. Bu ad çox böyük addır. Uşaqlıqdan bu peşəni sevmişəm. Xoşbəxtəm ki, şagirdlərim məni bu gün "Müəllim" deyə çağırırlar.

**-İlk dərs gününüz yaddaşınızda necə qalıb?**

-Məktəbdə təzə müəllim olduğumdan ilk dərsdə şagirdlərim mənə maraqla qulaq asdılar. VIII sinifdə mövzu vətənpərvərlik mövzusu idi. Burada Aprel döyüşləri haqqında şagirdlərə ətraflı məlumat verdim. Nəticədə, şagirdlərdə olan oxumaq həvəsi və coğrafiya fənninə olan maraq, məndə olan həyəcan hissini sevinc hissi ilə əvəz etdi.

Qeyd edim ki, bura gəldiyim ilk gündən nəinki məktəb direktoru, işlədiyim pedaqoji kollektiv mənə hər cür qayğı ilə yanaşıblar. Şadam ki, belə bir kollektivdə çalışıram...

**-Bəs, necə oldu yaşadığınız rayondan xeyli uzaq bir rayonda işləməyi seçdiniz?**

-Doğrusu, valideynlərim uzaq yerdə işləməyimi istəmirdilər, amma təkidim və istəyimi gördükdən sonra mənimlə razılaşaraq mənə dəstək oldular. Məsafə uzaqlığı məndəki müəllim olmaq istəyimə heç cür təsir edə bilmədi. Kəndi seçdim və seçimimdən də çox razıyam.

**-Gələcəkdə Coğrafiya dərsliyini yazsaydınız, hansı mövzulara daha çox üstünlük verərdiniz?**

-Dərslik yazmaq dəqiqlik və çox məsuliyyət tələb edən bir işdir. Çünki onun oxucusu şagirdlərdir.

Mən Azərbaycan coğrafiyası dərsliyində müasir dövrümüzdə şagirdləri daha çox maraqlandıran mövzulara geniş yer verərdim. O cümlədən, "Ətraf mühitin mühafizəsi", "Azərbaycanın təbii sərvətlərinin öyrənilməsi, onların iqtisadi inkişafa təsiri", "Azərbaycanın turizm-rekreasiya ehtiyatları" və s.

**-İndiki vaxtda "Yaxşı müəllim" ifadəsini tez-tez eşidirik. "Yaxşı müəllim nə deməkdir" sualına münasibətiniz necədir?**

- V.A.Suxomlinskinin fikrinə istinad edərək belə cavab verərdim: "Müəllim ilk növbədə, uşaqları sevən insandır, onlarla ünsiyyətdən sevinc tapır, inanır ki, hər bir uşaq yaxşı insan ola bilər, uşaqlarla dostluq etməyi bacarır, uşaqların sevincini və kədərini ürəyinə sala bilir, uşağın qəlbini oxuyur və heç vaxt unutmur ki, özü də vaxtilə uşaq olub".

**-Tələbəlik illərində xəyallarınızdakı iş yerləri hansılar olub?**

- Bu dövrdə mən nə üçün çalışdığımı, nəyin uğrunda mübarizə apardığımı artıq bilirdim. Uşaqlıqdan arzusunda olduğum müəllimlik üçün çalışırdım. Çalışırdım ki, gələcəkdə mənə veriləcək "Müəllim" adına layiq olum. Belə də oldu.

**-Müəllim olmaq istəyən şəxslərə nə tövsiyə edərdiniz?**

-Bəli, onlar unutmamalıdırlar ki, dünyada ən çox sevdikləri insanlar arasında müəllim də vardır. Bunda böyük bir məntiq var. Bu peşənin müqəddəsliyini və məsuliyyətini dərindən dərk etməlidirlər. Çünki hər bir şəxsin həyatda formalaşmasında, tərbiyələnməsində müəllimin əməyi, zəhməti çox böyükdür, əvəzsizdir.

## Sumqayıt məktəblisi XII Azərbaycan Beynəlxalq Təhsil Sərgisində

Bakı Ekspo Mərkəzində 12-ci Azərbaycan Beynəlxalq Təhsil Sərgisinin açılış mərasimi keçirilib. "Uşaqların gələcəyinə sərmayə" devizi altında təşkil edilən sərgidə dünyanın 12 ölkəsindən 130-dan çox iştirakçı bir araya gəlib.

Sumqayıt Şəhər Təhsil Şöbəsindən aldığımız məlumata görə, şəhər 3 nömrəli tam orta məktəbin 6-cı sinif şagirdi Sənəm Çəndirli Təhsil Sərgisində polyup layihəsini təqdim edib. Layihənin şagirdlərin riyazi və məntiqi təfəkkürünün inkişafına müsbət təsir göstərəcəyini vurğulayan Sənəm Çəndirli polyup qurğusunda riyazi oyun nümayiş etdirib.

## "Dilimiz sərvətimizdir" adlı bilik yarışması

Şabran rayon Taxtalar kənd ümumi orta məktəbində "Dilimiz sərvətimizdir" adlı bilik yarışması keçirilib.

Yarışmada məktəbin 5-9-cu sinif şagirdləri iştirak ediblər. "Türk ocağı", "Şabran", "Qurtuluş", "İstiqlal" komandalarının mübarizə apardığı yarışmada Azərbaycan dili biliklərinin yoxlanılması məqsədilə şagirdlərə müxtəlif mövzularda suallar təqdim edilib.

Yarışın sonunda qalib komandanı təbrik edən məktəbin direktoru M. Əmrullayeva şagirdləri ana dilimizi mükəmməl öyrənməyə və dilimizin təmizliyinin keşiyində dayanmağa çağırıb.

**Gülər HÜSEYNOVA,**
Şabran Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi

## İlkin tibbi yardım üzrə "açıq dərs"

Şəmkir Rayon Təhsil Şöbəsinin təşkilatçılığı, "Böyük Yol" gənclər ictimai birliyinin dəstəyi ilə Şəmkir Gənclər Mərkəzində orta məktəb şagirdləri üçün ilkin tibbi yardım üzrə "açıq dərs" keçirilib.

Məktəblilər arasında tibbi maarifləndirmə işini gücləndirmək məqsədi daşıyan bu layihənin silsilə şəklində davam etdirilməsi və dərslərə Şəmkirin bütün məktəblilərinin cəlb olunması nəzərdə tutulub.

Otuza yaxın məktəblinin iştirak etdiyi və bir saatdan artıq davam edən ilk məşğələ zamanı şagirdlərə sağlamlığın qorunması üçün görülməli olan mühüm profilaktik tədbirlər, mümkün təbii fəlakətlər, fövqəladə hadisələr zamanı təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi, məişətdə ilkin ixtisaslı tibbi yardımın göstərilməsi, tibbi preparatlar və onlardan istifadə qaydaları və s. haqqında geniş məlumat verilib.

Bundan əlavə, ilkin tibbi yardımın göstərilməsi, qan təzyiqinin ölçülməsi, nəfəs tutulmalarının qarşısının alınması kimi hallarla bağlı əyani məşqlər aparılaraq, tibbi yardım üsullarının daha yaxşı yadda qalması üçün müxtəlif kiçik səhnəciklər nümayiş etdirilib.

"Açıq dərs"in ardından məktəblilər mərkəzdə fəaliyyət göstərən rəsm qalereyası ilə tanış olublar.

**Kənan İBRAHİMOV,**
Şəmkir Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi

# "Dilimizi sevək, sevdirək!"

Zaqatala Rayon Təhsil Şöbəsinin tabeliyində fəaliyyət göstərən tədrisi rus və gürcü dillərində olan məktəblərin Azərbaycan dili müəllimləri üçün "Dilimizi sevək, sevdirək!" şüarı altında təlimlər keçirilib.

Təhsil şöbəsindən aldığımız məlumata görə, təlimlərin keçirilməsində məqsəd Azərbaycan dili fənnini tədris edən müəllimlərin bilik və səriştələrinin sınaq qiymətləndirilməsində ixtisas biliyi ilə yanaşı, yazı işlərinin təşkili ilə bağlı təkmilləşməyə, ixtisasartırma təlim kurslarına ehtiyacın olmasıdır.

36 akademik saatda keçirilən təlimlərdə Zaqatala rayonunda tədrisi qeyri-Azərbaycan dilində olan məktəblərin ibtidai və ümumi orta təhsil pillələrində Azərbaycan dili müəllimlərinin yazı işlərinin tədrisi üzrə akademik biliklərinin və metodik bacarıqlarının artırılmasına nail olunub.



Məlumat üçün qeyd edək ki, təlimlər 25 Azərbaycan dili müəlliminə Əlavə Təhsil Mərkəzinin təyin etdiyi təlimçilər tərəfindən keçirilib.

## 80 şagird yerlik modul tipli yeni tədris ocağı istifadəyə verilib

Ağsu rayonunun daha bir yaşayış məntəqəsində - Göydəlləkli kəndində ümumi orta məktəb üçün 80 şagird yerlik modul tipli yeni tədris ocağı istifadəyə verilib.

Təhsil şöbəsindən aldığımız məlumata görə, kənd sakinlərinin, müəllim və şagirdlərin iştirakı ilə məktəb binasının açılış mərasimi keçirilib.

Mərasimdə Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın təhsilin inkişafına göstərdikləri diqqət və qayğıdan danışılıb. Vurğulanıb ki, son 15 ildə təkcə Ağsuda ümumtəhsil məktəbləri və məktəbdənkənar müəssisələr üçün 28 yeni bina istifadəyə verilib.

Rayon təhsil şöbəsinin müdiri Səftər Ələbbasov, məktəbin direktoru Heydər Abdullayev, kənd sakini Təşkilat Ağaverdiyev və başqaları çıxış edərək məktəb binasının inşasına görə ölkə başçısına minnətdarlıqlarını bildiriblər.

Sonda şagirdlərin ifasında mahnı və şeir səsləndirilib.

**Səhifəni hazırladı: Şakir CƏFƏROV**

## Azərbaycan Xalq Cümhuriyyəti – 100

# Yüz ümid, yüz işıq...

## Parlament 100 nəfər azərbaycanlı gənci xaricə oxumağa göndərmək üçün qanun qəbul etdi

**Artıq bizim üçün uzaq keçmiş olan o illərdə -Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu illərdə qəlblərində min bir arzu, dilək Vətəndən kənarda təhsil almağa göndərilənlərin həyatdan gözlədikləri çox idi. Təkcə özlərinin deyil, onlara inam və etibar edib xaricə oxumağa göndərən Azərbaycan dövlətinin də. Cəmiyyətin düşməni cəhalət, cəhalətin düşməni isə təhsildir. Azərbaycan Xalq Cümhuriyyəti qurucuları da xalqı cəhalətdən qurtarmağın yolunu təhsildə görürdülər. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti inanırdı ki, onların böyük arzu ilə təhsil almağa göndərdikləri gənclər geri qayıtdıqdan sonra Azərbaycan üçün böyük işlər görə biləcəklər. Lakin nə biləydilər ki, cəmi 23 ay yaşayacaq bir respublikanın böyük ümidlər gözlədiyi bu gənclərin bir çoxlarının (əslində elə hamısının) taleyi məşəqqətə çevriləcək...**



**Mətanət KƏRİMOVA,**
*Oğuz şəhər 3 nömrəli məktəb-liseyin tarix müəllimi*

Bu gənclərin böyük əksəriyyətinin sonrakı taleyi haqqında heç bir məlumat yoxdur. Bəziləri isə Azərbaycanda baş verən hadisələrə görə geri qayıtmamış, oxuduqları ölkədə evlənərək orada qalmışlar...

23 ay yaşayan müstəqil Azərbaycan dövlətinin qurucuları inanırdılar ki, gənc dövlətin möhkəmlənməsi üçün ixtisaslı kadrlara böyük ehtiyac olacaq. Ona görə də fəaliyyəti dövründə elm və təhsilə, milli kadrlar hazırlanmasına böyük diqqət yetirirdi. Azərbaycan Parlamentinin 1919-cu il sentyabrın 1-də keçirilən iclasında Bakı Dövlət Universitetinin yaranması və hökumətin təklifinə əsasən 100 nəfər azərbaycanlı gəncin dövlət hesabına təhsil almaq üçün xarici ölkələrə göndərilməsi barədə qanun qəbul edilməsi belə diqqətin nəticəsi idi. Bu işə nəzarət etmək üçün M.Ə.Rəsulzadənin rəhbərliyi ilə beş nəfərlik dövlət komissiyası yaradıldı. Qısa vaxtda komissiya 45 nəfərin Fransada, 23 nəfərin İtaliyada, 10 nəfərin İngiltərədə, 9 nəfərin Osmanlıda, 13 nəfərin isə Rusiyada təhsil almağa göndərilmələri üçün qərar qəbul etdi.

Hökumət hesab edirdi ki, ölkə iqtisadiyyatının, elm, təhsil və mədəniyyətinin gələcək inkişafı üçün tələbələrin xarici ölkələrdə ali təhsil almağa göndərilməsinin əhəmiyyəti böyükdür. Çünki bu göndərilənlərin hər biri bir ümid, bir çıraq olacaqdı, oxuyub, təhsil alıb Azərbaycana qayıdıb yeni qurulmuş müstəqil dövlətin öz dayaqları üzərində möhkəm dayanmasına yardımçı olacaqdılar. Bu iş üçün dövlət xəzinəsindən Xalq Maarif Nazirliyinin sərəncamına 7 milyon manat vəsait ayrılmışdı. Avropa ali məktəblərinə göndərilən hər tələbəyə ayda 400 frank təqaüd və 1000 frank yol xərci, Rusiya ali məktəblərinə göndəriləcək tələbələrə isə hər ay 3 min rubl təqaüd və 1000 manat yol xərci ayrılmalı idi. Xalq Maarif Nazirliyi tərəfindən xaricə göndərilən tələbələrdən 49 nəfərinə Almaniyanın, 27 nəfərinə Fransanın, 4 nəfərinə İtaliyanın, 1 nəfərinə İngiltərənin, 6 nəfərinə isə Türkiyənin müxtəlif ali məktəblərinə göndərilmələri barədə rəsmi sənəd verildi. Qalan 13 nəfər isə Rusiyaya göndərilməli idi. Rusiyada vətəndaş müharibəsi ilə əlaqədar yaranmış şəraitə görə oraya tələbə göndərmək mümkün olmadı.

Onlar 1920-ci il yanvarın 14-də parlament və hökumət üzvlərinin, tanınmış xeyriyyəçilərin, iş adamlarının, din xadimlərinin, ictimaiyyət nümayəndələrinin və valideynlərin iştirakı ilə təntənəli surətdə yola salındılar.

Xaricə göndərilən tələbələrin maddi təminatını böyük mesenant, Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyev öz üzərinə götürmüşdü. Və onun öz şərtləri var idi:

1. Hər tələbəyə təhsil müddəti ərzində ayda 50 manat veriləcəkdir. Yay tətillərində Qafqaza gəliş-gediş xərcləri də ayrıca ödəniləcəkdir.

2. Tələbə ali təhsilini bitirdikdən sonra mütləq Vətəninə dönərək öz ölkəsinə xidmət edəcəkdir.

3. Tələbə qeyri-türklə və ya qeyri-müsəlmanla evlənməyəcəkdir.

4. Tələbə təhsilini bitirib həyata atıldıqdan sonra təhsil müddəti ərzində Hacı Zeynalabdindən aldığı pulları birdəfəlik və ya hissə-hissə Xeyriyyə Cəmiyyətinə ödəyəcəkdir.

Sonradan üçüncü bənd ixtisar olunur. Bəlkə elə buna görədir ki, bu gənclərin bəziləri (Mustafa Mustafayev Fransada, Hilal Münşüzadə Berlində) qeyri-müsəlmanla ailə qurub, geri dönməyib.

Lakin gənc demokratik respublikanın böyük ümidlərlə xaricdə təhsil almağa göndərdiyi tələbələrin taleyi aprel işğalından sonra çox acınacaqlı oldu. Bolşeviklər tələbələrə pul göndərmədi. Doğrudur, Nəriman Nərimanovun böyük səyləri ilə həmin tələbələrin maddi vəsaitlə təmin olunması məsələsi bir müddət öz həllini tapdı. Bu məqamda maraqlı bir fakt: 100 nəfərdən biri olan və Paris Universitetində hüquq təhsili alan Rəşid Topçubaşov (Əlimərdan bəy Topçubaşovun oğlu) Cümhuriyyətin süqutundan sonra Azərbaycanda qurulan Sovet hökumətinin təqaüdündən imtina etmişdir.

**Xalq Maarif Nazirliyi tərəfindən xaricə göndərilən tələbələrdən 49 nəfərinə Almaniyanın, 27 nəfərinə Fransanın, 4 nəfərinə İtaliyanın, 1 nəfərinə İngiltərənin, 6 nəfərinə isə Türkiyənin müxtəlif ali məktəblərinə göndərilmələri barədə rəsmi sənəd verildi. Qalan 13 nəfər isə Rusiyaya göndərilməli idi. Rusiyada vətəndaş müharibəsi ilə əlaqədar yaranmış şəraitə görə oraya tələbə göndərmək mümkün olmadı.**

N.Nərimanov Moskvaya rəhbər vəzifəyə aparıldıqdan sonra Azərbaycanda xaricdə təhsil alan tələbələr barədə fikirlər dəyişməyə başladı. Bir çoxu nəinki təhsil haqqını ödəyə bilmək, hətta yaşamaq üçün mücadilə aparmalı oldu. Onlar yad ölkələrdə ən ağır sahələrdə işləmək məcburiyyətində qaldılar. Bəziləri həbsxanalara atıldılar. Çıxış yolu tapa bilməyib intihar edənlər belə oldu. Çətinliklərlə təhsilini başa vurub yüksək ixtisaslı mütəxəssis kimi Vətənə dönən tələbələrin bəziləri Sibirə sürgün edildi, bəziləri bolşevik terrorunun qurbanı oldu. Cəmi 23 ay yaşayan Azərbaycan Xalq Cümhuriyyəti kimi onların da arzuları, ümidləri yarıda qaldı. Nə onları oxumağa göndərən dövlət, nə də özləri bu arzularının gerçəkləşməsini istədikləri kimi görə bilmədilər.

Bu 100 nəfər Azərbaycanın müxtəlif guşələrindən idilər. Şuşadan, Gəncədən, Qazaxdan, Ağdaşdan, Tiflisdən... 100 nəfərdən biri isə əslən oğuzlu idi.

O, 1896-cı ildə Şəki qəzasının Xaçmaz mahalında (indiki Oğuz rayonunun Xaçmaz kəndində) doğulmuşdur. Abdulla Tahirzadə ilk təhsilini Ağdaşda, orta təhsilini İstanbulda xeyriyyə məktəbində almışdır. Parlamentin 1919-cu il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini davam etdirmək üçün İstanbul Universitetinə (Türkiyə) göndərilmişdir. İstanbulda həm Ali İqtisad Məktəbində, həm də İstanbul Universitetinin riyaziyyat fakültəsində oxumuşdur. 1923-cü ildə vətənə qayıtmışdır. Azərbaycanın orta ixtisas və ali məktəblərində müəllim işləmişdir. Lakin Azərbaycandakı repressiyalar ondan da yan keçməmişdir. 1949-cu ilin mayında Xüsusi Müşavirənin qərarı ilə yalançı ittihamlarla həbs edilərək Orta Asiyaya sürgünə göndərilir. Bu məşəqqət ailəsindən də yan keçmir. Həyat yoldaşı və qızı “xalq düşməninin ailə üzvü” kimi Rusiyanın şimalına - Tomsk vilayətinə sürgün edilirlər. 5 il sürgün həyatı yaşayan A.Tahirzadə 1953-cü ildə azad edilir, 2 il Canbulda (Qazaxıstan) müəllim işləyir. 1953-cü ildə həyat yoldaşı və qızı əfv edilir və bir il sonra onlara A.Tahirzadənin yanına Cambul şəhərinə gəlməyə icazə verilir. Yalnız 1955-ci ildə o, bəraət alır. Ailə Bakıya qayıdır. Həmin ildən Azərbaycan Neft-Kimya İnstitutunda dərs deməyə başlayır. 1978-ci ildə Bakı şəhərində vəfat edir. Özü ilə bərabər onun ailə üzvləri də bir çox çətinliklərlə üzləşirlər.

Qızı Nərmin Tahirzadə 1921-ci ildə İstanbulda anadan olub. O, anası ilə birgə 3 yaşı olanda atasından bir il sonra, 1924-cü ildə Bakıya qayıdıb. 1939-cu ildə BDU-nun tarix fakültəsini bitirib. 1944-cü ildən unuversitetdə müəllim işləməyə başlayıb.

İrəlidə qeyd etdiyimiz kimi, Nərmin xanım və anası “xalq düşməninin ailə üzvü” kimi Rusiyanın şimalına - Tomsk vilayətinə sürgün edilir. Burada onlar sürgün həyatını bütün ağrı-acıları ilə yaşayırlar. Yalnız 1953-cü ildə atası azad edildikdən sonra Nərmin xanım və anası da əfv olunur. N.Tahirzadə 1955-ci ildə Bakıya qayıdır və Azərbaycan EA Azərbaycan Tarixi Muzeyinə işə girir. 1956-cı ildə “XVIII əsrin sonunda Rusiyada təhkimli kəndlilər hərəkatının tarixindən” mövzusunda namizədlik dissertasiyası müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi alır. 1961-ci ildən 1987-ci ilədək muzeydə şöbə müdiri işləyir. N.Tahirzadəyə 1973-cü ildə “Əməkdar mədəniyyət işçisi” fəxri adı verilir. O, XIX əsr - XX əsrin başlanğıcında Azərbaycanda xalq təhsilinin tarixi mövzusunda gərgin araşdırmalar aparıb. XIX yüzildən üzübəri, təxminən, yüz illik dönəmdə Azərbaycanda yetişmiş, ancaq adları unudulmuş ziyalıların və mədəniyyət xadimlərinin bir çoxu haqqında ilk dəfə bilgi verən 50-dən artıq sanballı elmi məqalə dərc etdirib. Nərmin xanım XIX yüzildən 1920-ci ilədək Azərbaycandan gedərək Rusiya imperiyasının ali məktəblərində oxumuş yüzədək hərbçi, mühəndis, həkim, hüquqşünas və sair ali təhsilli mütəxəssisimiz haqqında olduqca zəngin material toplayaraq Azərbaycana gətirib.

Nərmin Tahirzadə uzun sürən xəstəlikdən sonra 17 yanvar 2012-ci ildə vəfat edib.

Budur, adamlar və talelər. Budur qısa ömrün anları. Budur ümidlər. Bəzən çox çətinliklərlə də olsa ümidlər doğrulur. A.Tahirzadə də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin böyük ümidlərindən biri idi. Böyük ümidlə, Azərbaycanın sabahı üçün göndərilmişdi Türkiyəyə təhsil almağa. Bu ümidlər A.Tahirzadənin Azərbaycan təhsilinə, qızının isə Azərbaycan elminə verdikləri zəhmətlə doğruldu.



## Dövlət Müstəqilliyi Gününə həsr olunmuş yaradıcılıq sərgisi

**18 oktyabr-Azərbaycanın Dövlət Müstəqilliyi Günü ilə əlaqədar yaradıcılıq sərgisi keçirilib. Paytaxt məktəbliləri və müəllimlərin əl işlərindən ibarət olan “Zirvələrə doğru” adlı sərgidə Nəsimi Rayon İcra Hakimiyyətinin, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin və Azərbaycan Rəssamlar İttifaqının nümayəndələri, Xətai Sənət Mərkəzinin direktoru, BŞTİ-nin tabeliyindəki 5 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin rəhbərliyi, müəllimlər və şagirdlər iştirak ediblər.**

Xətai Sənət Mərkəzində təşkil olunan tədbiri 5 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin direktoru Könül Mustafayeva giriş nitqi ilə açıq elan edib. Çıxışı zamanı direktor Azərbaycan tarixinin ən mühüm günlərindən biri sayılan Dövlət Müstəqilliyi Günü münasibəti ilə tədbir iştirakçılarını təbrik edib, müstəqilliyinin bərpasından sonra Azərbaycanın keçdiyi inkişaf yolundan, qazandığı uğurlardan danışıb.

Çıxış edənlər o dövrün tarixi-siyasi şəraitinə nəzər salaraq, xalqımızın milli istiqlal uğrunda apardığı mübarizələrdən danışıb və XX yüzilliyin xalqımızın yaddaşında dövlətçilik, müstəqillik, ərazi bütövlüyü uğrunda mübarizə əsri kimi qaldığını bildiriblər. Qeyd olunub ki, “Azərbaycanın dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktının qəbul edildiyi 1991-ci ilin 18 oktyabr günü xalqımızın tarixinə şərəfli və əlamətdar səhifə kimi yazılıb. Qısa müddətdə ölkədə ictimai-siyasi sabitlik bərqərar olduğu və bütün sahələrdə uğurlu islahatların həyata keçirilməsinə zəmin yaradıldığı barədə danışılıb. Ümummilli liderin Azərbaycanın zəngin, qüdrətli ölkəyə çevrilməsinə yönəlmiş müdrik siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən yeni müstəvidə uğurla davam etdirildiyi diqqətə çatdırılıb.

Daha sonra sərgiyə baxış keçirilib, Rəssamlar İttifaqı tərəfindən müəllim və şagirdlərə diplom və sertifikatlar təqdim olunub.

Sərgi 5 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzi şagirdlərinin musiqi və rəqs nömrələri ilə davam etdirilib.

Qeyd edək ki, sərgidə 30 əl işi və 90 rəsm nümayiş olunub.

## Məktəblilərə Cümhuriyyət dövründə təhsil islahatlarından danışılıb

**Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun təşkilatçılığı ilə Qaradağ rayonu Lökbatan qəsəbəsindəki 288 nömrəli tam orta məktəbdə “Cümhuriyyət dövründə təhsil” mövzusunda tədbir keçirilib. Tədbirdə məktəbin müəllim və şagird kollektivi iştirak edib.**

Bilik Fondundan AZƏRTAC-a bildirilib ki, məktəbin direktor müavini Jalə Qədirli bu qurumla əməkdaşlığın məktəblilərin hərtərəfli inkişafına faydalı təsirindən bəhs edib, maarifləndirici layihələrin səmərəli nəticələr verdiyini deyib.

İnformasiya təminatı sektorunun aparıcı məsləhətçisi Ramilə Qurbanlı Cümhuriyyət tariximizdən, həmin dövrdə aparılmış təhsil islahatlarından danışıb. Mövzu ətrafında fikir mübadiləsindən sonra şagirdlərin hazırladıqları kompozisiya təqdim edilib.

ARB “Aranfilm” Yaradıcılıq Mərkəzinin istehsalı olan “Cümhuriyyət tələbələri” sənədli filmi məktəblilərin böyük marağına səbəb olub.

## Təqaüd proqramının qalibləri müəyyən edilib

**“AzerGold” QSC Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibəti ilə elan olunan təqaüd proqramının qaliblərini müəyyən edib. AZƏRTAC xəbər ki, tarixçi alimlər Firdovsiyyə Əhmədova və Anar Vəliyev, həmçinin “AzerGold” QSC nəzdində fəaliyyət göstərən Korporativ Sosial Məsuliyyət Komitəsinin sədri Sadiqə Mehdiyevadan ibarət münsiflər heyəti müsabiqə iştirakçılarını AXC tarixi üzrə az araşdırılmış mövzu, akademik tələblərə uyğun tərtib edilmiş iş planı və ədəbiyyat siyahısı kimi meyarlar əsasında qiymətləndirib.**

Qiymətləndirmə nəticəsində irəli sürülən müraciətlər içərisində AXC-də pul və qiymətli kağızlar siyasəti, AXC dövründə sənaye, aqrar məsələlərə dair bolşevik mətbuatında əks-təbliğat və Azərbaycan parlamentarizminin xüsusiyyətləri kimi mövzular səs çoxluğu ilə qalib seçilib.

“AzerGold” QSC-nin rəhbər şəxsləri ilə qaliblər arasında cəmiyyətin inzibati binasında görüş keçirilib. Görüş çərçivəsində “AzerGold” QSC-nin İdarə Heyətinin üzvü, sədrin müavini Oqtay Məmmədov təqaüd proqramının AXC-nin tarixinin daha da dərindən araşdırılmasına və tarixi tədqiqatların təşviqinə önəmli töhfə verəcəyini bildirib. Qaliblər müsabiqənin keçirilməsinin əhəmiyyətini yüksək qiymətləndirərək, “AzerGold” QSC-yə tarixi araşdırmaların aparılması üçün yaradılan şəraitə görə minnətdarlıqlarını bildiriblər. Daha sonra təqaüd proqramının qalibləri ilə müvafiq müqavilələr imzalanıb. Müqavilənin şərtlərinə əsasən, tədqiqatçılar araşdırmalarını müəyyən edilmiş müddət ərzində tamamlayaraq “AzerGold” QSC-yə təqdim edəcəklər. Bu tədqiqatların müxtəlif mətbuat orqanlarında dərc edilməsinə dəstəyin göstərilməsi də nəzərdə tutulub.

Qeyd edək ki, bu ilin may ayında Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının 100 illiyi münasibəti ilə elan olunan təqaüd proqramı respublikaçılıq ənənələrinin araşdırılmasına və təbliğinə dəstəklə yanaşı, milli tarix üzrə ixtisaslaşmış gənc tədqiqatçıların formalaşmasına və peşəkar inkişafına töhfə vermək məqsədlərini daşıyır.

# İlahi missiya

## Müəllim - ən uca ad, ən şərəfli peşə

**Cəmiyyətin inkişafının bütün mərhələlərində məktəb məbədgah, ziya, işıq, nur paylayan müqəddəs yer, müəllimlər isə bu missiyanın daşıyıcıları olublar. Bu, ilahi bir missiyadır. Tərbiyəçinin, müəllimin əməyi Allahın xəlq etmə dühasının davamıdır. Məşhur ərəb alimi İbn-Əl-Müqəffə yazırdı ki, hava və qidadan sonra vücudunuzun ən çox ehtiyac duyduğu üçüncü şey təhsil-tərbiyədir. O, əqlimizin ilkin özəyidir. İnsanın kamilləşməsi, əqlinin, ruhunun və cisminin bərabər səviyyədə inkişafı onun aldığı təhsil-tərbiyədən və bu prosesi düzgün diaqnozlaşdıran, proqnozlaşdıran, layihələşdirən və həyata keçirən müəllimlərdən asılıdır.**

Müəllimlər hər bir insanın yaşına, gücünə, fərdi və psixoloji xüsusiyyətlərinə, fiziki sağlamlığına, qabiliyyətinə uyğun olaraq onların şüuruna, hisslərinə və davranışına təsir göstərir. İnsan da bu tərbiyəvi təsir vasitəsi ilə dəyişir, kamilləşir, onda əqli, əxlaqi, etik, estetik, fiziki mədəniyyət formalaşır. Bu kimi yüksək əxlaqi keyfiyyətləri isə müəllim aşılayır. Müəllim təhsil-tərbiyəsi ilə məşğul olduğu insanın qəlbinə elə bir işıq salır ki, o, haqqı nahaqdan, yaxşını pisdən ayıra bilər.

### Ata bədənin, müəllim ruhun tərbiyəçisidir

Müəllim şagirdlərinə (tələbələrinə) gizlədilməsi mümkün olmayan gözəllik, yəni bilik öyrədir, həyat üçün zəruri olan bacarıq və vərdişlər aşılayır. Ona görə də müəllimin bütün zamanlarda məqamı və sosial statusu hətta valideynlərdən də yüksək olub. Ruh bədəndən üstün olduğu kimi, müəllim də atadan üstündür, çünki ata bədənin, müəllim isə ruhun tərbiyəçisidir. Valideynlər bizə həyat, müəllimlər isə layiqli həyat bəxş edirlər. Ona görə də qədim yunan filosofu Platon deyirdi: “Mən müəllimi atamdan çox istəyirəm, çünki atam məni göylərdən yerə endiribsə, müəllimim məni yerdən göyə qaldırıb”. Mustafa Kamal Atatürk deyirdi ki, mən fiziki cəhətdən mövcud olduğuma görə Rza Əli Əfəndiyə borcluyamsa, mənəvi cəhətdən mövcudluğuma görə Ziya Göyalpa borcluyam. Məhəmməd Peyğəmbər hədislərin birində buyururdu ki, cənnət bağçalarından keçəndə ayaq saxlayın. Əshabələri ondan soruşdu: “Ya Peyğəmbər, nəyi nəzərdə tutursunuz?” O, isə cavabında belə dedi: “Əgər cənnətdən min gülün, çiçəyin ətri gəlirsə, müəllim məclislərindən də ədəb, əxlaq, mərifət, fəzilət ətri gəlir”. Peyğəmbər biliyi bilməyənlər arasında yayanları, yəni müəllimləri, çox yüksək dəyərləndirirdi. Bilikli adamın üzünə baxmağı, onunla oturub-durmağı ibadət sayırdı. O, deyirdi: “Kimdən bilik öyrənirsinizsə, ona hörmət edin, onunla mehriban olun. Kimə bilik öyrədirsinizsə, ona qarşı da mehriban olun. Müsəlmanlardan ən yaxşısı odur ki, öyrənsin və öyrətsin”. Döyüş zamanı əsir götürülən döyüşçü əgər 10 nəfər uşağa oxumağı və yazmağı öyrədərdisə, bu fidya hesab olunurdu. Peyğəmbər deyirdi ki, Allah-təala mənim təhsilimi mükəmməl qıldı, mən bir müəllim olaraq göndərildim. O, biliyə yiyələnməyi Allah yolunda oruc tutmaqdan da, namaz qılmaqdan da, Həccə getməkdən də, ulu Tanrı yolunda cihada qoşulmaqdan da üstün hesab edirdi. O, deyirdi: “Elm çöldə dostumuz, tənhalıqda munisimiz, köməksizlikdə yoldaşımız, xoşbəxtliyə tərəf yol göstərənimiz, dostlar arasında zinətimiz, düşmənlər arasında silahımızdır”. Oruc, namaz və zəkat kimi ibadətlər bəzi hallarda vacib, bəzi hallarda qeyri-vacib sayılır. Bilik, elm öyrənmək isə bütün hallarda vacibdir. Həzrət Əli deyirdi ki, mənə bir hərf öyrədənin quluyam. İbn Xəldun deyirdi ki, hər öyrədən müəllim deyil, kimdən öyrənirsənsə müəllim odur. İmam Şafeinin fikirləri də maraqlıdır. O, deyirdi: “Mənə ədəb-ərkandan bir kəlmə öyrədənin köləsi olaram”. Görkəmli Azərbaycan maarifçisi S.M.Qənizadə isə müəllimliyi dünyanın ən şərəfli peşələrindən biri və birincisi hesab edərək yazırdı: “Bağ bağbansız keçinə bilmədiyi kimi, bəşəriyyət də müəllimsiz yaşaya bilməz”.

### İnsanlığı aydınlığa çıxaran işıq

Müdriklər müəllimi insanlığı aydınlığa çıxaran işığa bənzədirlər. İnsan deyəndə ilk növbədə onun əxlaqı nəzərdə tutulur. Əxlaqdan kənarda insan yoxdur. Mədəniyyətin məhək daşını əxlaq və cəfakeşlik təşkil edir. Əxlaq və qəbahət tərəzinin müxtəlif gözlərində yerləşir. Əxlaq köynəyini soyunan adam başqa heç bir köynək geyinə bilməz. O, məhvə məhkumdur. Millətlərin və dövlətlərin xilası yalnız və yalnız müəllimlərdən asılıdır. Əbəs yerə demirlər ki, millət məktəbdə doğulur, məktəbdə ölür. Ayrı-ayrı insanlar dünyaya gəldiklərinə görə valideynlərinə, millətlər isə məktəbə və müəllimə borcludur. Millət necə yaşayırsa, elə də oxuyur, necə oxuyursa elə də yaşayır. Müəllimin səhvi dənizdə gəmiyə bənzəyər. Həm özü məhv olar, həm də gəmidəkilər. Müəllim sağlam cəmiyyətin yaradıcısıdır. Dövlətin tərəqqisi məktəbdən, məktəbin tərəqqisi isə müəllimdən asılıdır. Sokrat vaxtı ilə deyirdi ki, yunanlını yunanlı edən onun yunanlı olaraq doğuluşu deyil, aldığı təhsil-tərbiyədir. Sokratın müəllimlik fəaliyyəti həm o dövrdə, həm də indi bir nümunədir. O, müəllimliyi öz həyatından qiymətli hesab edirdi. Sonralar tələbələrindən biri Sokrat haqqında yazırdı: “Mən ona qulaq asanda ürəyim sürətlə döyünür, nitqinin təsirindən gözlərimdən yaş süzülürdü. Başqalarının da eyni vəziyyətə düşdüyünü görürdüm”. Platon deyirdi ki, insanı tərbiyə etsək o, ən sakit və ilahi məxluq olar. Əgər onu tərbiyə etməsək və ya yanlış tərbiyə etsək o, kürreyi ərzin ən vəhşisi olar. Pinəçinin bir cüt ayaqqabını pis tikməsi bir afinalıya ziyan vurduğu halda, müəllimin pis işi, pis tərbiyəsi bütün Yunanıstana ziyan vura bilər.

Əl-Qəzzali müəllim əməyini yabanı alaq otlarını bir-bir qopararaq məhsuldar bitkilər yetişdirən əkinçiyə bənzədirdi. Böyük dövlət adamı Teymurləng də müəllimlərə çox yüksək dəyər verirdi. Belə nəql edirlər ki, bir gün onun vəziri Teymurləngin toplantısına gecikir. Şah onu süzərək deyir: “Cəzanı bilirsənmi?”. “Bilirəm”, - deyə vəzir cavab verir. Geçikməsinin səbəbini soruşanda o, qayıdır ki, mən yolnan gələndə müəllimim məndən öndə gedirdi. İstəmədim ki, müəllimimi keçəm, o arxada qalsın. Teymurləng gülümsəyərək deyir: “Mən də belə edərdim və vəsiyyət edir ki, mən öləndə məni müəllimimin ayaqları altında basdırasınız”. Azərbaycanda maarifçiliyin inkişafında böyük xidmətləri olan mesenat Hacı Zeynalabdin Tağıyev də öləndə Axund Əbu Turabın ayaqları altında basdırılmasını vəsiyyət etmişdi. O, Axund Əbu Turabi özünə müəllim hesab edirdi. Qədim yunan tarixçisi Plutax yazırdı ki, şəhərlərdə müharibənin ən çətin dövründə belə uşaqları məktəbdən ayırmazdılar. Ölüm ayağında olan filosof Anaksaqordan soruşanda kı, onun xatirəsini nə ilə yad etsinlər. O, demişdi ki, qoy, mən ölən günü məktəblilər məşğələ keçməsinlər. Bu fakta görə tarixdə qalmağı fikirləşirdi. Prussiya ilə müharibədə uduzan fransız generalına deyəndə ki, sizi prussiyalı generallar məğlub etdi, o, demişdi ki, xeyr, bizi Prussiyanın generalları deyil, ibtidai məktəbləri basdı. O vaxt Fransa əhalisinin böyük əksəriyyəti savadsız idi. Məhz müəllimlərin hesabına yunanlılar estetikada, romalılar hüquqda, israillilər və ərəblər dində, fransızlar ədəbiyyatda, ingilislər iqtisadiyyatda, almanlar musiqi və fəlsəfədə, türklər isə əxlaqda birincilik qazanıb.



**Fərrux RÜSTƏMOV,**
ADPU-nun İbtidai təhsil fakültəsinin dekanı, pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar elm xadimi

> **Belə nəql edirlər ki, bir gün onun vəziri Teymurləngin toplantısına gecikir. Şah onu süzərək deyir: “Cəzanı bilirsənmi?”. “Bilirəm”, - deyə vəzir cavab verir. Geçikməsinin səbəbini soruşanda o, qayıdır ki, mən yolnan gələndə müəllimim məndən öndə gedirdi. İstəmədim ki, müəllimimi keçəm, o arxada qalsın. Teymurləng gülümsəyərək deyir: “Mən də belə edərdim və vəsiyyət edir ki, mən öləndə məni müəllimimin ayaqları altında basdırasınız”.**

### İctimai fəaliyyətin xüsusi sahəsi kimi məktəbin yaranması

İctimai fəaliyyətin xüsusi sahəsi kimi məktəb və tərbiyənin tarixi b.e.ə. 5-ci minillikdə yaranan qədim Şərq mədəniyyəti dövrünə aid edilir.Tarixi inkişaf prosesində ibtidai icma quruluşu tədricən dağılmağa başladı. Dəyişməkdə olan ictimai quruluş böyüyən nəslin tərbiyəsinin yeni üsullarını irəli sürməklə yanaşı, köhnə tərbiyə formalarını da qoruyub saxladı. Ən qədim dövlətlərdə tərbiyə və təlim əsasən ailədə həyata keçirilirdi. İcma-qəbilə quruluşundan quldarlığa keçid dövründə qədim Şərq mədəniyyətində ailə tərbiyəsinin əvvəlki forması dəyişsə də, məzmun mühafizə edilərək qorunub saxlanılmışdı: övlad-valideyn münasibətləri uşaqların tərbiyəsində mühüm yer tuturdu. İctimai dövlət quruluşunun möhkəmləndirilməsi ilə eyni vaxtda məmurların, kahinlərin, hərbçilərin xüsusi hazırlığı məqsədilə yeni sosial institut-məktəb təşəkkül tapmağa başladı. Məktəb iqtisadi, sosial, mədəni, etnik, coğrafi və digər amillərin təsiri ilə inkişaf edirdi. Mütəşəkkil təlim-tərbiyə müəssisəsi olan məktəb icma-qəbilə quruluşundan sosial təbəqələrə ayrılmış yeni cəmiyyətin yaranmasının obyektiv nəticəsi idi.

Yeni ictimai münasibətlərin bərqərar olduğu bir dövrdə tərbiyə özünün yekcins xarakterini itirməyə, daha çox insanın ictimai və əmlak vəziyyəti ilə müəyyən edilməyə başladı, tədricən uşaqların maraq və tələbatlarının deyil, həyata hazırlığının stimuluna çevrildi. Bu, bir tərəfdən böyüklərin dünyasında uşaqların mövqeyinin möhkəmlənməsinə, digər tərəfdən isə tərbiyənin daha sərt, avtoritar xarakter kəsb etməsinə gətirib çıxardı.

Yazının yaranması və inkişafı məktəbin genezisinin ən mühüm amili oldu. Piktoqrafiyadan loqoqrafiyaya keçərkən nitqin yalnız ümumi mənası deyil, həm də ayrı-ayrı ifadələrə və sözlərə parçalanmasını əks etdirən yazı sistemi daha da mürəkkəbləşdi və xüsusi təlim tələb etdi. Bu da məktəbin imkanlarının genişlənməsinə, fəaliyyətinin səmərəliliyinin yüksəlməsinə şərait yaratdı. İbtidai icma quruluşunun axırlarından başlayaraq əqli əməyin fiziki əməkdən ayrılması prosesi yeni bir peşənin - müəllimliyin meydana gəlməsi ilə nəticələndi. İlk tədris müəssisələrinin yaranması üçün bəşəriyyət din xidmətlərinə borcludur. Din təlim-tərbiyə, xeyirxah fikir, xeyirxah söz və xeyirxah əməl ideyasının daşıyıcısı idi. Məktəblərin yaranması cəmiyyətin sosial tələbatlarından doğduğundan o, cəmiyyətin müəyyən iqtisadi, mədəni, sosial və siyasi tələblərinə cavab verirdi.

### Cəmiyyətin inkişafının hərəkətverici qüvvəsi

Cəmiyyətin inkişafının müəyyən mərhələsində meydana gələn məktəb sonrakı dövrlərdə nisbi müstəqillik kəsb etməklə yanaşı həm də cəmiyyətin tərəqqisinin başlıca stimuluna çevrildi, inkişafın, mədəni yüksəlişin əsas şərti və göstəricisi oldu. Məktəb ayrı-ayrı xalqların böyüyən nəslin təlim-tərbiyəsi ilə bağlı təcrübəsini, elm və mədəniyyət sahəsindəki nailiyyətlərini qoruyub saxladı, yazıya aldı və cəmiyyətin irəliyə doğru inkişafının hərəkətverici qüvvəsinə çevrildi.

İlk məktəb Şumer məktəbləri hesab olunur. S.Kramerin yazdığına görə, Şumer məktəbi mixi yazının meydana gəlməsi nəticəsində yaranmışdır. Burada təlim ümumi və icbari xarakter daşıyırdı, müəllimə xüsusi hörmət və ehtiram var idi. Sonralar Misirdə, Çində, Hindistanda yeni məktəb tipləri yarandı. Müəllim peşəsinə verilən tələblər də dəyişdi. Konfutsi müəllimin roluna yüksək qiymət verərək deyirdi ki, müəllim və şagird birgə boy atırlar. Bu səbəbdən də müəllim öz şagirdinə nümunə olmalı, daim öz biliyini təkmilləşdirməli, ciddiliyi və təmkinliyi ilə seçilməli, şagirdlərin fəallığını inkişaf etdirməli, onlara məntiqli və müstəqil düşünməkdə yardımçı olmalı, öyrəndiklərini daim təkrar etdirməli, biliklərin möhkəmləndirilməsi qayğısına qalmalıdır.

### Yeni insan idealı

Məktəb və təhsil tarixində orta əsrlər mühüm yer tutur. İslam mədəniyyətinin yaranması və inkişafında bu məktəblərin mühüm rolu vardır. Bu dövrdə yeni insan idealı yarandı. Əgər islamaqədərki dastanlarda şücaəti, qəhrəmanlığı ilə seçilənlər nümunə hesab olunurdusa, ilk müsəlmanlar səbri, təmkinliyi və paklığı üstün tuturdular. Burada islam tərbiyəsi mühüm yer tutur. İslam tərbiyəsi islam əxlaqının tərbiyə edilməsini nəzərdə tutur. O, insanlarda yalnız dini hisslərin, dini şüurun, dini əxlaqın aşılanması ilə məhdudlaşmır. Buraya dini və dünyəvi elmlərin öyrədilməsi, etik, estetik və əxlaqi tərbiyənin aşılanması daxildir. Xilafət dövründə müəllimlik o qədər nüfuzlu peşə hesab olunmasa da müəllimlər çox diqqətlə seçilirdi. Müəllim uşağın psixi xüsusiyyətlərini, fərdi qabiliyyət və imkanlarını bilməli, ailəli, yaşlı, ən başlıcası isə yüksək əxlaqi keyfiyyətlərə malik olmalı idi. Bu tələblərə uyğun gəlməyən müəllimlərə valideynlər öz uşaqlarını etibar etmirdi. Xilafət dövründə təhsil məktəb və mədrəsələrdə həyata keçirilirdi. O dövrdə nizamiyə mədrəsələri məşhur idi. XI-XIII əsrlərdə 238 nizamiyə məktəbi fəaliyyət göstərirdi. Burada tələbələrə tarix, məntiq, dilçilik, ədəbiyyatşünaslıq, ədəbiyyat tarixi, ritorika, riyaziyyat, astronomiya, təcvid, hədis, fiqh kimi elmlər öyrədilirdi. Mütərcimlərə tərcümə etdikləri kitabların çəkisi ağırlıqda qızıl verilirdi. İslam dünyasında məktəb eyni sistemə malik idi. Təbii ki, Xilafətin tərkibində olan Azərbaycanda da məktəb və mədrəsə geniş inkişaf tapmışdı. Əgər belə olmasaydı, onda Nizamilər, Füzulilər, Nəsimilər, Təbrizilər, Şirvanilər, Vidadilər, Vaqiflər yetişə bilməzdi. Təkcə bir faktı qeyd edək ki, Elxanilərin saray həkimi və vəziri olmuş Rəşidəddin, XIV əsrin əvvəllərində Təbrizdə “Rəbi-Rəşidi” şəhərciyi və “Darüş-Şəfa (“Şəfa evi”) adlı elmi mərkəz təsis etmişdi. “Rəbi-Rəşidi” tədris, tibb, elmi müəssisələri, o cümlədən rəsədxananı birləşdirən bütöv bir şəhərcik idi. “Darüş-şəfa” müasir universitetlərə bənzəyən ali məktəb (mədrəsə) idi. Orada Azərbaycan alimləri və müəllimləri ilə yanaşı digər ölkələrdən-Çindən, Hindistandan, Suriyadan və Misirdən dəvət olunmuş mütəxəssislər də çalışırdı. “Daruş-Şəfa”-nın kitabxanasında İrandan, Hindistandan, Misirdən, Çindən, Kritdən və başqa ölkələrdən gətirilmiş on minlərlə əlyazma kitabı vardı. Buraya təbiətşünaslığı, fəlsəfəni, tarixi, tibbi, astronomiyanı, məntiqi öyrənmək üçün hər il Şərqin müxtəlif ölkələrindən 6-7 min tələbə gəlirdi.Təhsil pulsuz idi. Xaricdən dəvət edilmiş alimlər yüksək məvacib və yaşayış evləri ilə təmin edilirdi. Azərbaycanda qədimdən müəllim - tərbiyəçi peşəsinə böyük ehtiram və məhəbbət olmuşdur. Onlar zərdüşt məktəblərində, Alban məktəblərində, VIII əsrdən isə məktəb və mədrəsələrdə millətin tərbiyəsi ilə məşğul olublar.

# UNEC-də Dövlət Müstəqilliyi Günü qeyd edilib

**Rəşad ZİYADOV**

Oktyabrın 18-i Azərbaycanın Dövlət Müstəqilliyi Günüdür. Bu münasibətlə Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) tədbir keçirilib. Dövlət himninin səslənməsi ilə başlanan tədbiri giriş sözü ilə universitetin prorektoru Şaiq Əsgərov açaraq dövlət müstəqilliyimizin tarixi haqqında ətraflı məlumat verib. Bildirib ki, 27 il əvvəl Azərbaycan Respublikası Ali Soveti Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Müstəqilliyinin ilk illərində ölkəmiz xeyli çətinliklərlə üzləşdi. 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev ölkəmizin müstəqilliyini əbədi və dönməz etdi: “Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, əslində Azərbaycan özünün əsl müstəqilliyini ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi. Məhz ümummilli liderin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi, siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu”.

Şaiq Əsgərov Azərbaycanı müsəlman Şərqində ilk demokratik respublika olan Xalq Cümhuriyyətinin varisi elan edən ümummilli lider Heydər Əliyevin müstəqilliyi qorumaq onu əldə etməkdən qat-qat çətindir məntiqi ilə nəhəng dövlət quruculuğu işlərindən də danışıb. Onun fikrincə, ulu öndər yorulmaz səyləri ilə qısa müddətdə Azərbaycanın səsini ən nüfuzlu beynəlxalq təşkilatların kürsüsündə dilə gətirdi. Müstəqilliyin əvəzsiz bir nemət olduğunu və xalqın tarixi taleyində çox önəmli rol oynadığını böyük qürur hissi ilə bəyan edən Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi: “Əsl müstəqillik isə öz sərvətlərinin tam sahibi olmaqdır. 1994-cü il sentyabrın 20-də Heydər Əliyevin müəllifi olduğu nəhəng neft müqaviləsi - “Əsrin kontraktı” imzalandı. Bununla da Azərbaycan ilk dəfə olaraq öz sərvətlərinin sahibi kimi çıxış etdi. Dünyanın aparıcı dövlətlərinin ən qabaqcıl şirkətlərinin bu kontraktda iştirakı isə ölkəmizin regionda əhəmiyyətini və nüfuzunu artırdı. Azərbaycan iri regional layihələrə, Avropa və bütövlükdə dünya enerji təhlükəsizliyi sisteminə qoşuldu. 1993-cü ildən başlayaraq dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən işlər və atılan məqsədyönlü addımlar Azərbaycanın bugünkü uğurları üçün ən etibarlı təməl oldu. Bir sözlə, əgər Azərbaycanın müstəqilliyi tarixi zərurətdən irəli gələn hadisə idisə, bu müstəqilliyin əbədiliyi və dönməzliyi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır”.

Tədbirdə Yeni Azərbaycan Partiyasının UNEC təşkilatının sədri, iqtisadi məsələlər üzrə prorektor Mikayıl Zeynalovun “Dövlət müstəqilliyimiz dünən, bu gün və sabah”, “Humanitar fənlər” kafedrasının professoru Nizami Süleymanovun “18 oktyabr-müstəqillik uğrunda mübarizəmizin mühüm mərhələsidir” məruzələri dinlənilib.

Tədbir Dövlət Müstəqilliyi Gününə həsr olunmuş videoçarxın nümayişi ilə başa çatıb.

# "Ədəbiyyat insana özünü dərk etməyə kömək edir"

Gülər HÜSEYNOVA,
Şabran Rayon Təhsil Şöbəsinin
ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi

## "Ədəbiyyat biliciləri" respublika müsabiqəsinin qalibi Lamiyə Hüseynova belə düşünür



*Artıq üçüncü ildir ki, təşkil olunan "Ədəbiyyat biliciləri" respublika müsabiqəsinin faydasını indi kiməsə sübut etməyə ehtiyac yoxdur. Elə təkcə builki müsabiqənin əhatə dairəsini göstərən rəqəm buna ən yaxşı sübutdur: 25 minə yaxın VIII-XI sinif şagirdi yarışmanın ilk-məktəb mərhələsində mübarizə aparırdı...*

Əsas hədəfi şagirdlərin Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin yaradıcılıqları haqqında məlumatlılıq səviyyəsini üzə çıxarmaq olan müsabiqə həm də ədəbiyyat nümunələrinin məktəblilər tərəfindən mütaliə olunması vəziyyətini öyrənməyə kömək edir. O, eyni zamanda mütaliəsi ilə fərqlənən şagirdləri aşkara çıxarır. Bunlar isə ədəbiyyat sahəsində istedadlılardır. Bu il üç mərhələdə təşkil olunan müsabiqənin finalında tələbkar münsiflərin "süzgəc"indən keçərək qaliblər sırasına düşən belə istedadlardan biri də Şabran şəhər T.Abbasov adına 1 nömrəli tam orta məktəbin XI sinif şagirdi Lamiyə Hüseynovadır. Müsahibimiz də məhz odur. Bir qədər ətraflı tanışlıq üçün qeyd edək ki, Lamiyə ibtidai təhsilini Şabran rayon Xırdaoymaq kənd ibtidai, ümumi orta təhsilini isə Təzəkənd kənd ümumi orta məktəblərində alıb. Hazırda şəhər T.Abbasov adına 1 nömrəli tam orta məktəbin XI sinif şagirdidir.

**- Lamiyə, ilk olaraq qalibiyyətinlə bağlı yaşadığın hissləri, yarışma haqqında təəssüratlarını bölüşməyini istərdik.**

- Düzü, o hissləri necə təsvir etmək olar, bilmirəm. Bu mənim həyatımın ən önəmli hadisələrindən biri idi. İndi də sizinlə danışanda həyəcanlanıram. Nəinki danışanda, özlüyümdə ağlıma belə gələndə ürəyimi bir qürur hissi bürüyür, üzümdə qeyri-ixtiyari bir təbəssüm yaranır. Qalibiyyət sevincini onu əldə etmək üçün çalışan hər kəsə arzulayıram.

Əslində qalib, daha doğrusu, birinci olduğumu ən son anda bildim. Yarışmada yer tutduğumu bilirdim, mükafatlandırılma mərasiminə dəvət edildiyimi də demişdilər. Amma birinci olduğumu hələ bilmirdim. Adımı birincilər sırasında görəndə sevincimin hədd-hüdudu yox idi.

Ümumiyyətlə, belə müsabiqələr təkcə biliyin artmasına, öz üzərində daha çox işləməyə deyil, həm də özünə inamın və güvənin artmasına səbəb olur. Bu da məqsədlərinə doğru aparan yolda addımlarını daha inamla atmağa kömək edir.

**- Bəs, ədəbiyyata maraq səndə necə yaranıb, ədəbiyyat sənin üçün nədir?**

- Ədəbiyyat sözünün mənası ədəb, mərifət deməkdir. Hansı ki, insanın ən yüksək mənəvi keyfiyyətlərindəndir. Yüksək mənəvi keyfiyyətlərə malik olmağı da hər kəs istəyər. Bunun üçün insan daima özünü təkmilləşdirməli, mənfi və müsbət cəhətlərini müəyyənləşdirməli, müsbətləri artırmalı, mənfiləri isə tərk etməlidir. Həyatda mənfi və müsbəti, xeyir və şəri birbirindən ayırmaq üçün ən mükəmməl köməkçi vasitə ədəbiyyatdır. Ədəbi əsər yaradan müəllif həyatda gördüyü hadisələri obrazlaşdıraraq, öz hiss və düşüncələrini əlavə edərək həmin əsəri qələmə alır. Elə buna əsaslanaraq demək olar ki, ədəbiyyat insan hisslərinə ən yaxın olan yaradıcılıq sahəsidir. Ədəbiyyatı mənə sevdirən də onun bu xüsusiyyətidir. İnsanın düşüncələrinə, hisslərinə şərik çıxır ədəbiyyat. Müsabiqə isə göstərdi ki, ədəbyyat mənə təkcə həyatı anladan dost olmadı, həm də qalibiyyət gətirdi. Onun mənə qazandıracağı ən böyük qalibiyyət isə həyat yollarıma salacağı işıq olacaq. Amma mən, yəqin ki, bunun üçün "Bir qalanın sirri" filmindəki Elşən kimi hələ çox oxumalıyam.

**- Bir əsəri oxuyarkən əsas nələrə diqqət edirsən, gözləntilərin nələr olur?**

- Hər yeni əsəri oxumağa başlayanda yeni nə isə öyrənmək istəyirəm. Ümumi məzmun, oradakı ayrı-ayrı fikirlər (çox xoşuma gələn fikirlərin altından sadə karandaşla xətt də çəkirəm) qədər əsərin sonluğu da mənim üçün önəmlidir. Düzdür, sonluq əsərin dəyərinə təsir etmir, amma istənilən halda mən müsbət sonluq arzulayıram və müsbət sonluqdan sonra əhvalım daha yüksək olur. Amma onu deyim ki, mənfi sonluq insanı daha çox düşünməyə sövq edir. Xüsusən də mənim kimi əsərin təsirində uzun müddət qalanlara. Əsas gözləntim isə... Bütün əsərlərdə, müəyyən mənada, özümü axtarıram. Bir gün mənim ifadə olunduğum bir əsər oxumaq istərdim.

**- Bəs, o əsəri özün yazmaq istəyərsənmi?**

- İndi özümdə o bacarığı görmürəm. Bəlkə də gələcəkdə bu bacarıq məndə yaranacaq. Əslində isə bunu çox istərəm. İnsanın heç kəsə deməyi fikirləri olur, düşünür ki, heç kəsə maraqlı olmaz, ya da ifadə etməkdən çəkinir müəyyən mənada. Bunun üçün yazmaq ən gözəl vasitədir. Yəqin ki, bütün yazıçıları yazmağa məhz bu sövq edir. Yazmaq üçün də çoxlu mütaliə lazımdır, təbii ki.

**- Əlavə bədii ədəbiyyata vaxt ayırmaq dərslərinə mane olmur ki?**

- Mane olmayacaq şəkildə oxumağa çalışıram. Əslində yeni tədris ili başlayandan buna xüsusi nəzarət edirəm, çünki vaxtımın məhdud olduğunu bilirəm. Amma, təbii ki, tamamilə kənara qoymağım da mümkün deyil. Bunu ədəbiyyatı sevənlər daha yaxşı bilərlər. Nə qədər dərs oxusan da istirahətə də vaxt ayırmaq lazımdır. Mən həmin vaxtı mütaliəyə sərf edirəm. Bu mənim üçün ən yaxşı istirahətdir.

**- Lamiyənin peşə seçimi necə olacaq, sizin ədəbiyyatla bağlılığınız seçiminizə təsir edəcəkmi?**

- Məqsədim hüquqşünas olmaqdır. Ədəbiyyatla bağlılığımın peşə seçimimə təsir etmədiyi kimi, peşə seçimim də ədəbiyyatla münasibətimə heç bir təsir etməyəcək. Düzdür, belə deyirəm, amma yəqin ki, oxuduğum əsərlərdə olan ədalətsizliklər, həmin ədalətsizliklərə görə məhv olan talelər mənim peşə seçimimə təsir etmiş deyil.

**- Söhbətimizin sonunda həmyaşıdlarına nəsə demək istərdin?**

- Özlərinə hansı peşəni seçmələrindən asılı olmayaraq ədəbiyyat oxumağı heç vaxt unutmasınlar. Çünki ədəbiyyat insana özünü dərk etməyə kömək edir və həyatda yaxşı yaşamağı öyrədir. Ədəbiyyat insanlara özünü başqalarının yerinə qoymağı öyrədir. Daha sağlam düşüncəli insanların cəmiyyətini formalaşdırmaq üçün yol ədəbiyyat oxumaqdan keçir. Mən bunu yolun hələ başlanğıcında anlamışam, özünüzə bu şansı versəniz, siz də anlayacaqsınız. Nə vaxt ki, insanlar özlərini başqalarının yerinə qoymağı öyrənəcəklər, o zaman cəmiyyətdə yaşamaq hamı üçün asan olacaq.



# "Hər bir uğur məni yeni qələbələrə ruhlandırır"

## Qaflan Abbasov: "Qazandığım uğurlarıma görə müəllimlərimə borcluyam"

Sifai SƏFƏROVA

Bakıdakı 214 nömrəli məktəbin şagirdi Qaflan Abbasov 2-8 oktyabr tarixlərində İspaniya krallığının Coste de Sol şəhərində keçirilən uşaq və gənclərin "Tu onda" (Sənin dalğan) Beynəlxalq festivalında vətənimizi layiqincə təmsil edib. Qalib olmaq təcrübəsinə artıq çoxdan yiyələnən Qaflan bu yarışmada da yolunu səbirsizliklə gözləyənlərə hədsiz sevinc bəxş edib. Elə biz də yenicə yaşanan sevinc hisslərini bölüşmək üçün istedadlı yeniyetməmiz ilə görüşdük. Festival və istedad yarışmasında ona uğur qazandıran bütün məqamlar barədə xoş təəssüratlarını dinlədim. Qaflanı dinlədikcə bir vacib həqiqət ümidimə də, elə yazacağım yazıya da əsas motiv, əsas mövzu oldu. Yəni, şübhə yeri qalmır ki, insan bütün çətinlikləri adlaya bilər, bütün arzularını gerçəkləşdirə bilər, əgər onda əzmkarlıq, zəhmətsevərlik və prinsipiallıq varsa. Gəlin, Qaflanın özünü dinləyək və bu yolda qazandığı nailiyyətlərin ona bəxş etdiyi hədsiz sevinc hisslərini yaşadan əsas məqamlara nəzər yetirək.

### Festivalda hər birimiz uğur qazandıq

-Üzvü olduğum 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzində istedadlı uşaqlar çoxdur. Amma festivalda 4 nəfər iştirak edirdik. Dostlarım vokal, milli rəqs, müasir rəqs, bal rəqsi və moda mədəniyyəti nominasiyaları üzrə çıxışlarını nümayiş etdirdilər. Bizim hər bir çıxışımız iştirakçılarda xoş ovqat yaratdı. Festivalda mərkəzin gənc vokalçısı Nigar Rəhimovanın ifa etdiyi "O mio babbino caro" italyan mahnısı akademik vokal nominasiyası üzrə I, estrada nominasiyası üzrə III yerə layiq görüldü. "Azərbaycan ritmləri" rəqsi milli rəqs, Anastasiya Kşnyakina ilə nümayiş etdirdiyimiz "Cayf" rəqsi bal rəqsləri nominasiyaları üzrə birincilik qazandı.

### Rüfətin çıxışı hamını heyran etdi

Moda mədəniyyəti nominasiyası üzrə Rüfət Məmmədovun podiumdakı çıxışı hamını heyran etdi. O, İspaniyanın məşhur və tanınmış modelyerinin hazırladığı geyimdə yüksək aktyorluq məharəti və professionallıq nümayiş etdirərək birincilik qazandı. Anastasiya Kşnyakina isə vokal nominasiyası üzrə "Bakının qızları" mahnısına görə festivalın laureatı adına layiq görüldü. Sevinirəm ki, festivaldakı çıxışlarımız münsiflər heyəti tərəfindən bəyənilib və gənc istedadlarımız Latviya, Litva, İsrail və Belarusda keçiriləcək festivallarda iştirak etmək üçün artıq dəvət alıblar.

### Sevinirəm ki, onların sırasında idim

2018-ci ildə mərkəzin bədii kollektivi Moskvada keçirilən "Açıq Avropa - Açıq Planet" XV beynəlxalq uşaq və gənclərin yaradıcılıq festival-müsabiqəsində iştirak edtdi və qalib oldu. 14 ölkədən 1500 iştirakçının qatıldığı müsabiqədə ölkəmizi təmsil edən "Azəri inciləri" rəqs qrupu müsabiqənin xoreoqrafiya bölməsində "Milli rəqs" nominasiyası üzrə "Odlar yurdu Azərbaycan" və Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettası əsasında qurulmuş rəqslə çıxış etdi. "Estrada rəqsləri" nominasiyası üzrə isə "Bal rəqsləri" dərnəyi üzvlərinin ifasında bəstəkar Tofiq Quliyevin "Vals" və "Cayf" rəqsi nümayiş olundu. "Kosmos" konsert zalında keçirilən qala-konsertə müsabiqənin ən istedadlı kollektivləri qatılmışdılar. Sevinirəm ki, mən də onların sırasında idim. "Odlar yurdu Azərbaycan" və "Cayf" rəqsləri festivalın qalibi oldu. Mən və Anastasiya Kşnyakina medal və diploma mükafatlandırıldıq.

### Oxumağı, rəqs etməyi çox sevirəm

Yeri gəlmişkən qeyd edim ki, 5 yaşımdan mərkəzin "Bal" rəqsləri, "Milli rəqs", "Azəri inciləri" rəqsləri qruplarının, "Çiçəyim" uşaq teatr studiyasının üzvüyəm. Oxumağı, rəqs etməyi çox sevirəm. Bal və milli rəqslərlə daha ciddi məşğul oluram. 2014-cü ildə "Trophu cup", 2015-2016-cı illərdə Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin keçirtdiyi yarışlarda dəfələrlə iştirak edərək I yeri qazandım. Üzərimə düşən obrazların məsuliyyətini başa düşdüyümdən səylə çalışıram. Eyni zamanda Novruz bayramına həsr olunan "Folklor-musiqi" müsabiqəsində "Əcnəbi rəqs kollektivi" nominasiyası üzrə I yerə layiq görüldüm. 2013-cü ildə Milli Konservatoriyada bal rəqsləri üzrə keçirilən müsabiqədə birincilik əldə edərək diplom və medala sahib oldum. Azərbaycan kuboku və idman rəqsləri üzrə keçirilən müsabiqələrdə həmişə I yerdə möhkəmlənmişəm. Rus və ingilis dillərində sərbəst danışıram. İdmanın taekvando növü ilə də məşğul oluram.

### İdman rəqsləri üzrə də yüksək nəticə göstəririk

İdman rəqsləri üzrə "Azərbaycan birinciliyi"ndə yüksək nəticə göstərdik. Azərbaycan İdman Rəqsləri Federasiyasının və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə idman rəqsləri üzrə "Azərbaycan birinciliyi" keçirildi. Mərkəzimizin "Bal rəqsləri" dərnəyinin üzvləri də həmin yarışlarda 3 nominasiya üzrə qələbə qazandı. Mən və Anastasiya Kşnyakina "Yuvenal 2", Raul Əliyev və Darya Kşnyakina "Yuvenal 1" nominasiyaları üzrə I yeri tutduq.

### Arzularım böyükdür

Qeyd edim ki, 2018-ci ilin iyununda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş "Ölkəmizin rəqs çələngi" respublika uşaq rəqs festivalında fəal iştirakıma görə diploma mükafatlandırıldım. Özümü şahmatda, rəsmdə də sınamışam. Hələ 11 yaşım var. Amma arzularım böyükdür. Böyüyəndə diplomat və ya həkim olmaq arzusu ilə yaşayıram. Bütün qazandığım uğurlara görə müəllimlərimə və valideynlərimə borcluyam. Onların sayəsində əldə etdiyim hər bir uğur məni yeni qələbələrə ruhlandırır.

*...Həvəslə və bir az da emosional şəkildə özünün, eləcə də üzvü olduğu 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzi üzvlərinin fərdi, həm də kollektiv şəkildə qazandıqları uğurlar barədə Qaflanın öz dilindən eşitmək xoş olduğu qədər də qürurverici idi. Sizin də maraqlı həmsöhbətimin istedad və bacarığına heyran olacağınıza şübhə yeri qalmır. Şəxsən onu dinləyərkən ürəyimin dərinliyində bir həqiqət də öz təsdiqini tapdı. Erkən yaşlarından əmək vərdişlərinə yiyələnən şəxs sağlam və ağıllı olar. Bu, danılmaz həqiqətdir.*

# İngilis dilini öyrənənlər üçün dərs nümunələri

BRITISH COUNCIL

LearnEnglish

## The greatest show on Earth?

by Jon Porter

**Over half the world's population watched the 2012 London Olympic Games on television – 3.6 billion people. And many went to the capital itself to watch in the flesh: the record for the most number of people using the Tube (the London Underground rail system) in one day was broken three days running in the first week of the Olympic Games: – 4.4 million passengers in one day.**



Just like the previous Games in Beijing in 2008, which set the bar very high indeed, the London Games were truly global. The records did not stop at the logistics, either. Human sporting performances also set new standards. Thirty-two world records were broken and reset during the Games, including the number of individual gold medals won by any Olympian: swimmer Michael Phelps finished the Games with 18 gold medals to his name. The fastest man in history was at it again, too. The incredible Usain Bolt won the 100m and 200m sprint gold medals, just like he did when he stunned the world in Beijing four years earlier, becoming the first man ever to defend those titles.

Any two countries watching the same Games will experience those Games differently. British athletes did very well at home. With 65 medals, 29 of them gold, the UK finished third in the overall medal table, behind the United States and China. It was Britain's most successful Games for over 100 years. By winning two gold medals in London, track cyclist Chris Hoy emerged as Great Britain's most successful athlete in Olympic history with a total of seven medals, including six golds. Heather Stanning and Helen Glover took the first Great Britain golds in women's rowing history, and Mo Farah 'did the distance double', winning gold in both the men's 5,000m and 10,000m track. The list goes on.

By contrast, however, Australia was less successful than usual, finishing tenth in the medals. Traditionally, there has always been a friendly rivalry between the UK and Australia in sport. International news headlines were made when John Coates, the head of the Australian Olympic Committee, was asked what he thought of the British swimmer Rebecca Adlington winning gold in Beijing. He replied: 'It's not bad for a country that has no swimming pools and very little soap.'

Perhaps just as memorable as the sport at London 2012 was the 'art'. UK film director Danny Boyle, of *Slumdog Millionaire* fame, directed a stunning opening ceremony rich with British history and culture in a global context. And who can forget the Queen 'jumping' out of a helicopter with James Bond?!

But was it all worth it? The cost of the games was almost £9 billion, massively over the original budget. Many people in the UK argued that people who live in London should pay a lot of the bills, since a high percentage of the money was spent on improving London transport and venues. Why should someone in Scotland, for example, pay extra tax to improve the lives of Londoners? At the same time, Londoners said they shouldn't have to pay for the Olympics, since any profits from the Games would be shared by the whole country, as we're all British taxpayers.

Opinion about the legacy of the Games still varies depending on who you ask. As people's economic fortunes vary, it might well look like an extravagant luxury, spending so much on a sporting event ...

But what an event it was!

### Activity 1: Before you read

Here are some numbers from the text. What do you think they refer to?

- a 3.6 billion
- b 100 and 200
- c 18
- d 2008
- e 65
- f 9 billion

Now look at the text quickly to see if your ideas were correct.

### Activity 2: Sporting idioms

In the article we can see the phrase, 'the bar has been set very high'. This idiom comes from the sporting event called the high jump. It means China set a high standard for a modern Olympic Games. What sports do you think the idioms below are taken from?

- a entering the home stretch
- b infighting
- c a game of two halves
- d falling at the first hurdle

### Activity 3: Comparatives and superlatives

Complete the following sentences that describe some of the records mentioned in the article.

1. London was the UK's ............ successful Games for over a century.
2. The ............ number of passengers that the London Underground system has carried in a single day is 4.4 million.
3. Michael Phelps won .............. gold medals in a single Games than any other athlete.
4. Usain Bolt is the ............... man ever to run the 100 and 200 metres.

## Fun corner

A person from London is called a Londoner. But where in the UK do you think these people are from?

1. a Geordie
2. a Brummie
3. a Scouser
4. a Mancunian
5. a Cornish person
6. a Cockney
7. a Manx person

## Word(s) of the day

**'The ball is in your court'**, which originates from tennis, is an idiomatic expression meaning that it is your responsibility or decision to do something.




### Answers

Activity 2
- a horseracing
- b boxing
- c football
- d 110m hurdles, steeplechase

Activity 3
1. most
2. largest/highest/biggest
3. more
4. fastest/quickest

Fun corner
1. Newcastle
2. Birmingham
3. Liverpool
4. Manchester
5. Cornwall
6. east London
7. the Isle of Man

Want to find more learning activities?
Visit www.britishcouncil.org/learnenglish

Send your feedback to learnenglishprint@britishcouncil.org

© British Council 2016

# Turgenev və onun "Mumu"su

## Yazıçının anasının da personajlarından biri olan əsəri necə yaranıb?

**Səbinə ƏLİYEVA,**
*"Ankara-məktəbi" məktəb-liseyin rus dili və ədəbiyyat müəllimi*

Böyük rus ədibi İvan Sergeyeviç Turgenevin təvəllüdündən 200 il keçir.. Ədibin məşhur "Mumu" povesti nəinki bu əsərin tədris olunduğu orta məktəbin hər bir şagirdinə, həm də rus ədəbiyyatına az-çox bələd olan hər kəsə məlumdur. 200 illik yubileyi ərəfəsində ədibin bu povestinin necə yaranması haqqında bilgilərimi həmkarlarımla paylaşmağa ehtiyac hiss etdim.

Rus realist yazıçısı, şairi, publisisti, dramaturqu, tərcüməçisi, rus dilşünaslığı, üslubiyyəti və ədəbiyyatşünaslığı üzrə İmperator Elmlər Akademiyasının müxbir üzvü (1860), Oksford Universitetinin fəxri doktoru (1879), Moskva Universitetinin fəxri üzvü (1880) İvan Sergeyeviç Turgenev 22 oktyabr 1818-ci ildə Rusiyanın Oryol şəhərində anadan olub, 3 sentyabr 1883-cü ildə Fransanın Bujeval şəhərində vəfat edib.

İ.S.Turgenev tərəfindən yaradılmış ədəbi sistem nəinki rus poetikasına, o cümlədən XIX əsrin ikinci yarısı Qərbi Avropa romanistikasına da təsirsiz ötüşməyib.

İ.S.Turgenev rus ədəbiyyatında ilk dəfə "yeni insanın" - "altmışıncıların" şəxsiyyətini - onun əxlaqi keyfiyyətlərini və psixoloji xüsusiyyətlərini öyrənib, məhz onun sayəsində rus dilində "nigilist" termininin geniş istifadə edilməsinə başlanılıb.

İ.S.Turgenevin "Mumu" povestində qələmə aldığı əhvalat - uydurma, yazıçı təxəyyülü məhsulu olmayıb, real həyatdan götürülüb. Belə ki, personajlar yazıçıya çox yaxın olan insanlar olub, hətta öz anası Varvara Petrovna da onların sırasındadır.

Hadisələr bu gün də Moskva şəhərində mövcud olan Ostojenka küçəsi 37 nömrəli evdə cərəyan edib.

Varvara Petrovna Turgenevanın malikanəsində Andrey adlı dalandarı var idi.

Varvara Jitova (Varvara Petrovnanın ailə həkimi Bersdən olan nikahdankənar qızı) öz xatirələrində Andreyi xüsusi simpatiya ilə təsvir edirdi.

Olduqca nəhəng, lakin tamamilə mütənasib, uca boylu Andreyin çöhrəsindən daim mehriban təbəssüm əskik olmazdı. Qeyri-adi fiziki gücə malik olan Andreyin əlləri o qədər iri idi ki, hərdən məni əlləri üzərinə götürəndə özümü ekipaja (faytona) minmiş kimi hiss edirdim.

Anadangəlmə lal və kar olan Andrey, malikanənin ərazisində tikilmiş taxta evdə (fligeldə) yaşayırdı və o dövrün Moskvasında məşhur idi.

Varvara Petrovna şıq geyimli öz nəhəng dalandarı ilə gəzintiyə çıxardı. Andrey adətən çox qəşəng geyinər, qırmızı qumaş köynəklərdən başqa libas geyməz və sevməzdi...

Moskvada Aleksandr adına bağın yaxınlığındakı fontanın ətrafında parlaq yaşıl çəllək və gözəl boz kəhərlə suya gedən Andrey çox populyar idi. Orada hamı Turgenevlərin lal dalandarına hörmətlə yanaşar və işarələrlə anlaşardılar.

Andreyin, üzərində qəhvəyi xalları olan ağ rəngli sevimli küçüyü var idi. Bu itdən nə səbəbdənsə sahibənin xoşu gəlməyib və onun çayda boğulmasını əmr edib.

Andrey də Moskva çayının Lujniki rayonunda zavallı itciyəzi çayda qərq edib.

Yeri gəlmişkən İvan Sergeyeviç "Mumu" povestini Moskva şəhərində deyil, Peterburqun İkinci Admiralteystvo hissəsində yerləşən polis evində həbsdə olarkən yazıb. Ona, senzuranın etirazına baxmayaraq, Qoqol haqqında yazdığı və "Moskovskiye vedomosti" qəzetində çap etdirdiyi məqaləyə görə bir aylıq həbs cəzası verilib.

Ədib bu polis evində, Ostojenkoda vaqe olan əhvalatları xatırlayaraq öz sevimli anası, şanlı dalandar Andrey və onun zavallı köpəyi haqqında kiçikhəcmli povest yazır.

Doğrudur, bu əsərdə Gerasim prototipi Andreylə müqayisədə daha barışmaz və məğrur təsvir olunub.

"Mumu"nun qəhrəmanı baş vermiş hadisədən sonra öz kəndinə qayıdıb və bununla təhkimçilik hüququnun tüğyan etdiyi dövrdə bir insanın digərləri üzərində hakimiyyətinə qarşı öz sinfi və insani etirazını kəskin şəkildə bildirib.

Gerasim sahibəsinə itaət etməyə bilməzdi. O, öz təhkimli, tabe insan rolunu icra edirdi.

Sahibə xanım isə öz sinfinin tipik nümayəndəsi kimi rəftar etməli idi.

İş sahiblərin zalımlığı və amansızlığında deyildi, onların hər biri mənsub olduqları sinfin təmsilçisi olaraq onun rolunu ifa edirdilər.

Əsl dalandar isə Mumunu çayda qərq etdikdən sonra, sahibə xanımı bağışlayır, qırmızı qumaş köynəyini geyinərək gəzintiyə çıxır və Aleksandr bağından su daşımağa davam edərək köhnə quldarlıq hüququ ənənələrilə mayalanmış sadiq təhkimli olaraq qalır.

Sahibə xanım ona hədiyyə olaraq parlaq qırmızı lent verərdisə, o, sahibəsinin əllərini öpər, sonra onu göstərərək yumruqla sinəsinə vuraraq öz məhəbbətini belə büruzə verərdi.

Gənc Turgenev - qətiyyən dünyaca məşhur İ.S.Turgenevə bənzəmir.

Lakin onun qeyri-adi taleyinin bütün mərhələlərində bu insanın zəngin ruh aləmi yüksək, gərgin və maraqlı olmuşdur.

Anası ilə dostluğu onun bütün həyatından qırmızı xətlə keçir.

Bu cür incə qəlbə və ruh aləminə sahib insan, bizlərə adətən, uğursuz, nəhs və qəddar təqdim edilən Spassk malikanəsinin sahibəsini, Varvara Petrovnanı sevə bilməzdi.

Bu qeyri-adi hörmət və şəfqətə layiq faciəvi taleyə malik qadının nəsibi bədbəxt uşaqlıq və tənha ölüm olmuşdur.

Ədibin atası Sergey Nikolayeviçlə görüş onun sönük həyatı ilə kəsişən parlaq işıq zolağını xatırladır.

Payız axşamlarının birində bir qonşu kimi Spassk malikanəsinə təşrif gətirən Sergey Nikolayeviç Varvara Petrovna ilə "kart" oyunu masası arxasına keçir və adəti üzrə çoxlu pul uduzur. Varvara Petrovna işvəkarlıq etmirdi. O, təmkinlə, istehza və nəvazişlə "Sizin uduzduğunuz pulların özünüzə qaytarmağın yeganə yolu onlara mənə məxsus geniş mülklərin, söz yox ki, mənimlə birgə birləşdirilməsi ilə mümkün ola bilər!!!".

Sonralar yazıçının yeniyetməlik və gənclik illərində dərin izlər buraxmış, yaradıcılığında aydın sezilən çoxhissəli dram əsərini xatırladan uşaqlıq illəri gəlir.

Ədəbiyyat klassikləri adlandırdığımız şəxsiyyətlər dünyanın qeyri-təkmil və qeyri-mükəmməl olduğunu gördükdə özlərinə məxsus yanlışlıqlara yol verən, tərəddüd edən, əzabkeş, qorxulu anlar yaşayan adi, dünya onların gözlərinə gözəl, şux və harmonik göründükdə isə, inanılmaz valehedici bəxtiyarlığa və həzzverici xoşbəxtliyə qovuşan qeyri-adi insanlar olmuşlar.

İvan Sergeyeviç Turgenev belə klassiklərdəndir.

"Mumu" povestinin qəhrəmanı Gerasim kəndinə qayıdır.

Onun kimiləri Rusiyanın gələcəyi olacaqdı...

# İngiltərədə 11 min gənc müəllim məktəbi tərk edib

**Oruc MUSTAFAYEV**

İngiltərədə təhsil müəssisələri müəllimləri məktəbə cəlb etmək üçün ciddi səylər göstərir. Daha çox müəllim heyəti çatışmazlığı problemi paytaxt Londonda yaşanır. "The Guardian" qəzetinin yazdığına əsasən, 2012-ci ildə ixtisaslaşmadan keçmiş müəllimlərin yalnız 57 %-i 2017-ci ilə qədər məktəbdə qalaraq işləyib. Rəsmi məlumatlara görə, 2010-cu ildə paytaxtda işə başlamış 35 min gənc müəllimdən 11 mini məktəbi tərk edib. Vəziyyət 2011-ci ildən pisləşməyə başlayıb. 2015-ci ildən 2017-ci ilə qədər müəllimlərin dörddə birindən çoxu məktəbdən uzaqlaşıb. Hökumət bu vəziyyəti çox həyəcanlı hal kimi qiymətləndirir. Məmurların fikrincə, müəllim çatışmazlığı böhranı dünən başlamayıb və əlverişsiz ümumi iqtisadi situasiya ilə izah olunur: yaşayış xərcləri artıb, ev almaq imkanı yoxdur və s. Bundan başqa, bu tendensiyanın qarşısını alacaq dəqiq plan da yoxdur. Vəziyyəti xüsusilə kəskinləşdirən məqam odur ki, bu cür situasiya yerlərdə, xüsusən də paytaxtda şagirdlərin sayının artması fonunda baş verir.

Təhsil Nazirliyi (Department for Education - DfE) 2025-ci ilə qədər orta məktəblərdə şagird sayının 19,4 faiz artacağını proqnozlaşdırır. Hökumətin təhsil proqramlarını tənqid edən ekspertlər baş verənlərin səbəblərinin maliyyə vəsaitlərinin qeyri-rasional xərclənməsi ilə izah edirlər. Məsələn, yeni müəllimlərin təliminə xərclənən vəsaitin həcmi mövcud məktəb müəllimlərinin inkişafına xərclənən vəsaitlərdən 10 dəfə artıqdır.

Təhsil Nazirliyinin nümayəndələri inandırırlar ki, problem haqqında məlumatlıdırlar və onun həlli üçün bütün gücləri səfərbər ediblər. "Biz məktəblərə müəllimlərin cəlb edilməsi üzrə səyləri davam etdirəcəyik. Biz ən yaxşı müəllimlərin bu peşədə qalması və həmçinin onların yükünün azaldılması üçün mümkün bütün təşəbbüsləri göstərəcəyik", - deyə nazirliyin nümayəndəsi bildirib.



# Cüdo üzrə beynəlxalq "Təhsil kuboku"

Təhsil Nazirliyi və Azərbaycan Cüdo Federasiyasının dəstəyi, 13 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin təşkilatçılığı ilə yeniyetmələr arasında cüdo üzrə beynəlxalq "Təhsil kuboku" keçirilir. Oktyabrın 13-dən 14-dək keçirilən yarışda Türkiyə, Polşa, Ukrayna, Rusiya və ümumilikdə 13 ölkə iştirak edib.

Yarışda 900-dən artıq cüdoçu mübarizə aparıb. Yarış bitdikdən sonra yeniyetmə cüdoçular öz ustalıqlarını artırmaq məqsədilə 3 günlük təlim məşq toplanışına qatılıblar.

**"AZƏRBAYCAN MÜƏLLİMİ"**

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Nurəddin Heydərov 538-21-66

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4597, **Sifariş** 3110

**Məsul növbətçi:** S.Cəfərov

# Etibarsız sayılır

**Bakı şəhər** L.Tolstoy küçəsi 53-də yerləşən Məmmədova Ceyran İslam qızına məxsus Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestrindən I 0047789 nömrəli çıxarış itdiyi üçün etibarsız sayılır.

**Bakı İslam Universiteti** tərəfindən 2011-ci ildə Şirinov Natiq Məhəmmədnəbi oğluna verilmiş 1337 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayonu** Əlicanlı kənd tam orta məktəbinin VIII sinfini 1981-ci ildə bitirmiş Zeynalova Yeganə Səxavəddin qızına verilmiş AZ-II-216492 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**ADNSU-nun nəzdində Bakı Neft Energetika Kolleci** tərəfindən 2018-ci ildə Əhmədov Elşən Nazim oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 14 nömrəli tam orta məktəbin VIII sinfini 1988-ci ildə bitirmiş Cəfərova Gülnara Hüseyn qızına verilmiş 325016 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 16 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Quliyeva (Abdinova) Nərmin Nazim qızına verilmiş A-431189 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 31 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Quliyev Rövşən Misir oğluna verilmiş A-723174 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 7 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Quliyev Samir Fidail oğluna verilmiş A-479616 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 24 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Şahverdiyeva Jalə Nizami qızına verilmiş B-116617 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir Turizm Kolleci** tərəfindən 2011-ci ildə Yusifov Elçin Rafis oğluna verilmiş AA-007834 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Müəllimlər İnstitutu** (Cəlilabad filialı) tərəfindən 2015-ci ildə Babayeva Lalə Mirkalam qızına verilmiş A-057433 nömrəli fərqlənmə bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 162 nömrəli tam orta məktəbin IX sinfini 2018-ci ildə bitirmiş Rəsulova Ülviyyə Tələt qızına verilmiş C-177416 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon** Mahamlar kənd tam orta məktəbini 2010-cu ildə bitirmiş Mehdiyev Fuad Ramazan oğluna verilmiş B-748423 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Vilvan kənd tam orta məktəbini IX sinfini 2004-cü ildə bitirmiş Qurbanova Sevinc Mirqafil qızına verilmiş A-063864 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı Humanitar Kolleci** (keçmiş Bakı Mədəni-Maarif Texnikumu) tərəfindən 1990-cı ildə Əliyeva Şəhla Əşrəf qızına verilmiş KT-031695 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**67 nömrəli Bakı Texniki Peşə Məktəbi** tərəfindən 1993-cü ildə Allahverdiyev Afər Nəriman oğluna verilmiş 0011010 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kooperasiya Universiteti** tərəfindən 2017-ci ildə Cəbizadə Yadulla Vüqar oğluna verilmiş A-139475 nömrəli bakalavr diplomu tapıldığı üçün etibarlı sayılır.

**Bakı Slavyan Universiteti** tərəfindən 2016-cı ildə Vəliyeva Ayşən Fərahim qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 188 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Əsədova Fidan Abbas qızına verilmiş A-098804 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 83 nömrəli məktəb-liseyi tərəfindən 2016-cı ildə Əliyev Polad Canpolad oğluna verilmiş A-595636 nömrəli dublikat şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Qaracəmirli kənd tam orta məktəbini 2007-ci ildə bitirmiş Alızadə Rüfət Rəfayıl oğluna verilmiş A-470330 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 320 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Mayılov Malik Bayram oğluna verilmiş B-680099 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 4 nömrəli tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Qasımzadə (Muradov) Murad Fikrət oğluna verilmiş A-309341 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayonu** Zəngişalı kənd tam orta məktəbini 2001-ci ildə bitirmiş Əsədov Elnur Yavər oğluna verilmiş A-564280 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Mikayılı kənd tam orta məktəbini (əvvəlki Cəfərli kənd 1 nömrəli) 1995-ci ildə bitirmiş Əliyev Hikmət Əsədxan oğluna verilmiş 14 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 9 nömrəli tam orta məktəbin IX sinfini 2001-ci ildə bitirmiş Qasımov İlqar Həzi oğluna verilmiş B-317964 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 2 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Məmmədova Səmayə Fəxrəddin qızına verilmoş A-560567 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Xüsusi Orta Milis Məktəbi** tərəfindən 1993-cü ildə Allahverdiyev Şahin Həsən oğluna verilmiş LT-745809 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 4 nömrəli Digah tam orta məktəbini 2015-ci ildə bitirmiş Xankişiyeva Nuran İxtiyar qızına verilmiş A-466108 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 49 nömrəli tam orta məktəbi 1988-ci ildə bitirmiş Kərimov Rövşən Qorxmaz oğluna verilmiş 532238 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon** Talalar 2 nömrəli kənd tam orta məktəbi 2014-cü ildə bitirmiş Abdullayeva Tünzalə Nəzir qızına verilmiş A-374325 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Böyük Kəngərli kənd tam orta məktəbini 1987-ci ildə bitirmiş Əliyev Sərdar Vahid oğluna verilmiş A-233022 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ağdam Musiqi Kolleci** tərəfindən 2018-ci ildə Vəliyev Nicat Xosrov oğluna verilmiş AA-107615 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes və Kooperasiya Kolleci** tərəfindən 2014-cü ildə Abdullayeva Nazıbəyim Vahid qızına verilmiş A-051495 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Bozalqanlı kənd tam orta məktəbini 2015-ci ildə bitirmiş Tanrıverdiyev Murad Hidayət oğluna verilmiş A-582610 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Aqrar Universiteti** tərəfindən (keçmiş Kənd Təsərrüfatı Akademiyası) 1999-cu ildə Musayeva Rəna Abbasəli qızına verilmiş A-047911 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Göyçay Peşə Liseyi** tərəfindən 2003-cü ildə Hacıyeva Fatma Əvəz qızına verilmiş AB-073070 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2017-ci ildə Kərimli Nigar Elşən qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** 4 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Zərgərli İlkin Mirməmmədəli oğluna verilmiş A-670008 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycanın 60 illiyi adına Stepanakert Pedaqoji İnstitutu** tərəfindən 1987-ci ildə Muradov Yusif Lənkəran oğluna verilmiş HB-974710 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2003-cü ildə Abdulrəhmanova Rəna Oqtay qızına verilmiş AB-I-081467 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Məktəbəqədər təhsil sektorunun müdiri Nərminə Alnağıyevaya bacısı

**ZAHİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Təhsil Nazirliyindən Əsgər Quliyev Bakı şəhər 32 nömrəli tam orta məktəbin direktoru Sevda Abdullayevaya anası

**MÜXƏK XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı şəhər 32 nömrəli tam orta məktəbin kollektivi məktəbin direktoru Sevda Abdullayevaya anası

**MÜXƏK XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı şəhər 53 nömrəli tam orta məktəbin kollektivi məktəbin Azərbaycan dili müəllimi Mətanət İbrahimovaya oğlu

**RZA İBRAHİMOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı şəhər 53 nömrəli tam orta məktəbin kollektivi məktəbin riyaziyyat müəllimi Mənsurə Qacarovaya anası

**MƏLƏK QACAROVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# İnnovasiyalar universitetlərin nüfuz göstəricisidir

Oruc MUSTAFAYEV

## Yeni tədqiqat ali təhsildə yeni meyilləri qiymətləndirir

İnnovasiyalar müasir təhsil trendləri sistemində universitetin fəaliyyətində özünü daha qabarıq göstərən keyfiyyət göstəricilərindəndir. Və dünya ali təhsil məkanında bu və ya digər universitetin nüfuzuna təsir edən əsas faktorlardandır. Son 10 il ərzində qlobal reytinqlərə baxdıqda ən çox çəkisi olan ali məktəblərin ön sıralarında innovasiyalara meyilli universitetlərin daha çox dominantlıq təşkil etdiyini görə bilərik. Dünyanın nüfuzlu “Röyter” agentliyi yeni tədqiqatını məhz innovativ universitetlər mövzusuna həsr edib. Amerikanın və eləcə də dünyanın ən nüfuzlu elmi bazalarından hesab olunan “Clarivate Analytics” şirkəti ilə birlikdə tərtib olunmuş reytinqdə əsasən “elmin inkişafı üçün maksimum işlər görən, yeni texnologiyalar ixtira edən, yeni bazarları və sahələri dəstəkləyən” yenilikçi universitetlər yer alıb.

Agentliyin dünyanın 100 ən innovativ ali məktəblərinin siyahısına artıq 4 ildir ki, ABŞ-ın nüfuzlu Stenford Universiteti başçılıq edir. Agentlik qeyd edir ki, Stenford Universitetinin son tədqiqatları süni intellekt sahəsində kəşfləri əhatə edir ki, onların da arasında əsasən pilotsuz maşınlar üçün yeni kameraların və farmokoloqlara yeni dərman preparatlarının insanlara təsirini modelləşdirməyə imkan verən platformaların hazırlanmasını göstərmək olar.

Reytinqdə yer almış 100 universitetdən 46-ı ABŞ-ın payına düşür. Sıralamada ikinci yer Massaçusets Texnologiya İnstitutuna, üçüncü yer isə Harvard Universitetinə məxsusdur. İlk beşliyin sonunda Pensilvaniya və Vaşinqton universitetləri yerləşib.

İlk onluqda, Amerika ali təhsil müəssisələrindən başqa, həmçinin yeddinci mövqeyi tutmuş Belçikanın Leven Katolik Universitetini və səkkizinci yerdə qərarlaşmış London İmperial Kollecini qeyd etmək olar. Ən böyük irəliləyiş Böyük Britaniyanın Mançester Universitetinə məxsusdur. Bu ali məktəb ötənilki 80-ci yerdən 53-cü yerə yüksələ bilib. “Röyter” bu sıçrayışı ali məktəbin qrafen sahəsində kəşfləri ilə izah edir. Reytinqdə ABŞ 46, Almaniya və Yaponiya 9, Cənubi Koreya 8, Çin, Fransa və Böyük Britaniya 5, İsveçrə 3, Belçika, Kanada, İsrail və Niderland 2, Danimarka və Sinqapur 1 universitetlə təmsil olunub.

Ümumilikdə yüzlükdə Asiyanın 22 universiteti yer alıb. Bu cür fəallığın arxasında isə hökumət tərəfindən innovasiya layihələrinin stimullaşdırılması üzrə yeni proqramların həyata keçirilməsi və ali məktəblərin diqqətinin patent almağa yönəldilməsi dayanıb.

Bir mühüm məqam da qeyd olunmalıdır ki, universitetin siyahının yuxarı və ya aşağı sırasında yerləşməsindən asılı olmayaraq, onların hamısı dünya üzrə top-100-lükdədir. Bütün bu universitetlər orijinal tədqiqatlar aparır, mühüm texnologiyalar yaradır və dünya iqtisadiyyatını stimullaşdırırlar.

Reytinq tərtib olunarkən ali məktəblərin akademik fəaliyyətinə dair çoxsaylı göstəricilər - universitetlərin patent almaq üçün təqdim etdikləri sifarişlərin sayı, ali məktəb əməkdaşlarının elmi işlərindən sitatgətirilmə əsas götürülür. “Röyter” qeyd edir ki, bu il Böyük Britaniyanın Avropa Birliyi tərkibindən çıxması kimi geosiyasi faktorun reytinqin nəticələrinə təsiri istisna olunmur. Agentlik hesab edir ki, bu prosesə hazırlıq Böyük Britaniya ali məktəblərində tədqiqatların sayının azalmasına səbəb ola bilər.

| Reytinq | Ali məktəbin adı | Ölkələr |
|---|---|---|
| 1. | Stanford University | ABŞ |
| 2. | Massachusetts Institute of Technology (MIT) | ABŞ |
| 3. | Harvard University | ABŞ |
| 4. | University of Pennsylvania | ABŞ |
| 5. | University of Washington | ABŞ |
| 6. | University of Texas System | ABŞ |
| 7. | KU Leuven | Belçika |
| 8. | Imperial College London | Böyük Britaniya |
| 9. | University of North Carolina Chapel Hill | ABŞ |
| 10. | Vanderbilt University | ABŞ |
| 11. | Korea Advanced Institute of Science & Technology (KAIST) | Cənubi Koreya |
| 12. | Federal Institute of Technology in Lausanne (EPFL) | İsveçrə |
| 13. | Pohang University of Science & Technology (POSTECH) | Cənubi Koreya |
| 14. | University of California System | ABŞ |
| 15. | University of Southern California | ABŞ |
| 16. | Cornell University | ABŞ |
| 17. | Duke University | ABŞ |
| 18. | University of Cambridge | Böyük Britaniya |
| 19. | Johns Hopkins University | ABŞ |
| 20. | University of Tokyo | Yaponiya |
| 21. | California Institute of Technology | ABŞ |
| 22. | Osaka University | Yaponiya |
| 23. | University of Michigan System | ABŞ |
| 24. | Northwestern University | ABŞ |
| 25. | University of Wisconsin System | ABŞ |
| 26. | Kyoto University | Yaponiya |
| 27. | University of Minnesota System | ABŞ |
| 28. | University of Illinois System | ABŞ |
| 29. | Georgia Institute of Technology | ABŞ |
| 30. | University of Utah | ABŞ |
| 31. | University of Erlangen Nuremberg | Almaniya |
| 32. | Ohio State University | ABŞ |
| 33. | Columbia University | ABŞ |
| 34. | Seoul National University | Cənubi Koreya |
| 35. | University of Toronto | Kanada |
| 36. | Tohoku University | Yaponiya |
| 37. | University of Pittsburgh | ABŞ |
| 38. | Yale University | ABŞ |
| 39. | Sungkyunkwan University | Cənubi Koreya |
| 40. | University of Oxford | Böyük Britaniya |
| 41. | University of Colorado System | ABŞ |
| 42. | Tufts University | ABŞ |
| 43. | Baylor College of Medicine | ABŞ |
| 44. | Tsinghua University | Çin |
| 45. | Technical University of Munich | Almaniya |
| 46. | Kyushu University | Yaponiya |
| 47. | Tokyo Institute of Technology | Yaponiya |
| 48. | University College London | Böyük Britaniya |
| 49. | Swiss Federal Institute of Technology Zurich | İsveçrə |
| 50. | Purdue University System | ABŞ |
| 51. | University of Chicago | ABŞ |
| 52. | Oregon Health & Science University | ABŞ |
| 53. | University of Manchester | Böyük Britaniya |
| 54. | Indiana University System | ABŞ |
| 55. | University of Montpellier | Fransa |
| 56. | University of Munich | Almaniya |
| 57. | Technical University of Denmark | Danimarka |
| 58. | Emory University | ABŞ |
| 59. | Peking University | Çin |
| 60. | Sorbonne University | Fransa |
| 61. | University of British Columbia | Kanada |
| 62. | Delft University of Technology | Niderland |
| 63. | National University of Singapore | Sinqapur |
| 64. | Princeton University | ABŞ |
| 65. | University of Zurich | İsveçrə |
| 66. | Hanyang University | Cənubi Koreya |
| 67. | Case Western Reserve University | ABŞ |
| 68. | Yonsei University | Cənubi Koreya |
| 69. | Rutgers State University New Brunswick | ABŞ |
| 70. | Boston University | ABŞ |
| 71. | University of Massachusetts System | ABŞ |
| 72. | Johannes Gutenberg University of Mainz | Almaniya |
| 73. | Wake Forest University | ABŞ |
| 74. | Keio University | Yaponiya |
| 75. | Korea University | Cənubi Koreya |
| 76. | University of Florida | ABŞ |
| 77. | Leiden University | Niderland |
| 78. | University of Paris Descartes-Paris 5 | Fransa |
| 79. | Hebrew University of Jerusalem | İsrail |
| 80. | University of Cincinnati | ABŞ |
| 81. | University of Freiburg | Almaniya |
| 82. | Ruprecht Karl University Heidelberg | Almaniya |
| 83. | State University of New York System | ABŞ |
| 84. | University of Claude Bernard-Lyon 1 | Fransa |
| 85. | University of Virginia | ABŞ |
| 86. | Dresden University of Technology | Almaniya |
| 87. | University of Iowa | ABŞ |
| 88. | Ghent University | Belçika |
| 89. | Shanghai Jiao Tong University | Çin |
| 90. | Hokkaido University | Yaponiya |
| 91. | Tel Aviv University | İsrail |
| 92. | Karlsruhe Institute of Technology | Almaniya |
| 93. | Zhejiang University | Çin |
| 94. | Fudan University | Çin |
| 95. | University of Miami | ABŞ |
| 96. | Arizona State University | ABŞ |
| 97. | University of Paris Sud - Paris 11 | Fransa |
| 98. | Gwangju Institute of Science & Technology | Cənubi Koreya |
| 99. | Nagoya University | Yaponiya |
| 100. | Free University of Berlin | Almaniya |


Stenford Universiteti


Massaçusets Texnologiya İnstitutu


Harvard Universiteti


Pensilvaniya Universiteti


Vaşinqton Universiteti